AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDU



# İLLİK HESABAT

# 2008

# MÜNDƏRİCAT


GİRİŞ . . . . . 3

AZƏRBAYCANIN MAKROİQTİSADİ İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ . . . . . 5

DÖVLƏT NEFT FONDUNUN 2008-ci İLDƏ MALİYYƏ FƏALİYYƏTİ . . . . . 8

Dövlət Neft Fondunu formalaşdıran mənbələrdən gəlirlər . . . . . 10

Dövlət Neft Fondunun vəsaitlərinin idarə edilməsi ilə bağlı gəlirlər . . . . . 15

Dövlət Neft Fondunun xərcləri . . . . . 29

Dövlət Neft Fondunun büdcəsinin icrası . . . . . 35

NEFT FONDUNUN İDARƏETMƏ SİSTEMİ . . . . . 40

İnsan resurslarının inkişafı . . . . . 41

Hesabat sistemi . . . . . 42

NEFT FONDUNUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ . . . . . 43

Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflıq təşəbbüsü . . . . . 44

DÖVLƏT NEFT FONDUNUN 2008-ci İLDƏ MALİYYƏ FƏALİYYƏTİ HAQQINDA HESABATINA DAİR AUDİTOR ŞİRKƏTİNİN RƏYİ . . . . . 46

Müstəqil Auditorun Rəyi . . . . . 47

Maliyyə Hesabatları . . . . . 48

Maliyyə Hesabatları ilə bağlı qeydlər . . . . . 53



# GİRİŞ

# 1

2008-ci ildə bütün dünyanı əhatəsinə almış iqtisadi böhranın genişləndiyi bir şəraitdə Azərbaycan iqtisadiyyatı inkişafını davam etdirmişdir. Ölkədə son illər ərzində strateji valyuta ehtiyatlarının artması, iqtisadiyyata maliyyə axınlarının genişlənməsi, bank sistemində aparılan islahatlar və iqtisadiyyatın diversifikasiyasına yönəldilmiş siyasət ilə əlaqədar dünyada baş verən böhranın ölkə iqtisadiyyatına təsiri məhdud olmuşdur. Beynəlxalq enerji layihələrinin reallaşdırılması və regional əməkdaşlığın inkişaf etdirilməsi şəraitində Azərbaycanın beynəlxalq dayaqları möhkəmlənir, regionda siyasi çəkisi və nüfuzu daha da yüksəlir.

Milli Neft Strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə istismarı və ixracının genişlənməsi nəticəsində 2008-ci il ərzində dövlətin valyuta ehtiyatları, o cümlədən Dövlət Neft Fondunun valyuta vəsaiti sürətlə artmışdır. Belə ki, 2008-ci ilin 1 yanvar tarixinə **2,47 milyard ABŞ dolları** təşkil etmiş Dövlət Neft Fondunun vəsaiti il ərzində 8,7 milyard ABŞ dolları və ya 4,5 dəfə artaraq ilin sonuna **11,2 milyard ABŞ dolları** təşkil etmişdir.

2008-ci ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə xam neftin nəqli ilə əlaqədar Dövlət Neft Fondunun daha bir gəlir mənbəyini neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar BTC layihəsi üzrə Azərbaycan Respublikasının payına düşən **119,6 milyon ABŞ dolları** məbləğində dividendlər təşkil etmişdir.

Neft sektoru ilə yanaşı, ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə artan maliyyə imkanları hesabına ölkədə mühüm investisiya, o cümlədən infrastruktur layihələri və regionların inkişafı üzrə dövlət proqramları həyata keçirilir. Bu proqramlar və tədbirlərin icrası çərçivəsində 2008-ci ildə ölkənin bütün bölgələrində və Bakı şəhərində müxtəlif infrastruktur, təhsil, sosial və digər obyektlər inşa olunmuşdur. İnsan-

ların həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması, sosial məsələlərin həlli, yoxsulluğun azaldılması istiqamətində mühüm işlər görülüb, əhalinin pul gəlirləri artmışdır.

2008-ci ildə Dövlət Neft Fondunun vəsaiti hesabına mühüm infrastruktur və sosial yönümlü, suvarma və su təchizatı sisteminin inkişaf etdirilməsi ilə bağlı layihələr maliyyələşdirilmişdir. Neft Fondu tərəfindən Oğuz-Qəbələ-Bakı su kəməri və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihələrinin, regional əhəmiyyətli Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin, eyni zamanda qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşması vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin maliyyələşdirilməsi davam etdirilib, dövlət büdcəsinə transfert üzrə öhdəliklərin yerinə yetirilməsi təmin edilmişdir.

2008-ci ildə eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə başlanmışdır. Bu proqramın icrası sayəsində ölkədə müasir tələblərə cavab verən kadr potensialının yaradılmasına, gənc nəslin təhsil səviyyəsinin artmasına şərait yaranacaqdır. Proqramın ilk növbədə Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilməsi "qara qızılın insan kapitalına çevrilməsi" ideyasının reallaşmasına doğru atılmış və uzun illər üçün hesablanmış strateji bir addımdır.

2008-ci ildə beynəlxalq iqtisadiyyatda baş verən hadisələrin mərkəzində qlobal maliyyə böhranı durub və bu baxımdan ötən il maliyyə bazarlarının inkişafı tarixinə əlverişsiz və ağır il kimi yazılmışdır. İl ərzində beynəlxalq maliyyə sektorlarında yaşanan böhran və gərginlik, eləcə də iri investisiya qurumları və banklarının iflası ilə bağlı hadisələr valyuta aktivlərini idarə edən bir çox investisiya fondlarının fəaliyyətinə mənfi təsir göstərmiş, ayrı-ayrı hallarda isə bu qurumlarda böyük vəsait itkisinə və aktivlərinin azalmasına şərait yaratmışdır.

Neft Fondunun valyuta aktivlərinin qlobal maliyyə böhranının törətdiyi fəsadlardan qorunmasını təmin etmək məqsədilə, 2008-ci ildə Fond tərəfindən mühafizəkar, əsas kapitalın itirilməməsinə və təminatlı gəlirin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirilmişdir. Bu məqsədlə Neft Fondunun investisiya və valyuta portfellərinin diversifikasiyası, habelə yüksək reytinqli investisiya vasitələrində yerləşdirilməsi istiqamətində tədbirlər davam etdirilib və eyni zamanda müvafiq gəlirliliyin əldə olunmasına nail olunmuşdur. Hesabat ilinin nəticələrinə əsasən, Neft Fondunun valyuta vəsaitlərinin idarə edilməsindən 231 171,3 min manat gəlir əldə olunaraq Fondun 2008-ci il büdcəsinin müvafiq gəlir maddəsi 155% səviyyəsində yerinə yetirilmişdir.

2008-ci ildə Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) həyata keçirilməsi istiqamətində tədbirlər davam etdirilib və Azərbaycan bu Təşəbbüsün reallaşdırılmasında liderliyi əldə saxlamışdır. 2008-ci il sentyabrın 11-də BMT Baş Məclisinin 62-ci sessiyası çərçivəsində Azərbaycan tərəfindən irəli sürülmüş "Sənaye sahələrində şəffaflığın artırılması" adlı Qətnamə qəbul edilmişdir. Qətnamənin dəstəklənməsinə 27 dövlət həmmüəllif kimi qoşulmuş və qətnaməni irəli sürdüyünə görə sessiyada Azərbaycan hökumətinə təşəkkür bildirilmişdir.

2008-ci il sentyabrın 27-də Norveçin paytaxtı Oslo şəhərində MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin 3-cü iclasında 15 ölkəyə, o cümlədən Azərbaycana namizəd statusu verilmişdir.



# AZƏRBAYCANIN MAKROİQTİSADİ İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ

# 2



2008-ci ildə əsas makroiqtisadi göstəricilər üzrə sürətli artım müşahidə olunmuşdur. Hesabat ilində Ümumi Daxili Məhsulun (ÜDM) istehsalı üzrə real artım 2007-ci ilə nisbətən 10,8% təşkil etmişdir. Adambaşına düşən ÜDM-in həcmi 2007-ci il ilə müqayisədə 1 459,0 manat və ya 48,9% artaraq 2008-ci ildə 4 439,9 manat olmuşdur. 2008-ci ilə qeyri-neft sektorunun ÜDM-də xüsusi çəkisi 2007-ci ildəki 44,1%-dən 45,9%-ə qədər yüksəlmişdir. 2008-ci ildə neft sektorunda real artım 7,0%, qeyri-neft sektorunda isə 15,7% təşkil etmişdir. 2004-2008-ci illərdə neft və qeyri-neft ÜDM-in artımı dinamikası *Qrafik 1-də* göstərilmişdir.

*Qrafik 1*

### 2004-2008-ci illərdə Azərbaycanda neft və qeyri-neft ÜDM-i və onların real artım templəri

*(bazar qiymətləri ilə, milyon manatla)*




2008-ci ildə qeyri-neft sektorunda sosial və digər xidmətlər (9,07%), tikinti (7,58%) və nəqliyyat (5,11%) sektorlarının ÜDM-də payı 2007-ci il ilə müqayisədə yüksəlmişdir (*Qrafik 2*).

*Qrafik 2*

### 2008-ci ildə ÜDM-in strukturu



Hesabat ilində kənd təsərrüfatı, tikinti, ticarət, sosial və digər xidmətlər və məhsula və idxala xalis vergilərdə əvvəlki il ilə müqayisədə daha yüksək real artım tempi müşahidə olunub. Belə ki, 2007 və 2008-ci illərdə kənd təsərrüfatında real artım müvafiq olaraq 4,0% və 6,1%, tikinti sektorunda 16,0% və 36,0%, ticarət sektorunda 15,3% və 15,5%, sosial və digər xidmətlərdə 5,2% və 7,9%, məhsula və idxala xalis vergilərdə isə 11,3% və 15,8% təşkil etmişdir.

*Qrafik 3*

**2004-2008-ci illərdə qeyri-neft sektorunun sahələr üzrə inkişaf dinamikası**
*(bazar qiymətləri ilə, milyon manatla)*




Qeyri-neft sektoruna investisiyaların həcmində artım qeydə alınıb. Belə ki, 2007-ci ildə qeyri-neft sektorunda əsas kapitala yönəldilmiş investisiyaların qeyri-neft ÜDM-də payı 35,4%, 2008-ci ildə isə 40,3% təşkil edib, bu da ilk növbədə dövlət investisiya xərclərinin artması ilə izah oluna bilər. Hesabat ilində xarici investisiyalar 2 708,6 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 16,3% aşağıdır.

2008-ci il dövlət büdcəsinin xərcləri 10 680 milyon manat təşkil etməklə, 2007-ci il ilə müqayisədə 4,6 milyard manat və ya 76,3% çox olmuşdur. 2007-ci ilə nisbətən 2008-ci ildə dövlət büdcəsi gəlirlərinin ümumi daxili məhsulda xüsusi çəkisi 5,9% artaraq 28,3%, xərcləri isə 5,5% artaraq 28,1% təşkil etmişdir.

2008-ci ildə orta illik inflyasiya kifayət qədər yüksək olsa da (20,8%), əhalinin pul gəlirlərində 37,8% səviyyəsində nominal artım müşahidə olunmuşdur ki, bu da əhalinin real gəlirlərinin ikirəqəmli artımının davamı deməkdir (real artım 2007-ci ildə 22,3%, 2008-ci ildə 14,1% təşkil etmişdir).



# DÖVLƏT NEFT FONDUNUN 2008-ci İLDƏ MALİYYƏ FƏALİYYƏTİ

# 3

2008-ci ilin 01 yanvar tarixinə Dövlət Neft Fondunun vəsaitinin ümumi miqdarı **2 092,4 milyon manat** və yaxud **2 475,4 milyon ABŞ dolları** təşkil etmişdir. 2008-ci ilin 31 dekabr tarixinə Neft Fondunun vəsaiti **8 986,7* milyon manat** və yaxud **11 219,2 milyon ABŞ dolları** təşkil edərək, il ərzində 6 894,3 milyon manat (8 743,8 milyon ABŞ dolları) və ya 4,5 dəfəyə qədər ABŞ dolları ifadəsi ilə artmışdır.

2001-2008-ci illər ərzində Neft Fondunun vəsaitinin artım dinamikası *Qrafik 4-də* verilir.



* "Deloitte & Touch" Məhdud Məsuliyyətli Cəmiyyətinin ARDNF-in maliyyə vəziyyəti haqqında hesabatında ilin sonuna olan aktivlərin məcmu məbləğinin ARDNF-in hesabatında göstərilən məbləğə nisbətən daha yüksək olmasına səbəb ARDNF-in hesabatında əsas vəsaitlərin və qeyri-maddi aktivlərin (7,1 milyon manat), avans ödənişi və digər qısamüddətli aktivlər üzrə 16,0 milyon manat məbləğinin, o cümlədən 13,1 milyon manat məbləğində cari avans vergi ödənişlərinin aktivlərin məcmu məbləğindən çıxarılmasıdır.

*Qrafik 4*

2001-2008-ci illər ərzində Dövlət Neft Fondunun vəsaitinin artımı dinamikası
*(milyon ABŞ dolları ilə, ilin sonuna)*




2008-ci il ərzində Dövlət Neft Fondunun gəlirlərinin ümumi həcmi **11 864 648,1** min manat təşkil etmişdir.

Hesabat ilində Neft Fondunun xərclərinin ümumi məbləği **4 291 751,4** min manat təşkil etmişdir.

*Cədvəl 1*

2008-ci ildə Neft Fondunun vəsaitinin hərəkəti cədvəli

| Gəlirlər | Məbləğ | |
|---|---|---|
| | min AZN | mln. $ ABŞ |
| 01.01.2008-ci il tarixinə **TOPLANMIŞ VƏSAİTİN HƏCMİ** | **2 092 406,1** | **2 475,4** |
| **ÜMUMİ GƏLİRLƏR:** | **11 864 648,1** | **14 532,2** |
| ***o cümlədən:*** | | |
| Neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirlər | 11 633 476,8 | 14 247,0 |
| Fondun vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər | 231 171,3 | 285,2 |
| **ÜMUMİ XƏRCLƏR:** | **4 970 375,2** | **5 788,4** |
| ***o cümlədən:*** | | |
| Mənfəət vergisi və digər vergilər | 25 977,9 | — |
| Xarici valyuta əməliyyatları üzrə xalis məzənnə fərqi | 652 645,9 | — |
| 31.12.2008-ci il tarixinə **Fondun vəsait qalığının məbləği** | **8 986 679,0** | **11 219,2** |

## Gəlirlər

2008-ci ildə Dövlət Neft Fondunun gəlirlərinin formalaşma mənbələrini Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satşından əldə edilən xalis gəlirlər (97,5%), Dövlət Neft Fondunun vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər (1,6%), neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının payına düşən dividendlər (BTC layihəsi üzrə) (0,82%), akrhesabı ödənişlər (0,03%), bonus ödənişləri (0,02%), sərmayeçilər tərəfindən Azərbaycan tərəfinə verilən aktivlərdən daxilolmalar (0,02%) və tranzit haqqı (0,001%) üzrə daxilolmalar təşkil etmişdir.

Hesabat ili üzrə Neft Fondunun gəlirlərinin strukturu *Qrafik 5-də* verilir.

*Qrafik 5*

### 2008-ci ildə Dövlət Neft Fondunun gəlirlərinin strukturu




### Mənfəət neftinin və qazın satışından əldə edilən gəlirlər

2008-ci ildə **Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından** Dövlət Neft Fonduna **11 526 985,7** min manat və ya **14 116,0** milyon ABŞ dolları daxil olmuşdur. Gəlirlərin **13 937,4** milyon ABŞ dolları Azəri-Çıraq-Günəşli yatağından hasil edilmiş 228 mənfəət nefti partiyasının, **29,3** milyon ABŞ dolları Mişovdağ və Kələməddin yatağından hasil edilmiş 12 mənfəət nefti partiyasının, **18,1** milyon ABŞ dolları Kürsəngi-Qarabağlı yatağından hasil edilmiş 4 mənfəət nefti partiyasının, **131,2** milyon ABŞ dolları isə Şahdəniz yatağından hasil edilmiş 12 qaz partiyasının satışından əldə edilmişdir. Karbohidrogenlərin satışından əldə edilmiş gəlirlər Neft Fondunun ümumi gəlirlərinin 97,5%-ni təşkil etmişdir.

2008-ci il ərzində beynəlxalq bazarlarda xam neftin qiymətləri yüksək səviyyədə olmuşdur. Yanvar ayında dünya bazarlarında 92,56 ABŞ dolları təşkil etmiş Brent neftinin orta aylıq qiyməti iyun ayında 139,3 ABŞ dollarına qədər yüksəlmişdir. İlin ikinci yarısında neftin qiymətlərində ucuzlaşma meyli üstünlük təşkil etdi. Belə ki, iyul ayında 123,24 ABŞ dolları səviyyəsində olmuş xam neftin qiymətləri dekabr ayında 41,76 ABŞ dolları təşkil etmişdir.

2008-ci ilin ikinci yarısında xam neftin qiymətlərinin ucuzlaşması ilə əlaqədar Dövlət Neft Fondunun mənfəət neftinin satışı ilə bağlı daxilolmaları birinci yarımilliyə nisbətən aşağı səviyyədə olmuşdur. 2008-ci ilin birinci yarımilliyi ərzində Dövlət Neft Fondunun daxilolmalarının yüksək sürətlə artmasının tam əksinə olaraq, ilin ikinci yarısında Cənubi Qafqaz regionunda və Türkiyə ərazisində baş verən hadisələr səbəbindən Azərbaycan neftinin dünya bazarlarına nəqlinin məhdudlaşması ilə əlaqədar Fondun mənfəət neftinin satışı ilə bağlı daxilolmaların artım tempində azalma baş vermişdir. Belə ki, 2008-ci ilin 5 avqust tarixində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin Türkiyənin Ərzincan vilayətindən keçən hissəsində baş vermiş partlayışdan sonra kəmərin bərpa edilməsi işində gecikmələrin yaranması, digər tərəfdən ötən ilin avqust ayında Gürcüstan-Cənubi Osetiya münaqişəsi nəticəsində regionda yaşanan gərginlik ilə əlaqədar xam neftin xarici bazarlara nəqli və satışı prosesində çətinliklər yaranmış, bu isə son nəticədə Dövlət Neft Fondunun mənfəət neftinin və qazın satışı ilə bağlı daxilolmaların artımına öz mənfi təsirini göstərmişdir.

2008-ci ilin ayları üzrə Dövlət Neft Fondunun mənfəət neftinin və qazın satışı ilə bağlı daxilolmaları *Qrafik 6-da* verilir.

*Qrafik 6*

**ARDNF-in 2008-ci ildə mənfəət neftinin satışından daxilolmaları**
*(ABŞ dolları ilə)*




Hesabat ilində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən satılmış və Dövlət Neft Fonduna mədaxil olmuş mənfəət nefti partiyalarının 1 barrel üçün orta çəkili xalis mədaxil qiyməti təqribən 101 ABŞ dolları təşkil etmişdir.

*Qrafik 7*

### 2008-ci ildə dünya bazarlarında Brent neftinin orta aylıq qiymətlərinin və ARDNŞ tərəfindən satılmış mənfəət nefti partiyalarının orta aylıq satış qiymətlərinin müqayisəli dinamikası




Mənfəət neftinin satışı ilə bağlı məbləğlər Neft Fonduna köçürülərkən neftin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri ARDNŞ tərəfindən tutulur.

## Bonus ödənişlərindən əldə edilən gəlirlər

Hesabat ilində Dövlət Neft Fondunun növbəti daxilolmasını neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilmiş bonuslar (mükafatlar) təşkil edib. 2008-ci ildə Neft Fonduna daxil olmuş bonus ödənişlərinin ümumi məbləği **2 822,2** min manat və yaxud **3,5 milyon ABŞ dolları** təşkil etmişdir. Belə ki, hesabat ilində Sinopek LTD, Midlle East Petroleum LTD və Petro Honq Konq LTD şirkətləri tərəfindən Pirsaat yatağında orta sutkalıq xam neft hasilatı səviyyəsinin artırılması ilə əlaqədar 499,9 min ABŞ dolları, bundan başqa, Şahdəniz yatağında sənaye miqyaslı ehtiyatların təsdiq olunması ilə əlaqədar xarici hasilat şirkətləri tərəfindən ümumilikdə 2 981,9 min ABŞ dolları, o cümlədən yataqdakı iştirak paylarına müvafiq olaraq bu məbləğin 844,9 min ABŞ dolları BP International LTD, 331,3 min ABŞ dolları Lukoil Overseas, 298,2 min ABŞ dolları Turkiye Petrolleri, 844,9 min ABŞ dolları Statoil, 331,3 min ABŞ dolları Total EP, 331,3 min ABŞ dolları Naftiran Co. şirkətləri tərəfindən ödənilmişdir.

Şirkətlər üzrə bonus ödənişləri *Cədvəl 2-də* göstərilir.

*Cədvəl 2*

2008-ci ildə Neft Fonduna bonus ödənişləri ilə bağlı daxilolmalar

| Vəsaiti köçürən qurumun adı | Yatağın adı | Tarix | Məbləğ | |
|---|---|---|---|---|
| | | | min AZN | mln. $ ABŞ |
| Sinopek LTD | Pirsaat | 29.05.2008 | 205,9 | 0,3 |
| Middle East Petroleum LTD | Pirsaat | 04.06.2008 | 153,8 | 0,2 |
| Petro Hong Kong LTD | Pirsaat | 23.06.2008 | 50,9 | 0,1 |
| BP International LTD | Şahdəniz | 29.07.2008 | 681,9 | 0,8 |
| Lukoil Overseas | Şahdəniz | 29.07.2008 | 267,4 | 0,3 |
| Turkiye Petrolleri | Şahdəniz | 31.07.2008 | 683,5 | 0,9 |
| Statoil | Şahdəniz | 31.07.2008 | 241,3 | 0,3 |
| Total EP | Şahdəniz | 01.08.2008 | 268,2 | 0,3 |
| Naftiran Co. | Şahdəniz | 11.08.2008 | 269,3 | 0,3 |
| **Cəmi** | | | **2 822,2** | **3,5** |

Bonus ödənişləri ilə bağlı daxilolmalar Neft Fondunun ümumi gəlirlərinin 0,02%-ni təşkil etmişdir.

## Akrhesabı ödənişlər ilə bağlı daxilolmalar

Hesabat ilində Dövlət Neft Fondunun növbəti daxilolma mənbəyini karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar xarici sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlər təşkil etmişdir. 2008-ci ildə Neft Fonduna daxil olmuş akrhesabı ödənişlərin ümumi məbləği **3 567,0** min manat və ya təqribən **4,4** milyon ABŞ dolları təşkil etmişdir. Akrhesabı ödənişlərin 1,8 milyon ABŞ dolları BP Azərbaycan şirkəti tərəfindən, 2,6 milyon ABŞ dolları Lukoil Overseas şirkəti tərəfindən ödənilmişdir.

Neft Fondunun ümumi gəlirlərində akrhesabı ödənişlər ilə bağlı gəlirlərin xüsusi çəkisi 0,03% təşkil etmişdir. 2008-ci ildə Neft Fonduna daxil olmuş akrhesabı ödənişlərin siyahısı *Cədvəl 3-də* göstərilir.

*Cədvəl 3*

2008-ci ildə Neft Fondunun akrhesabı ödənişlər ilə bağlı daxilolmaları

| Vəsaiti köçürən qurumun adı | Yatağın adı | Tarix | Məbləğ | |
|---|---|---|---|---|
| | | | min AZN | mln. $ ABŞ |
| BP International LTD | İnam | 07.01.08 | 760,8 | 0,9 |
| BP International LTD | İnam | 02.12.08 | 728,5 | 0,9 |
| Lukoil Overseas | Yalama | 10.12.08 | 2 077,7 | 2,6 |
| **Cəmi** | | | **3 567,0** | **4,4** |

Akrhesabı ödənişlərin 58,8%-i Lukoil şirkəti tərəfindən, 41,2%-i BP Azərbaycan şirkəti tərəfindən ödənilmişdir.

## Dividend ödənişləri ilə bağlı daxilolmalar

Hesabat ilində Dövlət Neft Fondunun daha bir daxilolmasını **neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının payına düşən 97 234,6 min manat və yaxud 119,6 milyon ABŞ dolları** məbləğində dividend (BTC layihəsi üzrə) ödənişləri təşkil etmişdir. Bu vəsaitin 16,5 milyon dolları Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin 2007-ci ildə, 103,1 milyon ABŞ dolları isə kəmərin 2008-ci ildə fəaliyyətinin nəticələri üzrə ödənilmiş dividendlər təşkil etmişdir. Neft Fondunun ümumi gəlirlərində dividend ödənişləri ilə bağlı gəlirlər 0,82% təşkil etmişdir. 2008-ci ildə dividend ödənişləri üzrə Neft Fondunun daxilolmalarının siyahısı *Cədvəl 4-də* göstərilir.

*Cədvəl 4*

**2008-ci ildə Neft Fondunun dividend ödənişləri ilə bağlı daxilolmaları**

| Vəsaiti köçürən qurumun adı | Tarix | Məbləğ | |
|---|---|---|---|
| | | min AZN | mln. $ ABŞ |
| AzBTC Limited | 15.01.2008 | 13 969,5 | 16,5 |
| AzBTC Limited | 17.01.2008 | 53,4 | 0,1 |
| AzBTC Limited | 27.06.2008 | 46 419,4 | 57,1 |
| AzBTC Limited | 18.12.2008 | 36 792,3 | 45,9 |
| **Cəmi** | | **97 234,6** | **119,6** |

Hesabat ilində eyni zamanda Dövlət Neft Fonduna **165,7 min manat** və ya **0,2 milyon ABŞ dolları** məbləğində neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (**tranzit haqqı**) daxil olmuşdur. Bu gəlirlər Fondun 2008-ci il üzrə ümumi gəlirlərinin 0,001% təşkil etmişdir.

## Digər gəlirlər və daxilolmalar

2008-ci ildə Dövlət Neft Fondunun digər gəlirlər və daxilolmalar maddəsi üzrə gəlirləri **2 701,6 min manat** və yaxud **3,3 milyon ABŞ dolları** təşkil etmişdir. Digər gəlirlər və daxilolmalar maddəsinə neft-qaz sazişləri çərçivəsində sərmayəçilər (xarici neft şirkətləri) tərəfindən verilən aktivlərin (köhnəlmiş və ya istifadə olunmayan metal qırıntıları, borular) satışından əldə edilmiş gəlirlər aiddir. Bu mənbə üzrə daxilolmalar Neft Fondunun gəlirlərinin 0,02%-ni təşkil edib.

## Dövlət Neft Fondunun vəsaitlərinin idarə edilməsi ilə bağlı gəlirlər

2008-ci ildə Dövlət Neft Fondunun mühüm gəlir mənbəyini Fondun vəsaitlərinin idarə edilməsindən əldə edilən **231 171,3 min manat** gəlirlər təşkil etmişdir. Neft Fondunun gəlirlərinin ümumi strukturunda bu gəlirlərin xüsusi çəkisi 1,6% təşkil etmişdir.

Neft Fondunun valyuta aktivlərinin səmərəli yerləşdirilməsi və idarə olunması beynəlxalq maliyyə və valyuta bazarlarında mövcud olan vəziyyətdən asılıdır.

2008-ci ildə beynəlxalq iqtisadiyyatda baş verən iqtisadi hadisələrin mərkəzində qlobal maliyyə böhranı durub və bu baxımdan ötən il maliyyə bazarlarının inkişafı tarixinə ağır və əlverişsiz il kimi yazılmışdır. İl ərzində maliyyə sektorunda yaşanan böhran və gərginlik, eləcə də iri investisiya qurumları və banklarının iflası ilə bağlı hadisələr valyuta aktivlərini idarə edən investisiya fondlarının fəaliyyətinə mənfi təsir göstərmiş, bir çox hallarda isə bu qurumlarda böyük vəsait itkisinə və aktivlərinin azalmasına şərait yaratmışdır.

Neft Fondunun valyuta aktivlərinin qlobal maliyyə böhranının törətdiyi fəsadlardan qorunmasını təmin etmək məqsədilə, 2008-ci ildə Neft Fondu tərəfindən mühafizəkar, əsas kapitalın itirilməməsinə və təminatlı gəlirin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirilmişdir. Bu məqsədlə Neft Fondunun investisiya və valyuta portfellərinin diversifikasiyası, habelə yüksək reytinqli investisiya vasitələrində yerləşdirilməsi istiqamətində tədbirlər davam etdirilib və eyni zamanda müvafiq gəlirliliyin əldə olunmasına nail olunmuşdur.

Qlobal maliyyə böhranının yaranması bir neçə amil ilə izah olunur. İlin əvvəlində ABŞ-ın ipoteka-kredit sisteminin iflası dünya maliyyə böhranının yaranmasını şərtləndirən əsas amillərdən biri oldu. Digər tərəfdən xam neftin qiymətlərinin yüksək səviyyəyə çatması və bununla əlaqədar dünyada yaşanan qlobal bahalaşma öz növbəsində maliyyə böhranını stimullaşdıran əsas amillər sırasına daxil olub. Belə ki, 2008-ci ilin ortasında WTI markalı xam neftin bir barrelinin qiyməti 145 ABŞ dolları* səviyyəsinə qədər yüksəlmiş, bu isə öz növbəsində əsas enerji mənbəyi üzrə istehlak səviyyəsinin tədricən azalmasına və son nəticədə xam neft istehsalının aşağı düşməsinə təkan vermişdir. Bunun nəticəsi kimi xam neftin qiymətləri ilin ikinci yarısında bir neçə ay ərzində 40 ABŞ dollarına qədər aşağı düşdü.

**Aparıcı ölkələrin iqtisadi göstəriciləri.** 2008-ci ildə baş verən qlobal maliyyə böhranı aparıcı ölkələrin inkişaf templərinə öz mənfi təsirini göstərmişdir.

**Amerika Birləşmiş Ştatları.** 2007-ci ilin sonundan başlayaraq ABŞ Mərkəzi Bankının həyata keçirdiyi faiz dərəcələrinin davamlı olaraq azaldılması ilə seçilən "mülayim" monetar siyasəti nəticəsində ipoteka kredit bazasının əhatə dairəsi əhəmiyyətli səviyyədə genişləndi, pul kütləsinin nəzarət altından çıxmasına və daşınmaz əmlak bazarında qiymətlərin durmadan yüksəlməsinə şərait yarandı. Kəskin bahalaşma 2008-ci ildə özünün pik sə-

* Bu fəsildə verilmiş beynəlxalq iqtisadi və maliyyə göstəriciləri üzrə rəqəmlər Bloomberg L.P. informasiya agentliyinin məlumatlarıdır.

viyyəsinə çatdı və son nəticədə real yığıma əsaslanmayan ABŞ-ın daşınmaz əmlak bazarında böhran baş verdi. Böhranın nəticəsi olaraq ABŞ-ın Ümumi Daxili Məhsulu (ÜDM) ötən ildə aşağı artım tempi nümayiş etdirmişdir. Belə ki, 2008-ci ildə ÜDM üzrə orta illik artım tempi -0,8% (2007-ci ildə bu göstərici 2,3% olub) təşkil etmişdir. Böhran inflyasiyanın və işsizliyin səviyyəsində də öz əksini tapmışdır və 2007-ci ilin sonuna istehlak qiymətləri indeksi 4,1% olduğu halda, 2008-ci ildə bu göstərici 0,1% səviyyəsinə qədər enmiş, ilin əvvəlində ölkədə işsizliyin səviyyəsi 4,9% olduğu halda, ilin sonunda bu göstərici 7,2%-ə qədər yüksəlmişdir. 2008-ci ildə ölkədə mal və xidmətlərin ixracı 1 835,8 milyard ABŞ dolları, idxalı isə 2 516,9 milyon ABŞ dolları təşkil etmiş və ticarət balansının kəsiri 2007-ci il ilə müqayisədə 2,7% azalaraq -681,1 milyard ABŞ dolları təşkil etmişdir. 2008-ci ildə ticarət balansının ÜDM-də payı 4,7%, 2007-ci ildə isə 5,1% təşkil etmişdir.

**Böyük Britaniya.** 2008-ci ildə Böyük Britaniyanın iqtisadiyyatında da inkişaf tempi əvvəlki illər ilə müqayisədə kəskin şəkildə aşağı düşmüşdür. Belə ki, 2008-ci ildə bu ölkədə ÜDM-in artımı -2,0% (2007-ci ildə 3,1%) təşkil etmişdir. İşsizliyin orta illik səviyyəsi burada 5,6% olmuşdur. İstehlak qiymətləri indeksi (inflyasiya) 2008-ci ilin sonuna 3,1% (2007-ci ilin sonuna bu göstərici 2,1% olub) təşkil etmişdir.

**Kanada, Fransa, Almaniya, İtaliya və Yaponiya.** "Böyük Yeddilər"ə daxil olan ölkələrdə 2008-ci il 2007-ci ilə nisbətən daha aşağı iqtisadi artım templəri ilə səciyyəvi olmuşdur. Belə ki, Kanadada ÜDM-in artımı 0,5% (2007-ci ildə 1,9%), Fransada -1,7% (2007-ci ildə 2,2%), Almaniyada -1,8% (2007-ci ildə 1,7%), İtaliyada -3,0% (2007-ci ildə 0,2%), Yaponiyada -4,3% (2007-ci ildə 1,9%) təşkil etmişdir.

**Çin və Hindistan.** Qabaqcıl dünya dövlətlərinin iqtisadiyyatında böhranın hökm sürdüyü bir dövrdə Çin və Hindistan dinamik artım tempi ilə inkişaf etməkdə davam etmişdir, lakin bu artım əvvəlki illər ilə müqayisədə nisbətən aşağı səviyyədə olmuşdur. Belə ki, 2007-ci ildə Çində ÜDM-in orta illik artımı 11,2%, Hindistanda 8,7% təşkil etdiyi halda, 2008-ci ildə bu dövlətlərdə artım müvafiq olaraq 6,8% və 6,7% təşkil etmişdir.

Yuxarıda sadalanan dövlətlərdə ÜDM-in artımı göstəricilərini *Cədvəl 5* vasitəsilə təhlil etmək mümkündür.

*Cədvəl 5*

2008-ci ildə əsas inkişaf etmiş ölkələrdə ÜDM artımının müqayisəli təhlili
*(%-lə)*

| | 2008 | | | | orta illik artım |
|---|---|---|---|---|---|
| | I | II | III | IV | |
| ABŞ | 0,9 | 2,8 | –0,5 | –6,3 | –0,8 |
| Avrozona ölkələri | 0,7 | –0,3 | –0,3 | –1,8 | –1,7 |
| Böyük Britaniya | 0,3 | 0,0 | –0,7 | –1,6 | –2,0 |
| Yaponiya | 0,8 | –0,9 | –0,6 | –3,8 | –4,3 |

*Qrafik 8*

## 2007-2008-ci illərdə əsas inkişaf etmiş ölkələrdə ÜDM-in artımı




Dünya iqtisadiyyatında baş verən gərginlik şəraitində 2008-ci ildə böyük dövlətlərin çoxunda işsizliyin səviyyəsi yüksəlmişdir. ABŞ, Avrozona ölkələri və Böyük Britaniyada işsizliyin artımı daha aydın şəkildə özünü göstərmişdir. Belə ki, işsizliyin orta səviyyəsi 2008-ci ilin sonunda ilin əvvəlinə nisbətən ABŞ-da 4,9%-dən 7,2%-ə, Avrozonada 7,3%-dən 8,1%-ə, Böyük Britaniyada 5,2%-dən 6,3%-ə, Kanadada 5,9%-dən 6,6%-ə qədər, Yaponiyada 3,8%-dən 4,4%-ə qədər artmışdır. Aparıcı dövlətlərdə işsizlik səviyyəsini aşağıdakı Qrafik 9 vasitəsilə müqayisə etmək mümkündür.

*Qrafik 9*

## 2008-ci ildə əsas inkişaf etmiş ölkələrdə işsizlik səviyyəsi

*(aylar üzrə, ayın sonuna)*



**Xam neftin qiymətləri.** 2008-ci ildə xam neftin qiymətlərində kəskin dinamizm müşahidə edilib. Belə ki, yanvar ayında WTI markalı xam neftin bir barrelinin qiyməti 100 ABŞ dolları səviyyəsindən iyul ayında 145 ABŞ dolları səviyyəsinə qədər yüksəldi, növbəti yarımildə isə neftin qiymətləri aşağıya doğru hərəkət edərək dekabr ayının sonunda 40 ABŞ dolları səviyyəsinə qədər endi. Birinci yarımil ərzində xam neftin qiymətlərində kəskin artım əsasən üç amil ilə izah olunur. Belə ki, ABŞ dollarında baş verən ucuzlaşma, ucuz kreditləşmə şəraitində xam neftə olan tələbatın yüksəlməsi və investorlar tərəfindən əsas enerji mənbəyi sayılan bu əmtəə məhsuluna investisiya yatırımlarının genişləndirilməsi xam neftin qiymətlərinin artmasına şərait yaratdı. Digər tərəfdən Amerika Birləşmiş Ştatlarının Enerji Departamenti və digər qurumların neft ehtiyatlarının azalması xəbəri ilə məruzələri, neft hasilatının maksimal həddə çatması ilə əlaqədar narahatlıqlar və neftin qiyməti ətrafında süni manipulyasiyalar hesabat ilində qiymətlərin sürətli artımına təsir etmiş amillərə aid edilir. Bununla belə, 2008-ci il neftin qiymətlərində kəskin azalmanın baş verdiyi il kimi də yadda qaldı. Belə ki, 2004-cü ildən etibarən 2008-ci ilin iyul ayına qədərki 4 illik dövr ərzində neftin qiyməti bir barrel üçün 35 ABŞ dolları səviyyəsindən 145 ABŞ dolları səviyyəsinə qədər və yaxud 4,2 dəfə yüksəldiyi halda, 2008-ci ilin ikinci yarısına aid altı ay ərzində neftin qiyməti yenidən 40 ABŞ dolları səviyyəsinə qədər və yaxud 3,6 dəfə aşağı düşdü. 2008-ci ilin avqust-dekabr aylarında xam neftin qiymətlərinin 3 dəfədən çox aşağı düşməsi ilk növbədə ABŞ-da və digər ölkələrdə baş verən maliyyə böhranı ilə izah olunur.

2008-ci ildə enerji daşıyıcılarının qiymətlərinin kəskin dəyişməsi şəraitində əksər inkişaf etmiş dövlətlərdə ilin birinci yarısında istehlak qiymətləri indeksinin artımı, ilin ikinci yarısında isə azalması müşahidə olunmuşdur. Bunu aşağıdakı qrafikdən də görmək mümkündür.

*Qrafik 10*

**2008-ci ildə əsas inkişaf etmiş ölkələrdə inflyasiyanın illik səviyyəsi**
*(ayın sonuna)*



**Əlvan metalların qiymətləri.** 2008-ci ildə enerji daşıyıcılarında olduğu kimi, əlvan metalların qiymətlərində də azalma meylləri qeydə alınmışdır.

Belə ki, platinin 1 ölçü vahidinin qiyməti 2007-ci ilin sonunda 1526,0 ABŞ dollarından 2008-ci ilin sonunda 934,5 ABŞ dollarına qədər və yaxud 38,8%, gümüşün qiyməti isə 2007-ci ilin sonunda 14,8 ABŞ dollarından 2008-ci ilin sonunda 11,4 ABŞ dollarına qədər və yaxud 23,0% ucuzlaşmışdır. Qızılın qiymətləri platin və gümüşə nisbətən daha sabit templər ilə dəyişmişdir. Belə ki, qızılın 1 troya unsiyasının qiyməti 2007-ci ilin sonunda 833,9 ABŞ dollarından 2008-ci il ərzində bir neçə dəfə qalxıb-enərək oktyabr ayının sonunda 724,6 ABŞ dollarına qədər ucuzlaşmış, bundan sonra ilin sonuna kimi 882,1 ABŞ dollarına qədər bahalanaraq 2007-ci ilin sonu ilə müqayisədə 5,8% bahalanmışdır. 2008-ci ildə qızıl, gümüş və platinin qiymətlərini *Qrafik 11* vasitəsilə təhlil etmək olar.

*Qrafik 11*

**2008-ci ildə qızıl, gümüş və platinin qiymətləri**
*(ayın sonuna, ABŞ dolları ilə)*




**Valyuta bazarları.** 2008-ci ildə valyuta bazarlarında gərginlik hökm sürüb və bu gərginlik ABŞ dollarının əsas aparıcı valyutalara qarşı mövqelərində baş verən dəyişikliklər ilə izah edilib. İlin birinci yarısında ABŞ dollarının AVROya qarşı məzənnəsində ucuzlaşma qeydə alınıb. Belə ki, yanvar ayının əvvəlində 1,4592 səviyyəsində olan ABŞ dollarının AVRO-ya qarşı məzənnəsi iyun ayının sonunda 1,5755-ə qədər yüksəlmişdir.

2008-ci ilin ikinci yarısında enerji daşıyıcılarının qiymətlərində baş verən azalma şəraitində ABŞ dollarının digər aparıcı valyutalara qarşı mövqeyində möhkəmlənmə qeydə alınıb. Belə ki, iyun ayının sonundan ABŞ dollarının AVROya qarşı məzənnəsi 1,5755 səviyyəsindən noyabr ayının sonuna 1,2691-ə qədər enmiş, dekabr ayının sonuna 1,3971 təşkil etmişdir. Böyük Britaniyanın funt-sterlinqinə qarşı məzənnəsi isə 2008-ci ilin birinci yarısında cüzi dəyişikliklərdən sonra iyul ayının sonundakı 1,9841 səviyyəsindən ilin sonuna 1,4593-ə

qədər aşağı düşmüşdür. İlin yekunu olaraq 2008-ci il ərzində ABŞ dolları AVROya nisbətdə 4,3%, funt-sterlinqə qarşı 26,5% bahalanmışdır. 2008-ci ildə ABŞ dollarının AVRO və Böyük Britaniya funt-sterlinqinə qarşı mübadilə məzənnəsi *Qrafik 12-də* verilir.

*Qrafik 12*

**2008-ci ildə ABŞ dollarının AVRO və Böyük Britaniya funt-sterlinqinə qarşı mübadilə məzənnəsi**
*(ayın sonuna)*




**Mərkəzi bankların faiz dərəcələri.** 2008-ci ildə dünyanın maliyyə bazarlarında dərinləşməkdə olan böhran aparıcı ölkələrdəki iqtisadiyyatın real sektoruna öz mənfi təsirini göstərmişdir. Bu təsirin mənfi nəticəsi olaraq iqtisadi artım templərində baş verən azalmanın qarşısını almaq və iqtisadi aktivliyin artırılması məqsədilə dünyanın aparıcı dövlətlərinin mərkəzi bankları tərəfindən faiz dərəcələrinin azaldılması siyasəti həyata keçirildi. Belə ki, ölkənin kredit və daşınmaz əmlak bazarlarında müşahidə edilən durğunluğu aradan qaldırmaq və inkişafı stimullaşdırmaq məqsədi ilə ABŞ Mərkəzi Bankı tərəfindən faiz dərəcəsinə 4 dəfə azaldılma tətbiq edildi. İlin əvvəlində 4,25% səviyyəsində olan ABŞ Mərkəzi Bankının faiz dərəcəsi aprel ayında 2,00%, oktyabrda 1,00% və dekabr ayında 0-0,25%-ə qədər aşağı salındı və beləliklə, ilin əvvəlində olan göstəriciyə nisbətən təqribən 12 dəfə azaldıldı.

ABŞ-ın maliyyə bazarlarında yaşanan böhran Avropa iqtisadiyyatına da öz mənfi təsirini göstərmişdir. Bununla əlaqədar ABŞ-da olduğu kimi, 2008-ci ildə Avropanın və İngiltərənin Mərkəzi Bankları tərəfindən faiz dərəcələrinin azaldılması siyasəti aparıldı. Belə ki, il ərzində İngiltərənin Mərkəzi Bankı tərəfindən faiz dərəcəsi 5,50% səviyyəsindən 2,00%-ə qədər, Avropa Mərkəzi Bankı tərəfindən isə 4,00%-dən 2,50%-ə qədər endirildi. ABŞ, İngiltərə və Avropanın Mərkəzi Banklarının faiz dərəcələrinin dinamikası *Qrafik 13-də* verilir.

*Qrafik 13*

2008-ci ildə ABŞ, Avropa və Böyük Britaniyanın Mərkəzi Banklarının faiz dərəcələrinin müqayisəli dinamikası




**Əsas fond indeksləri.** 2008-ci ildə maliyyə bazarlarında yaranmış qeyri-sabitlik ayrı-ayrı indekslərin dinamikasında öz əksini tapmışdır.

Dünyanın bir neçə ən iri maliyyə-investisiya qurumları tərəfindən 2007-ci ilin nəticələrinə əsaslanaraq itkilərin yaranması barədə 2008-ci ilin əvvəlində açıqlanmış xəbərlər, digər tərəfdən xam neftin 1 barrelinin qiymətinin 100 ABŞ dolları səviyyəsini keçməsi əsas fond indekslərinin aşağı düşməsində katalizator rolunu oynadı. Belə ki, 2008-ci il ərzində Nyu-York Fond Birjasında kotirovka olunan dünyanın ən iri sənaye şirkətlərinin səhmlərinin orta qiyməti hesabına formalaşan **Dou Cons indeksi** yanvar ayının əvvəli ilə müqayisədə (13044,0) ilin sonunda 8776,4 səviyyəsinə qədər təqribən 32,7%, ABŞ-ın seçilmiş 500 şirkətinin səhmlərinin orta qiyməti əsasında formalaşan **S&P 500 indeksi** isə 1447,2-dən 903,3 səviyyəsinə qədər 37,6% enmişdir (*Qrafik 14*).

İl ərzində Dou Cons indeksinin orta çəkili qiyməti 11 224 təşkil etmişdir ki, bu da 2007-ci ilin müvafiq göstəricisindən (13 198) 15,0% azdır. S&P 500 indeksinin orta çəkili qiyməti 1 215 təşkil etmişdir, bu da əvvəlki ilin uyğun göstəricisindən (1 478) 17,8% azdır.

*Qrafik 14*

## 2008-ci ildə Dou Cons və S&P 500 indekslərinin dinamikası

*(ayın sonuna)*




Maliyyə bazarlarında 30 gün ərzində baş verəcək dəyişkənliyin, bazarda risklərin əvvəlcədən proqnozlaşdırılması üçün tətbiq edilən, "qorxu ölçüsü" kimi tanınan və geniş vaxt intervalında satış və alış opsionları əsasında hesablanan Chicago Board Options Exchange (CBOE) Volatility Indexi **(CBOE VIX) (Dəyişkənlik indeksi)** maliyyə bazarlarındakı vəziyyəti təhlil etməyə imkan verir. Belə ki, CBOE VIX indeksinə əsasən, 2008-ci ilin avqust ayına qədər S&P 500 indeksində baş verəcək dəyişkənliyin 20,7% olması ehtimal edilirdisə, Lehman Brothers investisiya şirkətinin iflasından sonra bazarlarda yaranmış qeyri-müəyyənlik səbəbindən interval 59,9%-ə qədər yüksəldi, mərkəzi bankların faiz dərəcəsi endirimlərinin tətbiqindən sonra dekabr ayında 40,0%-ə qədər endi, bu isə qlobal maliyyə sistemində dəyişkənliyin yüksək və kəskin olmasının göstəricisidir (*Qrafik 15*).

*Qrafik 15*

## CBOE VIX və S&P 500 indekslərinin dinamikası

*(ayın sonuna)*



London Fond Birjasında kotirovka olunan 100 ən iri şirkətin səhmlərinin qiymətləri əsasında formalaşan **FTSE 100 indeksi** 2008-ci ilin əvvəlində 6416,7 səviyyəsindən 30,9% azalaraq ilin sonuna 4434,2 səviyyəsinə qədər enmişdir. Bu indeksin il üzrə orta çəkili qiyməti 5357 olmuşdur ki, bu da 2007-cı ilin müvafiq göstəricisi ilə müqayisədə (6425) 16,6% kiçikdir.

2008-ci ildə eyni zamanda Yaponiya fond indekslərinin kəskin şəkildə aşağı düşməsi müşahidə edildi. Belə ki, ötən ildə Tokio Fond Birjasında hərraca çıxarılan 225 ən iri şirkətin səhmlərinin qiymətləri əsasında formalaşan **Nikkey indeksi** il ərzində 39,7% azalaraq 14691,4-dən 8859,6-ya qədər enmişdir. Bu indeks üzrə il ərzində orta çəkili qiymət 12087 təşkil etmiş, bu da əvvəlki ilin müvafiq göstəricisi ilə müqayisədə (17002) 28,9% kiçikdir.

*Qrafik 16*

**2008-ci ildə FTSE 100 və Nikkey indekslərinin dinamikası**
*(ayın sonuna)*




Dövlət Neft Fondunun investisiya portfelinin idarə edilməsi Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a uyğun olaraq həyata keçirilir. Neft Fondunun vəsaitlərinin idarə edilməsi ilə bağlı investisiya siyasəti Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli 2582 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı), o cümlədən bu proqrama daxil olan Dövlət Neft Fondunun İnvestisiya Siyasəti (investisiya istiqamətləri) ilə tənzimlənmişdir. Bu sənədə uyğun olaraq Fondun investisiya portfelindəki aktivlərin (investisiya portfelinin idarəetmə xərcləri istisna olmaqla) idarə edilməsinin hədəf gəlirliliyi (bençmark) kimi Britaniyanın Bankirlər Assosiasiyası tərəfindən müvafiq valyuta üzrə dərc edilmiş "3 aylıq LİBOR faiz dərəcəsi" müəyyən edilmişdir.

2008-ci ildə Neft Fondunun vəsaitlərinin yerləşdirilməsinin əsas investisiya istiqamətlərini depozitlər və pul bazarı alətlərinə, bank hesablarına, istiqrazlara, o cümlədən suveren borc kağızlarına, agentliklərin və beynəlxalq təşkilatların istiqrazlarına, korporativ maliyyə və qeyri-maliyyə təşkilatlarının istiqrazlarına və ipoteka istiqrazlarına investisiyalar təşkil et-

mişdir. Bununla bərabər, Fondun vəsaitlərinin bir hissəsi xarici menecerlər - Credit Swiss qrupuna daxil olan Klariden Leu (İsveçrə), Döyçe Bank qrupuna daxil olan Döyçe Asset Management (Almaniya) və Dünya Bankı tərəfindən idarə edilmişdir. Neft Fondunun investisiya istiqamətləri *Sxem 1-də* göstərilir.

*Sxem 1*




2008-ci ildə Dövlət Neft Fondunun aktivlərinin böyük hissəsi (60,66%) 1-3 il müddətli aktivlərdə saxlanılmışdır. Fondun valyuta vəsaitində 0-1 il müddətinə qədər olan aktivlərin xüsusi çəkisi - 33,41%, 3 - 5 il müddətinə qədər - 5,51%, 5 - 7 il müddətinə qədər - 0,26%, 7 ildən çox müddətdə olan aktivlərin xüsusi çəkisi isə 0,14% təşkil etmişdir. Fondun aktivlərinin 0,02%-ni səhmlərə investisiyalar təşkil etmişdir. Aktivlərin müddət üzrə strukturu *Qrafik 17-də* göstərilir.

*Qrafik 17*

**Aktivlərin müddət üzrə strukturu**
*(31.12.08 tarixinə olan vəziyyət)*



2008-ci ilin 31 dekabr tarixinə Neft Fondunun vəsaitinin 10 626,9 milyon ABŞ dolları və ya 95,56%-i istiqrazlarda, 490,6 milyon ABŞ dolları və ya 4,42%-i likvid aktivlərdə, 2,4 milyon ABŞ dolları və ya 0,02%-i səhmlərdə saxlanılmışdır.

Neft Fondunun investisiya portfelinin aktivlər üzrə tərkibi *Cədvəl 6-da* göstərilir.

*Cədvəl 6*

Neft Fondunun investisiya portfelinin aktivlər üzrə tərkibi
*(31.12.08 tarixinə olan vəziyyət) milyon ABŞ dolları*

| | ARDNF | Klariden Leu | Döyçe AsM | Dünya Bankı | CƏMİ: | % |
|---|---|---|---|---|---|---|
| **QİYMƏTLİ KAĞIZLAR:** | **10 387,4** | **47,2** | **78,2** | **116,5** | **10 629,3** | **95,58** |
| **İstiqrazlar** | **10 387,4** | **44,8** | **78,2** | **116,5** | **10 626,9** | **95,56** |
| Suveren borc kağızları | 4 816,2 | 14,7 | 49,5 | 65,8 | 4 946,2 | 44,48 |
| Agentliklər və beynəlxalq təşkilatların istiqrazları | 4 784,5 | 21,4 | 7,7 | 50,7 | 4 864,3 | 43,74 |
| Korporativ maliyyə təşkilatlarının istiqrazları | 585,5 | 6,4 | 16,8 | — | 608,7 | 5,47 |
| Korporativ qeyri-maliyyə təşkilatlarının istiqrazları | 201,2 | 1,5 | 4,2 | — | 206,9 | 1,86 |
| İpoteka | — | 0,8 | — | — | 0,8 | 0,01 |
| **Səhmlər** | — | **2,4** | — | — | **2,4** | **0,02** |
| **NAĞD VƏSAİTLƏR:** | **486,6** | **2,2** | **4,1** | **–2,3** | **490,6** | **4,42** |
| Depozitlər və pul bazarı alətləri | 387,7 | 2,2 | — | 0,0 | 389,9 | 3,51 |
| Bank hesabları | 98,9 | 0,0 | 4,1 | –2,3 | 100,7 | 0,91 |
| **CƏMİ:** | **10 874,0** | **49,4** | **82,3** | **114,2** | **11 119,9** | **100,00** |

*Qrafik 18*

ARDNF-in investisiya portfelinin aktivlər üzrə bölgüsü
*(31.12.2008 tarixinə olan vəziyyət)*



Hesabat ilində Dövlət Neft Fondu tərəfindən, eləcə də xarici menecerlərə idarə olunmağa verilmiş vəsaitlərin qiymətli kağızlara yerləşdirildiyi maliyyə qurumlarının, habelə qiymətli kağızların kredit reytinqi aparıcı kredit reytinq agentliklərinin (S&P, Mudiz, Fitç) müəyyən etdiyi investisiya dərəcəli kredit reytinqindən aşağı olmamışdır. Bunu *Qrafik 19-da* görmək mümkündür.

*Qrafik 19*

**Dövlət Neft Fondunun vəsaitlərinin istiqrazlara yerləşdirildiyi maliyyə qurumlarının, habelə qiymətli kağızların kredit reytinqi**




2008-ci ildə Neft Fondunun vəsaitlərinin bir hissəsi üç xarici menecer - Credit Swiss qrupuna daxil olan Klariden Leu (İsveçrə) , Döyçe Bank qrupuna daxil olan Döyçe Asset Management (Almaniya) və Dünya Bankı tərəfindən idarə edilmişdir. 31 dekabr 2008-ci il tarixinə xarici menecerlərin idarə edilməsində olan vəsaitin ümumi miqdarı təqribən 245,9 milyon ABŞ dolları təşkil etmişdir ki, bu vəsaitlərin Fondun aktivlərindəki xüsusi çəkisi 2,2% təşkil edir.

Xarici menecerlərə idarəetməyə verilmiş aktivlərin ARDNF-in aktivlərində xüsusi çəkiləri *Qrafik 20-də* göstərilir.

*Qrafik 20*

**Xarici menecerlərə idarəetməyə verilmiş vəsaitlərin ARDNF-in aktivlərində xüsusi çəkisi**



2008-ci ildə Klariden Leu-nun faktiki illik gəlirliliyi -0,65%, Döyçe AsM-in -1,08%, Dünya Bankının isə 6,68% təşkil etmişdir. Xarici menecerlərin vəsaitlərin idarə edilməsi üzrə gəlirlilik göstəricilərini *Qrafik 21-də* müqayisə etmək olar.

*Qrafik 21*

### 2008-ci ildə xarici menecerlərin faktiki illik gəlirliliyi




2008-ci ilin sonuna Neft Fondunun aktivlərinin əsas hissəsi (56,02%) Avropa regionunda saxlanılmışdır. Bununla yanaşı, Fondun investisiya portfelinin yerləşdirilməsində Şimali Amerika (29,65%) və Beynəlxalq maliyyə təşkilatları (11,83%) da böyük yer tutmuşdur.

Dövlət Neft Fondunun investisiya portfelinin coğrafi regionlar üzrə təsnifatı *Cədvəl 7-də* göstərilir.

*Cədvəl 7*

### ARDNF-in investisiya portfelinin coğrafi regionlar üzrə təsnifatı
*(31.12.2008 tarixinə)*

| Coğrafi region | mln $ | % |
|---|---|---|
| Avropa | 6 229,71 | 56,02 |
| Şimali Amerika | 3 297,01 | 29,65 |
| Beynəlxalq maliyyə təşkilatları | 1 315,74 | 11,83 |
| Asiya / Sakit Okean | 155,36 | 1,40 |
| İnkişaf etməkdə olan ölkələr (Avropa) | 32,59 | 0,29 |
| İnkişaf etməkdə olan ölkələr (Latın Amerikası) | 23,18 | 0,21 |
| İnkişaf etməkdə olan ölkələr (Afrika/Yaxın Şərq) | 64,25 | 0,58 |
| İnkişaf etməkdə olan ölkələr (Asiya /Sakit Okean) | 2,05 | 0,02 |
| **Cəmi investisiya portfeli** | **11 119,89** | **100,00%** |

*Qrafik 22*

**ARDNF-in investisiya portfelinin coğrafi regionlar üzrə təsnifatı**
*(31.12.2008 tarixinə)*




Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr 2582 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Neft Fondunun 2008-ci il üçün İnvestisiya Siyasəti (investisiya istiqamətləri) ilə Neft Fondunun investisiya portfelinin valyuta tərkibi (səbəti) üçün müəyyən edilmiş tələblərə uyğun olaraq 2008-ci ildə Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 50%-i ABŞ dollarında ifadə olunan aktivlərə, 40%-i AVRO-da ifadə olunan aktivlərə, 5%-i İngiltərə funt-sterlinqində ifadə olunan aktivlərə, Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 5%-i isə "A" (Standart and Purz, Fiç) və ya "A2" (Mudiz) kredit reytinqindən aşağı olmayan uzunmüddətli ölkə (suveren borc) reytinqinə malik olan ölkələrin valyutalarında və ya ABŞ dollarında və xüsusi çəkidəki mütənasiblik əsasında bölüşdürülərək ABŞ dolları, AVRO və İngiltərə funt-sterlinqində ifadə olunan aktivlərdə yerləşdirilmişdir. 31 dekabr 2008-ci il tarixinə Fondun investisiya portfelinin (Fondun aktivlərinin həcmindən xərclər portfeli çıxılmaqla) qeyd olunan valyutalar arasında bölgüsü ABŞ dolları üzrə 52,67%, AVRO üzrə 42,95%, İngiltərə funt-sterlinqi üzrə 4,38% təşkil etmişdir.

Valyuta məzənnələrinin dəyişməsi nəzərə alınmadan Dövlət Neft Fondunun valyuta vəsaitləri üzrə 2006-cı ildə 4,24%, 2007-ci ildə 4,49% və 2008-ci ildə 3,79% gəlirlilik müşahidə olunmuşdur. 2006, 2007 və 2008-ci illərin yekununa görə orta gəlirlilik göstəricisi 4,17% olmuşdur. 2006-2008-ci illər üzrə Fondun ümumi aktivləri üzrə gəlirlilik *Qrafik 23-də* verilir.

*Qrafik 23*

**2006-2008-ci illər ərzində Dövlət Neft Fondunun valyuta vəsaitlərinin idarə edilməsi ilə bağlı gəlirlilik göstəriciləri**



## Xərclər

Hesabat ilində Dövlət Neft Fondunun vəsaiti hesabına qaçqınların və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həlli, "Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi", "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması", "Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihələrinin maliyyələşdirilməsi davam etdirilib, eyni zamanda 2008-ci ildə Dövlət Neft Fondu tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın (Dövlət Proqramı) maliyyələşdirilməsinə başlanmışdır. Bununla bərabər, hesabat ilində Neft Fondunun vəsaitinin böyük hissəsi dövlət büdcəsinə transfert edilmişdir.

Dövlət Neft Fondunun 2008-ci il üzrə büdcə xərclərinin strukturu *Qrafik 24-də* verilir.

*Qrafik 24*

2008-ci ildə Dövlət Neft Fondunun büdcə xərclərinin tərkibi




### Azərbaycan Respublikası 2008-ci il dövlət büdcəsinə transfert

Hesabat ilində Azərbaycan Respublikasının 2008-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, eləcə də Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanı ilə təsdiq edilmiş Dövlət Neft Fondunun 2008-ci il üçün büdcəsinin icrası çərçivəsində **3 800 000,0** min manat dövlət büdcəsinə transfert edilmişdir. Dövlət büdcəsinə transfert Fondun büdcə xərclərinin 88,5%-ni təşkil etmişdir. Vəsaitlər Azərbaycan Respublikasi Maliyyə Nazirliyinin Baş Xəzinədarlığın-

dakı hesabına köçürülüb. 2003-2008-ci illər ərzində Neft Fondundan dövlət büdcəsinə edilmiş transfertlərin ümumi məbləği 5 350 000,0 min manat təşkil edir. Transfertlərin 100 000,0 min manatı 2003-cü ildə, 130 000,0 min manatı 2004-cü ildə, 150 000,0 min manatı 2005-ci ildə, 585 000,0 min manatı 2006-cı ildə, 585 000,0 min manatı 2007-ci ildə, 3 800 000,0 min manatı isə 2008-ci ildə köçürülmüşdür.

## Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi layihəsinin maliyyələşdirilməsi

2008-ci ildə Dövlət Neft Fondunun **211 819,5** min manat məbləğində vəsaiti "Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi" layihəsinin maliyyələşdirilməsinə yönəldilmişdir. Bu xərclər Fondun büdcə xərclərinin 4,9%-ni təşkil etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral 2006-cı il tarixli 42s saylı Sərəncamına əsasən layihənin idarə edilməsi və sifarişçi funksiyalarının icrası "Azərsu" Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilir. Layihənin texniki-iqtisadi əsaslandırılması və layihə sənədləri Almaniyanın "CES Consulting Engineers" şirkəti tərəfindən hazırlanmışdır.

Layihənin əsas məqsədi Oğuz-Qəbələ ərazisindəki yeraltı su mənbələrinin işlədilməsi nəticəsində Bakı şəhərinə saniyədə 5 kubmetr həcmində suyun nəql olunması və əhalinin yüksək keyfiyyətli su ilə təmin edilməsidir. Bunun üçün təxminən 150 metr dərinlikdə və 350 mm diametrində olan 100-ə qədər istismar quyusundan ibarət sugötürücü qurğu tikilir. Bakıya ötürüləcək suyun təzyiqi Bakı şəhərinin su ilə 24 saat ərzində fasiləsiz olaraq təmin edilməsinə şərait yaradacaqdır. Su kəmərinin istiqaməti boyu Şamaxı və Abşeron rayonlarının ərazisində təzyiq nizamlayıcı qurğuların tikilməsi nəzərdə tutulur.

2008-ci ildə layihə üzrə görülən işlər çərçivəsində ümumi uzunluğu 267 km olan su boru kəmərinin 209,5 km-lik hissəsi quraşdırılıb, quyuların qazılması və tikintisi işləri həyata keçirilib, şüşəlifli poliestr borular istehsalçı tərəfindən təchiz edilmişdir.



Oğuz-Qəbələ-Bakı su kəmərinin quraşdırılmış hissəsi

01 yanvar 2009-cu il tarixinə "Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi" layihəsinin maliyyələşdirilməsinə Dövlət Neft Fondundan ümumilikdə **427,5 milyon manat**, o cümlədən 2006-cı ildə 82,8 milyon manat, 2007-ci ildə 132,9 milyon manat, 2008-ci ildə 211,8 milyon manat vəsait ayrılmışdır.

## Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı tədbirlərin maliyyələşdirilməsi

2008-ci ildə Dövlət Neft Fondunun büdcəsinin icrası çərçivəsində, eləcə də Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamlarının icrasına uyğun olaraq qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət və məskunlaşma məsələlərinin həlli ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə ümumilikdə **144 999,4 min** manat vəsait ayrılmışdır. Fondun vəsaiti hesabına Azərbaycanın müxtəlif ərazilərində qaçqın və məcburi köçkünlər üçün 32 qəsəbə, o cümlədən 15635 yaşayış evi istifadəyə verilmişdir. Bununla bərabər, bütün qəsəbələrdə müvafiq infrastruktur sistemlərinin və digər sosial-mədəni obyektlərin tikintisi də təmin edilmişdir.

2001-2008-ci illər ərzində bu tədbirlərin maliyyələşdirilməsinə Dövlət Neft Fondundan ümumilikdə 523,0 milyon manat vəsait yönəldilmişdir. Bu maddə üzrə Fondun xərcləri Neft Fondunun 2008-ci il üzrə büdcə xərclərinin 3,4%-ni təşkil etmişdir.

Qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət və məskunlaşma məsələlərinin həlli ilə bağlı tədbirlərin maliyyələşdirilməsi Dövlət Neft Fondu tərəfindən sifarişçi təşkilatların təqdim etdiyi sifarişlər əsasında həyata keçirilir. Bu sifarişlər əsasında Neft Fondunun vəsaitləri müvafiq qurumların dövlət xəzinədarlığındakı hesabına köçürülüb və sonra həmin sifarişçi təşkilatlar vasitəsi ilə podratçı təşkilatlara ödənilmişdir. Sifarişçi təşkilatlar layihələrin icrasına cari nəzarəti həyata keçirir, müvafiq tenderlərin keçirilməsini və digər müvafiq prosedurların aparılmasını təmin edir, yerlərdə açılmış ofisləri vasitəsi ilə işləri təşkil edir və əlaqələndirir.

Məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı tədbirlərin əsas sifarişçisi Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondudur (MKSİF). 2008-ci ildə MKSİF tərəfindən Bərdə, Ağcabədi, Saatlı, Sabirabad və İmişli rayonlarında məskunlaşmış məcburi köçkün ailələrinin Füzuli, Biləsuvar, Ağdam, Ağcabədi, Sabirabad, Beyləqan və Goranboy rayonlarında məskunlaşdırılması və onların sosial-məişət vəziyyətinin yaxşılaşdırılması tədbirləri həyata keçirilmişdir.




Ağdam və Biləsuvar rayonlarında məcburi köçkünlər üçün tikilmiş qəsəbələrdən görüntü

## Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi

2008-ci ildə Dövlət Neft Fondunun **120 600,0** min manat məbləğində vəsaiti Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsinə yönəldilmişdir. Bu maddə üzrə Fondun xərcləri Neft Fondunun 2008-ci il üzrə büdcə xərclərinin 2,8%-ni təşkil etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral 2006-cı il tarixli 42s saylı Sərəncamına əsasən layihənin idarə edilməsi və sifarişçi funksiyalarının icrası Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə həvalə edilmişdir. "Samur-Abşeron kanalı sistemi üzrə Uzunmüddətli Strategiya və Texniki-iqtisadi Əsaslandırma" Yaponiyanın "Nippon Koei" və yerli "Sulako" şirkətləri tərəfindən 2004-cü ildə hazırlanmışdır.

Layihə üçün ayrılmış vəsait hesabına "Taxtakörpü su anbarının tikintisi" obyekti üzrə hazırlıq işlərinin tərkibinə daxil olan su anbarı ərazisinin boşaldılması, burada məskunlaşan məcburi köçkünlərin köçürülməsi üçün yeni qəsəbənin tikintisi, subasar əraziyə düşən mövcud yolların, magistral neft və qaz boru kəmərlərinin köçürülməsi işləri yerinə yetirilmiş, Taxtakörpü su anbarı ərazisində bəndin qazma işləri tərkibində su hövzəsi dibinin hamarlanması, yamacların nizamlanması işləri davam etdirilmişdir. Müvafiq karxanalardan çınqıl və qum-çınqıl materialı sahəyə daşınmış, dolğu materiallarının istehsalı təşkil edilmişdir. Tikinti işlərinə cəlb edilmiş işçilərin sayı 1500-ə yaxındır.

Layihə çərçivəsində "Taxtakörpü-Ceyranbatan kanalının tikintisi" obyekti üzrə Dəvəçi rayonunda yerləşən Taxtakörpü su anbarı ilə Ceyranbatan su anbarı arasında kanalın inşası, o cümlədən kanal üçün torpağın qazılması və tökülməsi işləri, kanal özülünün düzəldilməsi üçün svayvurma və betonlama işləri həyata keçirilmişdir.



Taxtakörpü su anbarında bəndin tikintisi

## Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi

2008-ci ildə Dövlət Neft Fondunun **5 271,1** min manat vəsaiti Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2008-ci il tarixli 1974 saylı Sərəncamının icrasına uyğun olaraq Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə yönəldilmişdir. Bu maddə üzrə Fondun xərcləri Neft Fondunun 2008-ci il üzrə ümumi xərclərinin 0,1%-ni təşkil etmişdir. Layihə çərçivəsində Türkiyənin ərazisində 76 km və Gürcüstanın ərazisində 29 km uzunluğunda olan Qars-Axalkalaki dəmir yolu xəttinin tikintisi və Gürcüstan ərazisində 160 km uzunluğunda Axalkalaki-Marabda yolunun reabilitasiya-rekonstruksiyası həyata keçirilir. Layihənin Gürcüstan hissəsində Marabda stansiyası və Türkiyə ilə dövlət sərhədi arasında yerləşən bir ərazidə təkər cütlərinin dəyişdirilməsi məntəqəsinin yaradılması nəzərdə tutulur. Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında dəmir yolu tunelinin inşası, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, region ölkələrinin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin möhkəmlənməsinə, habelə ölkəmizin xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edəcəkdir. Neft Fondundan ayrılmış vəsait hesabına Marabda-Kartsaxi Dəmir Yolunun inşası üzrə layihə işləri yerinə yetirilmiş, tikintinin hazırlıq işləri görülmüşdür.

## "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi

Hesabat ilində Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin icrası çərçivəsində, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2007-cı il 16 aprel tarixli 2090 saylı Sərəncamının icrasına uyğun olaraq hesabat ilində Neft Fondunun **2 295,6 min manat** vəsaiti "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilmişdir. Bu maddə üzrə Fondun xərcləri Neft Fondunun 2008-ci il üzrə büdcə xərclərinin 0,1%-ni təşkil etmişdir. Dövlət Proqramının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 iyun 2008-ci il tarixli 128 saylı Qərarı ilə "Xarici ölkələrdə təhsil alacaq Azərbaycan gənclərinin seçim Qaydaları", 03 iyun 2008-ci il tarixli 204s saylı Sərəncamı ilə "Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı" təsdiq edilmişdir. Eyni zamanda Dövlət Proqramı çərçivəsində xaricdə təhsil prosesinin maliyyələşdirmə mexanizminin yaradılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 noyabr 2008-ci il tarixli 261 saylı Qərarı ilə "Azərbaycan gənclərinin xarici ölkələrin ali məktəblərində təhsil haqlarının ödənilməsi Qaydaları" təsdiq edilmişdir. 31 dekabr 2008-ci il tarixinə Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilməsi təmin edilmiş Dövlət Proqramı çərçivəsində xaricdə oxuyan tələbələrin sayı 164 nəfər təşkil edir. Bu proqramın icrası sayəsində ölkəmizdə müasir tələblərə cavab verən kadr potensialının yaradılmasına, gənc nəslin təhsilinin artırılmasına və beynəlxalq səviyyəyə çatdırılmasına şərait yaranacaqdır. Proqramın ilk növbədə Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilməsi "qara qızılın insan kapitalına çevrilməsi" ideyasının reallaşmasına doğru atılmış və uzun illər üçün hesablanmış strateji bir addımdır.

## Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri

Dövlət Neft Fondu haqqında Əsasnaməyə uyğun olaraq Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər smetası Fondun İcraçı Direktorunun təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir. Neft Fondunun 2008-ci ildə idarə edilməsi ilə bağlı xərclər smetası Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2007-ci il tarixli 2582 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Hesabat ilində Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri təsdiq edilmiş smeta xərclərinə nisbətən (9 751,6 min manat) 69,38% yerinə yetirilərək **6 765,8 min manat** təşkil etmiş və qənaət edilmiş vəsaitin həcmi **2 985,8 min manat** olmuşdur. Bu maddə üzrə Fondun xərcləri Neft Fondunun 2008-ci il üzrə büdcə xərclərinin 0,2%-ni təşkil etmişdir.

Neft Fondunun idarə edilməsi ilə bağlı xərclərin tərkibində əməyin ödənişi fondu üzrə xərclər - 904,1 min manat, malların (işlərin və xidmətlərin) satınalınması ilə bağlı xərclər, ümumilikdə - 474,6 min manat, təqaüdlər və sosial müavinətlər - 34,8 min manat, digər xərclər - 2 295,4 min manat, qeyri-maliyyə aktivlərinin alınması ilə bağlı xərclər - 3 056,9 min manat təşkil etmişdir. Qənaət (2 986,6 min manat) əsasən Fondun xərclər smetasında xarici menecerlərin xidmət haqlarının ödənilməsi üçün nəzərdə tutulan vəsaitdən il ərzində daha az istifadə olunması ilə bağlı yaranmışdır.

## Dövlət Neft Fondunun büdcədənkənar xərcləri

Hesabat ilində Dövlət Neft Fondunun büdcədənkənar xərcləri və ödənişləri **678 623,8 min manat** təşkil etmişdir.

2008-ci ildə Neft Fondunun aktivlərinin valyuta məzənnələrinin dəyişməsi ilə bağlı xərcləri 652 645,9 min manat təşkil etmişdir. Belə ki, xarici valyuta aktivləri və ya xarici valyutada ifadə edilmiş investisiya vasitələri Neft Fondunun aktivlərini təşkil edir, eyni zamanda Fondun vəsaiti diversifikasiya edilərək ABŞ dolları, AVRO, İngiltərə funt-sterlinqi və digər valyutalarda yerləşdirilir, digər tərəfdən Fondun balansı Azərbaycan manatında tərtib edildiyi üçün il ərzində xarici valyutaların mübadilə məzənnələrinin dəyişməsi, eləcə də Azərbaycan manatının xarici valyutalara qarşı möhkəmlənməsi şəraitində Fondun aktivlərinin (Azərbaycan manatı ilə ifadə edilməklə) yenidən qiymətləndirilməsi zamanı Neft Fondu əlavə balans xərcləri ilə üzləşmişdir.

Eyni zamanda hesabat ilində Neft Fondu tərəfindən 25 977,9 min manat məbləğində mənfəət vergisi və digər vergilər ödənilmişdir.

## Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin icrası

Dövlət Neft Fondunun 2008-ci il büdcəsi Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanı ilə təsdiq edilmişdir.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 11 iyul 2008-ci il tarixli 802 saylı Fərmanı ilə Dövlət Neft Fondunun 2008-ci il üçün büdcəsində əlavə və dəyişikliklər edilmişdir. Dəyişikliklərə əsasən Neft Fondunun 2008-ci il büdcəsinə xam neftin ixrac qiyməti üzrə Dövlət Neft Fonduna köçürülən yığımlar üzrə 70 623,1 min manat məbləğində yeni gəlir maddəsi əlavə edilmiş, Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər üzrə gəlir maddəsi 3 473 109,6 min manatdan 9 819 516,0 min manata, neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının payına düşən dividendlərlə bağlı gəlir maddəsi 13 423,2 min manatdan 104 806,0 min manata, Fondun vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər üzrə gəlir maddəsi 121 928,2 min manatdan 148 898,1 min manata və müvafiq olaraq Fondun büdcə gəlirlərinin ümumi məbləği 3 609 361,0 min manatdan 10 144 743,2 min manata qədər artırılmışdır. Əlavə və dəyişikliklərə əsasən dövlət büdcəsinə transfertlə bağlı xərc maddəsi 1 100 000,0 min manatdan 3 800 000,0 min manata qədər və müvafiq olaraq Fondun büdcə xərclərinin ümumi məbləği 1 680 853,6 min manatdan 4 380 853,6 min manata qədər artırılmışdır.

### Gəlirlər

2008-ci il ərzində Dövlət Neft Fondunun gəlirlərinin ümumi həcmi Fondun büdcəsində nəzərdə tutulana nisbətən (10 144 743,2 min manat) 17% artıq yerinə yetirilməklə **11 864 648,1** min manat təşkil etmişdir. Gəlirlərin maddələr üzrə icrası Cədvəl 9-da əks olunmuşdur.

2008-ci il ərzində **Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından** Dövlət Neft Fonduna **11 526 985,7** min manat və ya **14 116,0** milyon ABŞ dolları daxil olmuş və bu gəlirlər Fondun büdcəsində nəzərdə tutulmuş (9 819 516,0 min manat) gəlir maddəsinə nisbətən **17,4%** artıq yerinə yetirilmişdir. Hesabat ilində bu mənbə üzrə Fondun gəlirlərinin icra olunma səviyyəsinin büdcə göstəricilərini 17,4% üstələməsi 2008-ci ildə beynəlxalq bazarlarda neftin orta qiymətinin yüksək səviyyədə olması ilə bağlı olub. Belə ki, Neft Fondunun 2008-ci il büdcəsinin bu gəlir maddəsi formalaşdırılarkən, xam neftin 1 barrelinin ixrac qiyməti 70 ABŞ dolları səviyyəsində götürülüb, lakin ilin sonunda neftin qiymətlərinin aşağı düşməsinə baxmayaraq, faktiki olaraq hesabat ilində Neft Fondunun payına düşən neftin 1 barrelinin orta çəkili xalis mədaxil qiyməti (nəqliyyat və marketinq xərcləri çıxılmaqla) təqribən 101 ABŞ dolları təşkil etmişdir, bu isə öz növbəsində, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin müəyyən müddət ərzində işləməməsinə baxmayaraq, Neft Fondunun gəlirlərinin artıqlaması ilə yerinə yetirilməsinə şərait yaratmışdır.

Hesabat ilində Fondun növbəti daxilolmasını **neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının payına (Dövlət Neft Fonduna) düşən** 119,6 milyon ABŞ dolları və yaxud **97 234,6 min manat** dividend (**BTC layihəsi üzrə**)

ödənişləri təşkil etmişdir. Bu vəsaitin 16,5 milyon ABŞ dollarını Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin 2007-ci ildə, 103 milyon ABŞ dollarını isə kəmərin 2008-ci ildə fəaliyyətinin nəticələri üzrə ödənilmiş dividendlər təşkil etmişdir. Bu mənbə üzrə Dövlət Neft Fondunun daxilolmalarının icra səviyyəsi büdcədə nəzərdə tutulmuş məbləğə (104 806,0 min manat) nisbətən 92,8% təşkil etmişdir.

*Cədvəl 8*

**Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin gəlir maddələrinin icrası**
*min manat*

| № | Gəlir mənbələri | Gəlirlərin məbləği | | İcra faizi |
|---|---|---|---|---|
| | | Təsdiq olunmuş | Faktiki | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçiləri, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 9 819 516,0 | 11 526 985,7 | 117,4 |
| 2. | Neft-qaz layihələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının payına düşən dividendlər (BTC layihəsi üzrə) | 104 806,0 | 97 234,6 | 92,8 |
| 3. | Xam neftin ixrac qiyməti üzrə Dövlət Neft Fonduna köçürülən yığımlar | 70 623,1 | 0 | 0,0 |
| 4. | Dövlət Neft Fondunun vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər | 148 898,1 | 231 171,3 | 155,3 |
| 5. | Digər gəlirlər və daxilolmalar | 900,0 | 2 701,6 | 300,2 |
| 6. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlər | | 3 567,0 | |
| 7. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | | 165,7 | |
| 8. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilən bonuslar (mükafatlar) | | 2 822,2 | |
| | **Cəmi gəlirlər** | **10 144 743,2** | **11 864 648,1** | **117,0** |

2008-ci ildə **Dövlət Neft Fondunun vəsaitlərinin idarə edilməsindən** əldə edilən gəlirlər büdcədə nəzərdə tutulduğundan (148 898,1 min manat) 55,3% çox yerinə yetirilərək **231 171,3** min manat təşkil etmişdir.

2008-ci ildə Dövlət Neft Fondunun **digər gəlir və daxilolmalar** maddəsi üzrə gəlirləri **2 701,6** min manat təşkil etmişdir. Digər gəlirlər və daxilolmalar maddəsinə neft-qaz sazişləri çərçivəsində sərmayəçilər tərəfindən (xarici neft şirkətləri) verilən aktivlərin (köhnəl-

miş və ya istifadə olunmayan metal qırıntıları, borular) satışından əldə edilmiş gəlirlər aiddir. Bu mənbə üzrə daxilolmalar Neft Fondunun büdcəsində nəzərdə tutulana (900 min manat) nisbətən 200,2% artıq yerinə yetirilmişdir.

Hesabat ilində Dövlət Neft Fonduna Fondun 2008-ci il üçün büdcəsində nəzərdə tutulmayan akrhesabı ödənişlər, tranzit haqqı, bonus ödənişləri üzrə gəlirlər daxil olmuşdur.

Belə ki, 2008-ci ildə Dövlət Neft Fonduna karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar xarici sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün **3 567,0** min manat (**4,4** milyon ABŞ dolları) məbləğində **akrhesabı ödənişlər**, **165,7 min manat** (0,2 milyon ABŞ dolları) məbləğində neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (**tranzit haqqı**) və **2 822,2** min manat (**3,5** milyon ABŞ dolları) məbləğində neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı **bonuslar** (mükafatlar) ödənilmişdir.

Hesabat ili ərzində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən **xam neftin ixrac qiyməti üzrə köçürülən yığımlar üzrə** Dövlət Neft Fonduna ödənişlər həyata keçirilmədiyindən, Neft Fondunun 2008-ci il büdcəsinin bu gəlir maddəsi yerinə yetirilməmişdir.

## Xərclər

2008-ci ildə Neft Fondunun büdcə xərclərinin ümumi miqdarı **4 291 751,4** min manat təşkil etmişdir.

2008-ci ildə Dövlət Neft Fondunun vəsaiti hesabına dörd mühüm layihənin - qaçqınların və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həlli layihəsi, "Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi", "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" və "Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihələrinin maliyyələşdirilməsi davam etdirilmiş, bununla bərabər, cari ildən başlayaraq Fondun vəsaiti Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 saylı Fərmanı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə başlanmışdır. Eyni zamanda cari ildə Fondun vəsaitlərinin böyük hissəsi dövlət büdcəsinə transfert edilmişdir.

## 2008-ci ildə Dövlət Neft Fondunun büdcə xərclərinin tərkibi

2008-ci ildə Dövlət Neft Fondunun büdcəsinin mühüm xərc istiqamətini **qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı tədbirlərin maliyyələşdirilməsi** təşkil etmişdir. Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin icrası çərçivəsində, eləcə də Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamlarının icrasına uyğun olaraq qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət və məskunlaşma məsələlərinin həlli ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə ümumilikdə **144 999,4** min manat vəsait ayrılmışdır. Bu xərc maddəsi Fondun büdcəsində bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitə nisbətən (**145 000,0** min manat) 100,0% səviyyəsində ic-

ra olunmuşdur. 2001-2008-ci illər ərzində bu tədbirlərin maliyyələşdirilməsinə Dövlət Neft Fondundan ümumilikdə 523,0 milyon manat vəsait yönəldilmişdir.

2008-ci ildə Dövlət Neft Fondundan **3 800 000,0** min manat məbləğində vəsait **dövlət büdcəsinə transfert** edilmiş və bu maddə üzrə xərclər büdcədə nəzərdə tutulduğu (3 800 000,0 min manat) qədər tam şəkildə - 100% icra olunmuşdur.

Hesabat ilində Dövlət Neft Fondunun **211 819,5** min manat məbləğində vəsaiti **"Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi" layihəsinin maliyyələşdirilməsinə** yönəldilmişdir. Bu maddə üzrə Fondun xərcləri büdcədə nəzərdə tutulana nisbətən (211 820,0 min manat) 100% səviyyəsində yerinə yetirilmişdir.

2008-ci ildə Dövlət Neft Fondunun **120 600,0** min manat məbləğində vəsaiti **Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsinə** yönəldilmişdir və bu maddə üzrə Fondun xərcləri büdcədə nəzərdə tutulduğu qədər (120 600,0 min manat) - 100% səviyyəsində yerinə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2008-ci il tarixli 1974 saylı Sərəncamının icrasına uyğun olaraq 2008-ci ildə Dövlət Neft Fondu tərəfindən **5 271,1** min manat **Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə** yönəldilmiş və bu maddə üzrə Neft Fondunun xərcləri Fondun büdcəsində nəzərdə tutulana nisbətən (88 682,0 min manat) 5,9% səviyyəsində icra olunmuşdur. Bunun əsas səbəbi 2008-ci ildə Gürcüstanda baş vermiş hadisələrin layihə üzrə işlərin vaxtında icrasına mənfi təsir göstərməsi olmuşdur.

Eyni zamanda Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin icrası çərçivəsində, eləcə də Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 saylı Sərəncamının icrasına uyğun olaraq hesabat ilində Neft Fondunun **2 295,6 min manat** vəsaiti "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilmişdir. Neft Fondunun bu maddə üzrə xərcləri Fondun büdcəsində nəzərdə tutulana nisbətən (5 000,0 min manat) 45,9% səviyyəsində icra olunmuşdur.

2008-ci ildə **Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri** Fondun təsdiq edilmiş smeta xərclərinə nisbətən (9 751,6 min manat) 69,4% yerinə yetirilərək **6765,8** min manat təşkil etmişdir.

2008-ci ildə eyni zamanda Dövlət Neft Fondunun 678 623,8 min manat məbləğində büdcədənkənar xərcləri olmuşdur. Belə ki, hesabat ilində Neft Fondu tərəfindən 25 977,9 min manat məbləğində mənfəət vergisi və digər vergilər ödənilmiş, Neft Fondunun aktivlərinin valyuta məzənnələrinin dəyişməsi ilə bağlı xərcləri 652 645,9 min manat təşkil etmişdir.

*Cədvəl 9*

Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin xərc maddələrinin icrası
*min manat*

| № | Xərc istiqamətləri | Xərclərin məbləği | | İcra faizi |
|---|---|---|---|---|
| | | Təsdiq olunmuş | Faktiki | |
| 1. | Qaçqın və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi | 145 000,0 | 144 999,4 | 100,0 |
| 2. | Dövlət büdcəsinə transfert | 3 800 000,0 | 3 800 000,0 | 100,0 |
| 3. | Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi layihəsinin maliyyələşdirilməsi | 211 820,0 | 211 819,5 | 100,0 |
| 4. | Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi | 120 600,0 | 120 600,0 | 100,0 |
| 5. | Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin maliyyələşdirilməsi | 88 682,0 | 5 271,1 | 5,9 |
| 6. | 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsi | 5 000,0 | 2 295,6 | 45,9 |
| 7. | Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 9 751,6 | 6 765,8 | 69,4 |
| | **Cəmi büdcə xərcləri** | **4 380 853,6** | **4 291 751,4** | **98,0** |
| | **Büdcədənkənar xərclər** | | | |
| | Mənfəət vergisi və digər vergilər | | 25 977,9 | |
| | Xarici valyuta əməliyyatları üzrə xalis məzənnə fərqi | | 652 645,9 | |
| | **Cəmi büdcədənkənar xərclər** | | **678 623,8** | |



# NEFT FONDUNUN İDARƏETMƏ SİSTEMİ

# 4

Dövlət Neft Fondunun fəaliyyətinə nəzarət Fondun Müşahidə Şurası tərəfindən həyata keçirilir.

Dövlət Neft Fondunun Müşahidə Şurasının 2008-ci il iyunun 27 tarixində keçirilmiş növbəti iclasında Fondun 2007-ci ildə fəaliyyəti haqqında illik hesabatı, maliyyə fəaliyyətinin auditinin nəticələri, Fondun 2007-ci il büdcəsinin icrası, Fondun 2008-ci il büdcəsinə dəyişikliklərin edilməsi məsələlərinə baxılmışdır. Müşahidə Şurası Neft Fondunun icraçı direktorunun təqdim etdiyi Fondun 2007-ci ildə fəaliyyəti haqqında illik hesabatına, Fondun 2007-ci ildə maliyyə fəaliyyəti haqqında müstəqil auditorun (Deloyt ənd Tuş şirkətinin) hesabatına baxaraq onları məqbul hesab etmiş və Fondun 2007-ci il büdcəsinin icrası layihəsini təsdiq olunmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim etmək barədə qərar qəbul etmişdir. Müşahidə Şurası Fondun 2008-ci il büdcəsinə təqdim olunmuş dəyişiklikləri məqbul hesab etmiş və həmin dəyişikliklərin təsdiq olunmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim olunmasını qərara almışdır.

Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2008-ci il tarixli 73 saylı Sərəncamı ilə Dövlət Neft Fondunun Müşahidə Şurasının yeni tərkibi təsdiq edildi. Sərəncama əsasən, Azərbaycan Respublikasının Baş Naziri Artur Rasi-zadə, Azərbaycan Respublikasının Milli Məclis sədrinin müavini Valeh Ələsgərov, Azərbaycan Respublikasının İqtisadi siyasət məsələləri üzrə Dövlət müşaviri Vahid Axundov, Azərbaycan Respublikasının Maliyyə Naziri

Samir Şərifov, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Naziri Şahin Mustafayev, Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin sədri Elman Rüstəmov, Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov Müşahidə Şurasının üzvləri təsdiq ediliblər.

Baş Nazir cənab A.Rasi-zadə yenidən Dövlət Neft Fondunun Müşahidə Şurasının sədri seçilmişdir.

Hesabat ilində Neft Fondunda icra intizamı daha da gücləndirilib, fonddaxili prosedur qaydaları və Neft Fondunun strukturları arasında səlahiyyətlərin bölgüsü daha da təkmilləşdirilmişdir.

## Neft Fondunun insan resurslarının inkişafı

2008-ci ildə Neft Fondunun insan resursu potensialının inkişaf etdirilməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

Hesabat ilində Neft Fondunun aidiyyəti bölmələrinin işçiləri Fondun əməkdaşlıq etdiyi investisiya banklarının, habelə Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Asiya İnkişaf Bankının təşkil etdiyi bir sıra tədris seminarlarında və kurslarda iştirak etmişlər. Bu seminar və kurslarda Neft Fondunun işçiləri investisiya siyasəti, portfel idarəçiliyi, risklərin idarə olunması, layihələrin idarə edilməsi, informasiya texnologiyaları sahəsində bilik və təcrübələrini artırmışlar. Eyni zamanda Neft Fondunun əməkdaşlarının ixtisas səviyyəsinin artırılması məqsədilə Fondun bir sıra təcrübəli işçilərinin İnvestisiyaların İdarə edilməsi və Tədqiqat Assosiasiyası (Association for Investment Management and Research, AIMR) tərəfindən verilən Diplomlu maliyyə analitiki (CFA) dərəcəsinin alınması proqramında iştirakı üçün zəruri şərait yaradılmışdır.

2008-ci ildə Neft Fondunun aparatını formalaşdıracaq ixtisaslı kadrların seçimi və işə hazırlığı işləri davam etdirilmişdir.

Hesabat ilində Dövlət Neft Fondunun işçilərinin əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi üzrə müvafiq tədbirlər həyata keçirildi. Belə ki, 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin "Dövlət Neft Fondunun aparatının işçilərinin əməyinin ödənilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2008-ci il 10 iyul tarixli 797 saylı Fərmanı imzalanmış və Fərmanın icrasına əsasən 2009-cu ildən başlayaraq Neft Fondunun aparatının işçilərinin əməyinin ödənilməsinin müasir tələblərə uyğun tənzimlənməsi təmin edilmişdir.

2008-ci ildə Neft Fondunun işçilərinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Bu istiqamətdə aparılan tədbirlərdən biri olaraq, Fondun əməkdaşlarının, eləcə də güzəştli şərtlərlə onların ailə üzvlərinin tibbi sığortalanması təmin edilmişdir. Eyni zamanda mükafatlandırılma Fondun əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər sırasına daxil olub.

## Hesabat sistemi

2008-ci ildə Dövlət Neft Fondunun fəaliyyəti ilə bağlı hesabatların təqdimetmə mexanizminin təkmilləşdirilməsinə və bu sahədə şəffaflığın artırılmasına xüsusi önəm verilib.

Neft Fondunun hesabat və maliyyə uçotu sahəsində dürüstlüyünün təmin edilməsi məqsədilə hər il Fondun maliyyə fəaliyyətinin auditi keçirilir. Neft Fondunun 2008-ci il üzrə maliyyə fəaliyyətinin auditi "Deloyt ənd Tuş" şirkəti tərəfindən həyata keçirilmişdir. Belə ki, Neft Fondunun 2007, 2008 və 2009-cu illər üzrə (hər bir il üzrə ayrılıqda olmaq şərti ilə) maliyyə fəaliyyətinin auditini keçirmək məqsədi ilə Azərbaycan Respublikasının dövlət satınalmaları haqqında qanunvericiliyinə uyğun olaraq xidmət təkliflərinin cəlb olunması üsulu ilə 2007-cı ildə Dövlət Neft Fondunda birdəfəlik müsabiqə proseduru keçirilmiş və xidmət təklifləri sorğusuna əsasən, Azərbaycan Respublikasında fəaliyyət göstərən nüfuzlu beynəlxalq auditor təşkilatlarının təqdim etdikləri təkliflərin qiymətləndirilməsi nəticəsində "Deloyt ənd Tuş" şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi müsabiqənin qalibi müəyyən edilmişdir. Dövlət Neft Fondu haqqında Əsasnaməyə və Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2007-cı il tarixli razılığına uyğun olaraq bu şirkət Fondun 2007, 2008 və 2009-cu illər üzrə maliyyə fəaliyyətinin auditini keçirmək üçün auditor təyin edilmişdir.

2008-ci ildə Dövlət Neft Fondunun fəaliyyəti haqqında, Fondun maliyyələşdirdiyi layihələr, Müşahidə Şurasının qərarları barədə məlumatlar Neft Fondunun internet səhifəsində yerləşdirilib, mətbuat və ictimaiyyətin nümayəndələri üçün mütəmadi olaraq açıqlamalar verilmişdir. Hesabat ilində Neft Fondunun İcraçı Direktoru tərəfindən Neft Fondunun fəaliyyəti barədə, MHŞT ilə bağlı görülən işlər barədə media nümayəndələri üçün bir neçə mətbuat konfransı təşkil edilmişdir.

2008-ci ildə Neft Fondunun gəlir və xərcləri barədə press-relizlər Fondun internet saytında (*www.oilfund.az*) Azərbaycan və ingilis dillərində yerləşdirilmişdir.



# 2008-ci İLDƏ NEFT FONDUNUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

# 5

2008-ci il ərzində Azərbaycan Respublikası Dövlət Neft Fondunda bir sıra dövlətlərin rəsmi şəxsləri və beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlər keçirilmişdir. Fondun İcraçı Direktoru 2008-ci ildə Azərbaycanda səfərdə olan ABŞ senatoru Riçard Luqarın, Kamboca Krallığının İqtisadiyyat və Maliyyə Nazirliyinin Baş Katibi Hanq Çuon Naronun, ABŞ-ın Dövlət Katibinin İqtisadiyyat, Enerji və Kənd təsərrüfatı məsələləri üzrə müavini Ruben Cefrinin, Norveçin Neft və Energetika Nazirinin müavini xanım Liv Monika Stubholdtun, Qazaxıstan Milli Bankının sədr müavini Daniyar Akişevin, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Administratoru və ABŞ-ın xarici yardımlar üzrə direktoru Henrietta Forun, ABŞ Ticarət və İnkişaf Agentliyinin Regional məsələlər üzrə direktoru Dan Stayn və ABŞ Dövlət Energetika Departamentinin Rusiya və Avrasiya məsələləri üzrə direktoru Lana Ekimofun başçılıq etdiyi nümayəndə heyətləri ilə görüşmüşdür.

Keçirilən bu görüşlərdə Dövlət Neft Fondunun fəaliyyəti, Fondun vəsaitlərinin idarə edilməsi, Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) tətbiqinə dair məsələlər, o cümlədən Azərbaycanda MHŞT-nin uğurla tətbiq edilməsi barədə qonaqlara ətraflı məlumat verilmişdir. Görüşlərdə eyni zamanda ölkəmizdəki mövcud iqtisadi islahatlar, Azərbaycanda neft sektorunun rolu, əsas prioritet məsələlərdən olan qeyri-neft sektorunun inkişaf etdirilməsi və digər məsələlər ətrafında fikir mübadilələri aparılmışdır.

2008-ci ildə dünyanın məşhur və nüfuzlu kütləvi informasiya vasitələrinin nümayəndələri Dövlət Neft Fondunda olmuş, Fondun İcraçı Direktorundan müsahibələr almışlar. Bu tip görüşlərin keçirilməsi Fondun beynəlxalq arenada tanınmasında və dünya ictimaiyyətinin Fond haqqında düzgün şəkildə məlumatlandırılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Fondda eyni zamanda Avropa Jurnalistika Mərkəzinin təşkil etdiyi Avropa Qonşuluq siyasəti proqramında iştirak edən Avropa İttifaqı ölkələrinin jurnalistləri, o cümlədən "Pravo" (Çexiya), "Radio 4" (Estoniya), "YLE TV" (Finlandiya), "Der Tagesspiegel" (Almaniya), "Eleftherotypia" (Yunanıstan), "RTE TV" (İrlandiya), "Newstalk/BBC" (İrlandiya), "SWH Radio" (Latviya), "De Telegraaf" (Niderland), "Slovak Radio" (Slovakiya) kimi nüfuzlu media qurumlarının nümayəndələri ilə görüş keçirilmiş və Fondun fəaliyyətinə dair geniş məlumat verilmişdir.

2008-ci ildə, əvvəlki illərdə olduğu kimi, qabaqcıl təcrübənin tətbiqi üzrə əməkdaşlıq Neft Fondunun beynəlxalq əlaqələrinin inkişafında mühüm yer tutub. Dövlət Neft Fondu ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında imzalanmış qrant sazişinə uyğun olaraq ARDNF-in İnstitusional İnkişafı layihəsinin 3-cü fazası çərçivəsində bu layihəni həyata keçirəcək Overture Financial Services şirkəti ilə əməkdaşlıq davam etdirilib, bu əməkdaşlıq sayəsində xarici menecerlərin seçilməsi, xarici menecerlərə nəzarət prosedurunun yaradılması, risklərin monitorinqi və idarə edilməsi sisteminin təkmilləşdirilməsi işləri həyata keçirilib, Neft Fondunun əməkdaşları üçün müvafiq treyninqlər keçirilmişdir.

Dövlət Neft Fondu ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) arasında imzalanmış İnvestisiya idarəçiliyi və konsultasiya müqaviləsinə əsasən BYİB-in yaratdığı RAM proqramı çərçivəsində Neft Fondu üçün davamlı məsləhətlər təqdim edilib, bu proqram çərçivəsində Fondun işçiləri üçün investisiya siyasəti, portfel idarəçiliyi, risklərin idarə olunması, investisiya idarəçiliyi əməliyyatları sahəsində treyninq və seminarlar təşkil edilmişdir.

2008-ci il ərzində Fondun İcraçı Direktoru dünya ölkələrinin nümayəndələrinin iştirak etdiyi bir sıra beynəlxalq tədbirlərdə, o cümlədən Qananın paytaxtı Akra şəhərində keçirilmiş Neft və Qaz üzrə milli forumda, London şəhərində nüfuzlu "Central Banking Publications" şirkəti tərəfindən təşkil edilmiş "Dövlət Vəsaitlərinin İdarəedilməsi Fondları" mövzusunda keçirilmiş konfransda, Los-Anceles şəhərində nüfuzlu Milken İnstitutu tərəfindən təşkil edilmiş Qlobal Konfransda iştirak etmişdir.

## Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü çərçivəsində həyata keçirilən işlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın qoşulduğu "Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq" Təşəbbüsü (MHŞT) Neft Fondunun fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edir və Azərbaycan bu Təşəbbüsün həyata keçirilməsi istiqamətində liderliyi əldə saxlayır. MHŞT üzrə Komissiya tərəfindən ölkə hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmalar barədə hesabatlar və beynəlxalq auditor şirkətinin bu hesabatlara dair verdiyi rəylər ictimaiyyətə ildə iki dəfə açıqlanır və 31.12.08-ci il tarixinə Komissiya tərəfindən artıq 9 hesabat və bu hesabatlara dair audit şirkətlərinin rəyləri açıqlanıb.

2008-ci ildə MHŞT üzrə Komissiya tərəfindən mədən hasilatı sənayesində əldə olunmuş məcmu daxilolmalar barədə iki hesabat (səkkizinci və doqquzuncu hesabatlar) açıqlanmışdır. Belə ki, 2008-ci il iyunun 5-də MHŞT üzrə Komissiya Azərbaycan Respublikası Hökumətinin səkkizinci hesabatını (2007-ci il üçün yanvar-dekabr ayları üzrə illik), 2008-ci il dekabrın 18-də isə doqquzuncu hesabatını (2008-ci ilin ilk 6 ayı üzrə yarımillik) açıqlamışdır. Bu hesabatlara hasilat (neft-qaz) sənayesində fəaliyyət göstərən şirkətlərin təqdim etdikləri fərdi hesabatların təhlili əsasında hazırlanmış audit şirkətinin verdiyi rəylər də daxildir.

2008-ci il fevralın 6-da Azərbaycanda yeni fəaliyyətə başlayan "Absheron Investments Ltd" şirkəti tərəfindən MHŞT-nin Azərbaycanda tətbiqinə dair Memorandum imzalanmışdır. Bununla da Təşəbbüsdə iştirak edən şirkətlərin sayı 26-ya çatmış və artıq ölkədə mədən sənayesində fəaliyyət göstərən bütün şirkətlər MHŞT-nin tətbiqi prosesinin iştirakçılarıdır.

2008-ci il sentyabrın 11-də BMT Baş Məclisinin 62-ci sessiyası çərçivəsində Azərbaycan tərəfindən irəli sürülmüş "Sənaye sahələrində şəffaflığın artırılması" adlı qətnamə yekdilliklə qəbul edilmişdir. Qətnamənin əsas məqsədi Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) BMT Baş Məclisi tərəfindən tanınmasından ibarət olub və bu sənədin dəstəklənməsinə 27 dövlət həmmüəllif kimi qoşulmuşdur. Sessiyada MHŞT-yə qoşularaq onu həyata keçirməyə və qətnaməni irəli sürdüyünə görə Azərbaycan Hökumətinə təşəkkür bildirildi.

2007-ci il sentyabrın 27-də Norveçin paytaxtı Oslo şəhərində MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin 3-cü iclasında 15 ölkəyə, o cümlədən Azərbaycana namizəd statusu verilmişdir. İdarə Heyətinin qərarına əsasən, MHŞT-nin tam üzvü olmaq üçün ölkələrdə xüsusi qiymətləndirmə prosesi keçirilməlidir. MHŞT üzrə Beynəlxalq İdarə Heyəti tərəfindən namizəd ölkələr üçün son müddət müəyyən edilmişdir və ölkələrin MHŞT statuslarının bu son müddətdə müəyyənləşdirilməsi razılaşdırılmışdır. Qiymətləndirmə prosesi MHŞT-ni tətbiq edən ölkələrin Şəffaflıq Təşəbbüsü üzrə fəaliyyətləri zamanı əldə etdikləri irəliləyişlərinin qiymətləndirilməsini və daha yaxşı və sürətli irəliləyişə nail olmaq üçün onların hansı tədbirləri həyata keçirməsinin müəyyənləşdirilməsini təmin edir. Qiymətləndirmə MHŞT-nin Qiymətləndirmə Təlimatında müəyyən olunmuş Qiymətləndirmə cədvəlini (və əlaqədar Qiymətləndirmə Vasitələri Göstəricisi) istifadə etməklə müstəqil qiymətləndirici tərəfindən həyata keçirilir.

2008-ci ildən etibarən ilk olaraq Azərbaycanın qiymətləndirilməsi prosesinə başlanılmışdır. 2008-ci il noyabrın 18-də Azərbaycanda Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə qiymətləndirmə prosesi ilə əlaqədar yaradılmış MHŞT tərəflərini, o cümlədən MHŞT üzrə Hökumət Komissiyasını, Azərbaycanda hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətləri, Mədən Sənayesində Şəffaflığın Artırılması üzrə QHT Koalisiyasını bərabər sayda təmsil edən 9 nəfərdən ibarət İşçi Qrupun iclası keçirilmişdir. MHŞT üzrə Beynəlxalq İdarə Heyəti tərəfindən təyin edilmiş MHŞT-yə qoşulmuş ölkələrdə bu prosesin tətbiqini qiymətləndirmək məqsədilə İşçi Qrup tərəfindən beynəlxalq nüfuzlu 7 şirkət (validator) - Coffey Int. Dev. Ltd., ECON, The IDL Group, Goldwyn Int Strategies, Hart Nurse Limited, Oxford Policy Management, PricewaterhouseCoopers and Accountability arasından Azərbaycanda qiymətləndirmə prosesini həyata keçirəcək şirkətin seçilməsi üçün müsabiqə keçirildi. Müsabiqənin yekunu olaraq təkliflərini təqdim etmiş dörd şirkət - Coffey International Development, Goldwyn International, Hart Group və ECON arasından **Coffey International Development** Azərbaycanda qiymətləndirmə prosesini keçirəcək şirkət olaraq müəyyən edildi.



# DÖVLƏT NEFT FONDUNUN 2008-ci İLDƏ MALİYYƏ FƏALİYYƏTİ HAQQINDA HESABATINA DAİR AUDİTOR ŞİRKƏTİNİN RƏYİ

6

## Müstəqil Auditorların Rəyi

Azərbaycan Respublikası Dövlət Neft Fonduna:

### Maliyyə hesabatları üzrə hesabat

Biz Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra "Fond" adlanacaq) 31 dekabr 2008-ci il tarixinə hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə bitən il üzrə maliyyə nəticələri, pul vəsaitlərinin hərəkəti və xalis aktivlərdə dəyişikliklər haqqında hesabatlardan, habelə əsas mühasibat uçotu qaydalarına dair icmaldan və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

### Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti

Fondun rəhbərliyi bu maliyyə hesabatlarının Mühasiblərin Beynəlxalq Federasiyasının İctimai Sektor üzrə Komitəsi tərəfindən dərc edilən İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları (bundan sonra "İSMUBS" adlanacaq) əsasında hazırlanmasına və düzgün təqdimatına cavabdehdir. Rəhbərliyin məsul olduğu vəzifələrə bunlar daxildir: saxtalaşdırılmaya və mühüm təhriflərə yol vermədən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdimatı üçün daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılması; müvafiq mühasibat uçotu siyasətlərinin seçilməsi və tətbiqi; və şəraitə müvafiq mühasibat qiymətləndirmələrinin həyata keçirilməsi.

### Auditorun məsuliyyəti

Bizim vəzifəmiz apardığımız audit əsasında maliyyə hesabatları haqqında rəy bildirməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun həyata keçirdik. Həmin standartlar tələb edir ki, biz etik tələbləri yerinə yetirməklə yoxlamanın aparılmasını elə planlaşdıraq və həyata keçirək ki, maliyyə hesabatlarında əks etdirilmiş məlumatlarda əhəmiyyətli səhvlərin olmamasına kifayət qədər əmin olaq.

Audit zamanı maliyyə hesabatlarında göstərilən rəqəmləri və açıqlamaları təsdiq edən audit sübutlarının əldə edilməsi üçün prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mühakiməsindən, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı mühüm təhrif risklərinin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin riskləri qiymətləndirərkən, auditor şəraitə münasib olan auditor prosedurlarının planlaşdırılması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi ilə bağlı olan daxili nəzarət sistemini nəzərdən keçirir, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin effektivliyi haqqında rəy bildirmək məqsədini qarşısına qoymur. Audit yoxlamasına həmçinin rəhbərlik tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətlərinin müvafiqliyinin və həyata keçirilmiş mühasibat qiymətləndirmələrinin düzgünlüyünün, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının təhlili daxildir.

Hesab edirik ki, apardığımız audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

### Rəy

Fikrimizcə, bu maliyyə hesabatları 31 dekabr 2008-ci il tarixinə Azərbaycan Respublikası Dövlət Neft Fondunun maliyyə vəziyyətini, həmçinin həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun əks etdirir.

Deloitte & Touche.

14 aprel 2009-cu il
Bakı, Azərbaycan

## 31 dekabr 2008-ci il tarixinə bitən il üzrə Maliyyə Hesabatları

### Maliyyə Vəziyyəti haqqında Hesabat

*(Başqa qeydlər olmadıqda, məbləğlər min Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeydlər* | **31 dekabr 2008–ci il** | **31 dekabr 2007–ci il** |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Qısamüddətli aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | *4, 18* | **472 531** | 316 210 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar | *5* | **8 514 050** | 1 776 219 |
| Avans ödənişləri və digər qısamüddətli aktivlər | *7, 18* | **16 318** | 1 750 |
| **Cəmi qısamüddətli aktivlər** | | **9 002 899** | 2 094 179 |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak və avadanlıq, xalis | *6* | **6 339** | 5 706 |
| Digər uzunmüddətli aktivlər və qeyri-maddi aktivlər | *7* | **883** | 227 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **7 222** | 5 933 |
| **Cəmi aktivlər** | | **9 010 121** | 2 100 112 |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Dövlət Büdcəsinə ödəniləcək vəsaitlər | *8, 18* | **–** | 12 608 |
| Digər qısamüddətli öhdəliklər | *8* | **300** | 27 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **300** | 12 635 |
| **Xalis aktivlər** | | **9 009 821** | 2 087 477 |
| **XALİS AKTİVLƏR / KAPİTAL** | | | |
| Kapital qoyuluşu | *9, 10, 18* | **9 295 958** | 1 948 628 |
| Yenidən qiymətləndirmə ehtiyatı | | **6 044** | 5 314 |
| Yığılmış (kəsir) / əlavə vəsait | | **(292 181)** | 133 535 |
| **Cəmi Xalis Aktivlər / Kapital** | | **9 009 821** | 2 087 477 |

*53-75-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

## Maliyyə Nəticələri haqqında Hesabat

*(Başqa qeydlər olmadıqda, məbləğlər min Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeydlər* | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|---|
| Faiz gəliri | *11* | **240 094** | 77 687 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış maliyyə aktivləri üzrə yaranan mənfəət və ya zərər | *12* | **(8 923)** | (5 402) |
| Xarici valyuta əməliyyatları üzrə xalis məzənnə fərqi | *13* | **(652 646)** | 13 948 |
| **Cəmi əməliyyat (zərəri)/gəliri** | | **(421 475)** | 86 233 |
| **Əməliyyat xərcləri** | *14, 18* | **(4 241)** | (2 663) |
| **Mənfəət vergisindən əvvəl (kəsir)/əlavə vəsait** | | **(425 716)** | 83 570 |
| **Mənfəət vergisi** | *15, 18* | **-** | (13 129) |
| **İl üzrə (kəsir)/əlavə vəsait** | | **(425 716)** | 70 441 |

*53-75-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

## Xalis Aktivlərdə Dəyişikliklər haqqında Hesabat

*(Başqa qeydlər olmadıqda, məbləğlər min Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeydlər* | Daxil olmuş Vəsait / Köçürmələr | Yenidən Qiymətləndirmə Ehtiyatı | Yığılmış artıq vəsait/(kəsir) | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2006-cı il tarixinə qalıq** | | 1 219 687 | 1 488 | 63 094 | 1 284 269 |
| Fonda daxil olmuş vəsaitlər | ***9, 18*** | 1 786 136 | 3 826 | | 1 789 962 |
| Dövr üzrə xalis əlavə vəsait | | | | 70 441 | 70 441 |
| Dövlət Büdcəsinə köçürülmüş vəsaitlər | ***10, 18*** | (585 000) | – | – | (585 000) |
| Dövlət Qaçqınlar Komitəsinə və Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna vəsait köçürmələri | ***10, 18*** | (154 117) | – | – | (154 117) |
| Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10, 18*** | (132 907) | – | – | (132 907) |
| Azəri-Çıraq-Günəşli layihəsində ARDNŞ-in iştirak payı ilə bağlı hesablaşma | ***10, 18*** | (87 559) | – | – | (87 559) |
| Samur Abşeron suvarma sisteminin yenidən qurulması ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10, 18*** | (76 900) | – | – | (76 900) |
| Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10, 18*** | (20 712) | – | – | (20 712) |
| **31 dekabr 2007-ci il tarixinə qalıq** | | **1 948 628** | **5 314** | **133 535** | **2 087 477** |
| Fonda daxil olmuş vəsaitlər | ***9, 18*** | 11 632 316 | 730 | – | 11 633 046 |
| Dövr üzrə xalis əlavə vəsait | | – | – | (425 716) | (425 716) |
| Dövlət Büdcəsinə köçürülmüş vəsaitlər | ***10, 18*** | (3 800 000) | – | – | (3 800 000) |
| Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10, 18*** | (211 820) | – | – | (211 820) |
| Dövlət Qaçqınlar Komitəsinə və Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna vəsait köçürmələri | ***10, 18*** | (144 999) | – | – | (144 999) |
| Samur Abşeron suvarma sisteminin yenidən qurulması ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10, 18*** | (120 600) | – | – | (120 600) |
| Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10, 18*** | (5 271) | – | – | (5 271) |
| Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10, 18*** | (2 296) | – | – | (2 296) |
| **31 dekabr 2008-ci il tarixinə qalıq** | | **9 295 958** | **6 044** | **(292 181)** | **9 009 821** |

*53-75-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

## Xalis Aktivlərdə Dəyişikliklər haqqında Hesabat

*(Başqa qeydlər olmadıqda, məbləğlər min Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeydlər* | 31 dekabr tarixində bitən il üzrə 2008 | 2007 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti:** | | | |
| Mənfəət vergisindən əvvəl (kəsir)/əlavə vəsait | | **(425 716)** | 83 570 |
| Əlavə vəsaiti əməliyyat fəaliyyətindən əldə edilmiş xalis pul vəsaiti ilə üyğunlaşdırmaq üçün edilmiş düzəlişlər: | | | |
| Faiz gəliri | ***11*** | **(240 094)** | (77 687) |
| Əmlak və avadanlığın köhnəlməsi | ***6*** | **170** | 135 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | ***7*** | **40** | 5 |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə məzənnə fərqindən yaranan zərər | ***13*** | **594 226** | 1 193 |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər: | | | |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızların artması | | **(7 159 403)** | (566 405) |
| Avans ödənişlərinin və digər qısamüddətli aktivlərin artması | | **(1 439)** | (678) |
| Digər qısamüddətli öhdəliklərin azalması/ (artması) | | **274** | (484) |
| Alınmış faiz | | **104 635** | 65 899 |
| Ödənilmiş mənfəət vergisi | | **(25 737)** | (521) |
| **Əməliyyat fəaliyyətində istifadə edilən xalis pul vəsaitlər** | | **(7 153 044)** | (494 973) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:** | | | |
| Əmlak və avadanlığın alınması | ***6*** | **(73)** | (67) |
| Qeyri-maddi aktivlərin alınması | ***7*** | **(725)** | (28) |
| Digər uzunmüddətli aktivlər | | **29** | (4) |
| **İnvestisiya fəaliyyətlərində istifadə edilən xalis pul vəsaitlər** | | **(769)** | (99) |

*53-75-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

## Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat

*(Başqa qeydlər olmadıqda, məbləğlər min Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeydlər* | **31 dekabr tarixində bitən il üzrə** | |
|---|---|---|---|
| | | **2008** | **2007** |
| **Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:** | | | |
| Kapital qoyuluşları | ***9*** | **11 632 316** | 1 799 740 |
| Dövlət Büdcəsinə vəsait köçürmələri | ***10*** | **(3 800 000)** | (585 000) |
| Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10*** | **(211 820)** | (132 907) |
| Dövlət Qaçqınlar Komitəsinə və Məcburi köçkünlərin Sosial İnkişaf Fonduna vəsait köçürmələri | ***10*** | **(144 999)** | (154 117) |
| Samur Abşeron suvarma sisteminin yenidən qurulması ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10*** | **(120 600)** | (76 900) |
| Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10*** | **(5 271)** | (20 712) |
| Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı ilə əlaqədar köçürülmüş vəsaitlər | ***10*** | **(2 296)** | – |
| Azəri-Çıraq-Günəşli layihəsində ARDNŞ-in iştirak payı ilə bağlı hesablaşma | ***10*** | **–** | (87 559) |
| **Maliyyə fəaliyyətindən əldə edilmiş xalis pul vəsaitlər** | | **7 347 330** | 742 545 |
| Pul vəsaitlərinə və pul vəsaitlərinin ekvivalentlərinə valyuta məzənnəsindəki dəyişikliklərin təsiri | | **(37 196)** | 1 193 |
| Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması | | **193 517** | 247 473 |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | ***4*** | **316 210** | 69 930 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | ***4*** | **472 531** | 316 210 |

**Əhəmiyyətli qeyri-pul əməliyyatları:**

31 dekabr 2007-ci tarixində bitən il ərzində Fonda yeni inzibati binasının tikilməsi üçün dövlət tərəfindən əvəzsiz olaraq 366 min manat dəyərində torpaq sahəsi verilmişdir.

*53-75-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

## Maliyyə Hesabatlarına Qeydlər

*(Başqa qeydlər olmadıqda, məbləğlər min Azərbaycan manatı ilə ifadə edilmişdir)*

### 1. FOND HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikasının Dövlət Neft Fondu ("Fond") Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 saylı "Azərbaycan Respublikasının Dövlət Neft Fondunun Yaradılması haqqında" Fərmanı (Fərman) ilə yaradılmışdır. Fond, neft və qaz ehtiyatlarının kəşfiyyatı və inkişafına dair müqavilələr çərçivəsində gəlirlərin, digər pul axınlarının, habelə Fondun öz fəaliyyəti nəticəsində əldə edilən gəlirlərin toplanması, səmərəli idarə edilməsi və Azərbaycan Respublikası vətəndaşlarının və gələcək nəsillərin rifahı naminə istifadə edilməsi məqsədilə yaradılmışdır.

Fərmana və əsasnaməyə uyğun olaraq, Fond ayrıca hüquqi şəxs kimi təsis edilmiş büdcədənkənar təşkilat olaraq, Azərbaycan Respublikası Prezidenti qarşısında hesabat verir və məsuliyyət daşıyır.

Fondun vəsaiti Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixli 434 saylı Fərmanı ilə təsdiq edilmiş və "Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən bəzi qanunvericilik aktlarında dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2003-cü il tarixli 849 saylı və 1 mart 2005-ci il tarixli 202 saylı Fərmanlarına əsasən edilmiş əlavə və dəyişikliklər nəzərə alınmaqla Fondun Əsasnaməsinə ("Əsasnamə"), habelə Azərbaycan Respublikası Prezidentinin yuxarıda qeyd edilən 849 və 202 saylı Fərmanları ilə edilmiş əlavə və düzəlişlər nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2001-ci il tarixdə təsdiq olunmuş 579 saylı Fərmanına uyğun olaraq "Fondun illik gəlir və xərclər proqramının (Büdcəsinin) tərtibi və icrası Qaydalarının" 2.3 bəndində göstərilən aşağıdakı mənbələrə əsasən formalaşır:

a) Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ("ARDNŞ") və ya səlahiyyətli dövlət orqanı ilə sərmayəçilər arasında bağlanmış Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan hissəsində neftin və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişlərin, habelə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və nəqlinə dair digər Sazişlərin həyata keçirilməsindən əldə edilən aşağıdakı gəlirlər:
   i) Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (topoqraf), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirləri istisna olmaqla);
   ii) neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilən bonuslar (mükafatlar);
   iii) karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına ödənilən akrhesabı ödənişlər;
   iv) neft-qaz layihələrinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının payına düşən dividendlər və mənfəətin bölüşdürülməsindən əldə edilən gəlirlər (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);
   v) neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum ixrac boru kəmərləri vasitəsi ilə ötürülməsindən əldə edilən gəlirlər;
   vi) neft-qaz sazişləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən verilən aktivlərdən əldə edilən gəlirlər.

b) Neft Fondu tərəfindən Fondun vəsaitinin (aktivlərinin) (o cümlədən, maliyyə aktivlərinin və neft-qaz sazişləri çərçivəsində sərmayəçilərin verdiyi aktivlərinin) yerləşdirilməsindən, idarə olunmasından, satışından və ya digər təqdim edilməsindən və yaxud satışdankənar əldə edilən gəlirlər, aktivlərinin hesabat valyutasında (Azərbaycan manatı) yenidən qiymətləndirilməsindən alınan gəlirlər və sair.

c) Qrantlar və digər təmənnasız yardımlar.

d) Azərbaycan qanunvericiliyinə uyğun olaraq digər gəlirlər və daxilolmalar.

Fondun Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş Əsasnaməsinə uyğun olaraq, ARDNŞ və ya səlahiyyətli hökumət orqanı yuxarıda göstərilən vəsaitlərin və gəlirlərin yığılmasını və Fonda köçürülməsini həyata keçir.

Qaydalara əsasən, Fondun gəlir və aktivlərinin mənbələri siyahısından aşağıdakılar istisna olunmuşdur:

- xarici şirkətlərlə bağlanmış müqavilələr çərçivəsində dövlət əmlakından istifadə üçün icarə haqqı;
- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) sərmayəçi, iştirakçı və ya saziş bağlayan tərəf olan layihədə ARDNŞ-nin iştirak payı və ya sərmayəsi ilə bağlı karbohidrogen satışından əldə edilən gəlirləri;
- xarici şirkətlərlə birgə fəaliyyət nəticəsində əldə edilən digər gəlirlər.

2008-ci il ərzində Dövlət Büdcəsinə, habelə dövlət təşkilatlarına, dövlətə məxsus müəssisələrə və şirkətlərə köçürmələr "2008-ci il Dövlət Büdcəsi" haqqında 30 noyabr 2008-ci il tarixli Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin təsdiqi" haqqında Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanına, "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il büdcəsinin icrası ilə bağlı bəzi tədbirlər" haqqında Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2007-ci il tarixli 2582 saylı Sərəncamına, "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il büdcəsinə dəyişiklər və əlavələr edilməsi" haqqında 11 iyul 2008-ci il tarixli 802 saylı Fərmanına və "Azərbaycan Respublikasının 2008-ci il Dövlət Büdcəsi haqqında Azərbaycan Respublikası qanununa dəyişiklər edilməsi" barədə 2 may 2008-ci il tarixli Azərbaycan Respublikasının qanuna uyğun olaraq həyata keçirilir.

2008-ci ildə Fond aşağıdakı maliyyə qurumları ilə vəsaitlərin saxlanılmasına dair bir Bank of Nyu York Mellon (2007-ci ildə iki Bank of Nyu York Mellon və Klariden Leu Ltd) və investisiyaların idarə edilməsi haqqında üç Deutsche Asset Management, Klariden Leu Ltd. və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankında (İBRD - Dünya Bankı) (2007-cı ildə üç Deutsche Asset Management, Klariden Leu Ltd. və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankında.) sazişə tərəf olmuşdur. Vəsaitlərin saxlanılmasına dair sazişlər əsasında maliyyə qurumları Fondun aldığı qiymətli kağızları saxlayır və investisiyaların idarə edilməsi haqqında sazişlərə uyğun olaraq Fondun vəsaitlərini Fondun qəbul etdiyi ümumi investisiya qaydaları əsasında idarə edir.

Fondun ofisinin qeydiyyatdan keçdiyi ünvan: Bülbül prospekti 20, Bakı şəh., AZ1014 Azərbaycan.

31 dekabr 2008-ci il tarixində bitən il üzrə Fondun maliyyə hesabatlarının buraxılması 14 aprel 2009-cu il tarixində Fondun rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

## 2. TƏQDİMATIN ƏSASI

Fondun maliyyə hesabatları Beynəlxalq Mühasiblər Federasiyasının İctimai Sektor Komitəsi tərəfindən nəşr olunmuş İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (İSMUBS) uyğun olaraq hazırlanmışdır. İSMUBS Maliyyə Hesabatının Beynəlxalq Standartlarını (MHBS) ictimai sektora uyğunlaşdırmaqla hazırlanmışdır. MHBS Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən təsdiq olunan standartlardan və şərhlərdən, eləcə də, Beynəlxalq Mühasibat Uçotu Standartlarının Komitəsi tərəfindən təsdiq olunmuş MHBS və Daimi Şərhlər Komitəsinin şərhlərindən ibarətdir. İctimai sektor dedikdə, milli, regional və yerli idarəçilik orqanları və müvafiq hökumət strukturları nəzərdə tutulur.

İSMUBS-da icazə verildiyindən, Fond ekvivalent İSMUBS olmadıqda, MHBS-in müddəalarını tətbiq edir.

Bu maliyyə hesabatları başqa qeydlər olmazsa, min Azərbaycan manatı ilə təqdim olunmuşdur. Bu maliyyə hesabatları "Əmlak, tikili və avadanlıq" haqqında 17 saylı İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına ("İSMUBS") uyğun olaraq bəzi maliyyə alətlərinin ədalətli dəyəri ilə qiymətləndirilməsi və binaların yenidən qiymətləndirilən məbləğlərlə ölçülməsi istisna olmaqla, ilkin dəyər prinsipi əsasında hazırlanmışdır.

### *Əməliyyat valyutası*

Fondun maliyyə hesabatlarınına daxil edilən maddələr Fonda (bundan sonra "Əməliyyat valyutası") aid olan hadisə və şəraitlərin iqtisadi mahiyyətini ən yaxşı şəkildə əks etdirən valyutanı istifadə etməklə qiymətləndirilir. Fondun vəsaitlərinin və gəlirinin əksər hissəsinin xarici valyuta ilə ifadə edilməsinə baxmayaraq onun əməliyyat valyutası Azərbaycan manatıdır, çünki, bütün xərclər və köçürmələr manat ilə çəkilir və qiymətləndirilir və Fondun maliyyə nəticəsi manatla ölçülmüş illik büdcə ilə müqayisə olunur.

## 3. ƏSAS MÜHASİBAT UÇOTU QAYDALARI

### *Maliyyə alətlərinin tanınması və ölçülməsi*

Fond maliyyə aktivlərini və maliyyə öhdəliklərini müvafiq maliyyə aləti ilə bağlı müqaviləyə tərəf olduğu zaman maliyyə vəziyyəti haqqında hesabatda əks etdirir. Maliyyə aktivlərinin alışı və yaxud satışı alqı-satqı tarixi əsasında əks olunur (Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının 13 iyun 2007-ci il tarixli 32 saylı Qərarı). Alqı-satqı tarixi dedikdə Fondun alış və satış aparmaq öhdəliyi daşıdığı tarix nəzərdə tutulur.

Maliyyə aktivləri və öhdəlikləri ilk olaraq ədalətli dəyərlə göstərilir. Maliyyə aktivi və ya öhdəliyin mənfəət və ya zərərdə ədalətli dəyərlə göstərilmədikdə isə, ilkin dəyər maliyyə aktivinin alınması və ya maliyyə öhdəliyinin buraxılması ilə birbaşa bağlı olmayan əməliyyat xərclərinə düzəliş edilir. Bu maddələrin daha sonra yenidənqiymətləndirmə üçün mühasibat qaydaları aşağıda müvafiq hissələrdə açıqlanır.

### *Pul vəsaitləri və onların ekvivalentləri*

Pul vəsaitləri və onların ekvivalentləri kassada olan pul vəsaitlərindən, ödəmə müddəti maliyyə hesabatlarının tarixindən üç ay ərzində tamamlanan və qısamüddətli depozitlər, eləcə də ödəmə müddəti üç ay və ya daha az olan, müəyyən pul məbləğinə çevrilə bilən və dəyərinin dəyişməsi riski cüzi olan yüksək likvidli inves-

tisiyalardan ibarətdir. Kassada və banklarda olan pul vəsaitləri və depozitlər ilkin dəyərə faiz əlavə olunmaqla əks etdirilir.

***Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar***

Fərqi gəlirlərdə və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlara (1) yaxın gələcəkdə yenidən satılmaq məqsədilə alınmış qiymətli kağızlar; (2) birgə idarəolunan və qısa bir müddətdə gəlir əldə etmək qabiliyyətinə malik olmasını doğruldan maliyyə alətləri portfelinin bir hissəsi olan qiymətli kağızlar və ya (3) ilkin tanınma zamanı Fond tərəfindən fərqi gəlirlərdə və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar daxildir. Ticarət məqsədilə saxlanılan maliyyə aktivlərindən başqa maliyyə aktivləri aşağıdakı hallarda ilkin tanınma zamanı fərqi gəlir və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış maliyyə aktivi kimi müəyyən edilə bilər: (1) bu cür anlayış əks halda yarana bilən ölçülmə və tanınma ardıcıllığını aradan qaldırır və ya əhəmiyyətli dərəcədə azaldırsa; və ya (2) maliyyə aktivləri və ya maliyyə öhdəliklərini qrupundan və ya onların hər ikisindən ibarət olur, Fondun risklərin idarə edilməsi və ya investisiya strategiyası haqqında rəsmi qaydalarına uyğun olaraq ədalətli dəyər prinsipi ilə idarə olunur və fəaliyyəti qiymətləndirilir və təşkilat daxilində bu cür qruplaşdırma haqqında məlumat həmin əsasda təqdim olunur; və ya (3) maliyyə aktivi bir və ya daha çox törəmə maliyyə aktivlərinin bir hissəsini təşkil edir və MUBS 39 "Maliyyə Alətləri - Tanınma və Ölçülmə" bütün müqavilənin (aktivlər və ya öhdəliklər) fərqi gəlirlərdə və ya xərclərdə ədalətli dəyəri göstərilən müqavilə kimi müəyyən edilməsinə icazə verir.

Fərqi gəlirlərdə və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış maliyyə aktivləri ilk olaraq tanınır və daha sonra ədalətli dəyəri ilə qiymətləndirilir. Fond fərqi gəlirlərdə və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış maliyyə aktivlərini müəyyən etmək üçün açıq bazar qiymətlərindən istifadə edir. Fond fərqi gəlirlərdə və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış maliyyə aktivləri üzrə ədalətli dəyərə edilən düzəlişlər dövr üzrə maliyyə nəticələri haqqında hesabatda əks olunur. Fond sahib olduğu bu maliyyə aktivlərini dövr ərzində bu kateqoriyaya və ya bu kateqoriyadan başqasına yenidən təsnifləşdirmir.

***Maliyyə aktivlərinin tanınmasının dayandırılması***

Maliyyə aktivlərinin (və ya müvafiq olduqda maliyyə aktivlərinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) tanınması aşağıdakı hallarda dayandırılır

- Pul vəsaitlərinin və ya aktivin əldə edilməsi hüquqları başa çatdıqda;
- Fond aktivlərdən pul vəsaitlərini əldə etmək hüququnu ötürdükdə və ya aktivdən pul vəsaitləri əldə etmək hüququnu saxladıqda, lakin "ötürmə" müqaviləsi üzrə üçüncü tərəfə əhəmiyyətli gecikməyə yol vermədən tam ödəniş aparmaq öhdəliyini öz üzərinə götürür; və
- Fond ya (a) aktivlə bağlı bütün əhəmiyyətli riskləri və mükafatları ötürmüşdür, və ya b) aktivlə bağlı bütün mühüm riskləri ötürməmiş və özündə saxlamamış, yalnız aktivlər üzrə nəzarəti köçürmüşdür.

Maliyyə aktivinin tanınması maliyyə aktivi ötürüldükdə və ya tanınmanın dayandırılması üçün tələblər yerinə yetirildikdə dayandırılır. Ötürmə Fonddan ya: (a) aktivlə bağlı vəsaitin əldə edilməsi üçün müqavilə hüquqlarını ötürməyi; və ya (b) aktivlə bağlı pul vəsaitləri üçün hüquqları özündə saxlamağı, lakin, bu pul vəsaitlərinin üçüncü tərəfə ödənilməsi ilə bağlı müqavilə öhdəliklərini öz üzərinə götürməyi tələb edir. Ötürmədən sonra, Fond ötürülmüş aktiv üzrə saxladığı riskləri və sahibolma mənfəətini yenidən qiymətləndirir. Əgər risklərin və mənfəətin əsas hissəsi saxlandıqda aktiv maliyyə vəziyyəti haqqında hesabatda qalır. Əgər bütün risklər və mənfəətlər ötürülübsə bu halda aktiv silinir. Əgər bütün risklər və mənfəət saxlanmayıb və ötürülməyibsə, Fond aktiv üzrə nəzarətin saxlanıb saxlanılmadığını qiymətləndirir. Əgər nəzarət saxlanılmayıbsa, aktiv silinir. Fond aktiv üzrə nəzarəti saxladıqda isə aktivi öz iştirakı dərəcəsində tanımaqda davam edir.

***Əmlak və avadanlıq***

Fondun əmlak və avadanlığı əsasən inzibati məqsədlər üçün saxlanılan, faydalı istismar müddəti bir hesabat dövründən çox olan və qiyməti 100 manatdan yuxarı olan maddi aktivlərdir.

Əmlakın və avadanlığın köhnəlməsi onların balans dəyərindən tutulur və onların faydalı istismar müddətləri üzrə silinir. Köhnəlmə aşağıdakı illik faiz dərəcələrini istifadə etməklə bərabər hissələrlə köhnəlmə metodu əsasında hesablanır:

| | **İllər** |
|---|---|
| Binalar | **50** |
| Nəqliyyat vasitələri | **7** |
| Ofis avadanlığı | **4** |
| Mebel | **5** |
| Digər əsas vəsaitlər | **3** |

Əmlak və avadanlığın balans dəyərləri onların bərpa dəyərlərindən artıq dəyərlə uçota alınıb-alınmadığını qiymətləndirmək üçün hər balans hesabatı tarixində nəzərdən keçirilir. Bərpa dəyəri aktivin satış xərclərini çıx-

maqla ədalətli dəyəri və istifadə dəyəri arasındakı ən yüksək məbləğdir. Balans dəyəri hesablanmış bərpa dəyərindən artıq olduğu halda, aktivlərin dəyəri bərpa dəyərinədək azaldılır, qiymətdən düşmə müvafiq dövrdə tanınır və əməliyyat xərclərinə daxil edilir. Qiymətdən düşmə zərəri qeydə alındıqdan sonra əmlak və avadanlığın köhnəlmə xərclərinə qalıq dəyərini çıxaraq gələcək dövrlərdə aktivlərin balans dəyərini qalan faydalı istismar müddətlərinə bərabər şəkildə bölmək üçün (əgər varsa) düzəliş edilir.

İnzibati məqsədlər üçün saxlanılan tikililər maliyyə nəticələrinə dair hesabatda yenidənqiymətləndirmə məbləği ilə əks olunur ki, bu da qiymətdən düşmə nəticəsində yığılan hər hansı köhnəlmə və zərərləri çıxmaqla yenidənqiymətləndirmə tarixinə onun ədalətli dəyərini əks etdirir və peşəkar müstəqil qiymətləndiricilərin əldə etdiyi bazar məlumatı əsasında müəyyən edilir. Yenidənqiymətləndirmə mütəmadi qaydada aparılır ki, balans dəyəri maliyyə vəziyyəti haqqında hesabat tarixində ədalətli dəyəri istifadə etməklə müəyyən edilən balans dəyərindən əsaslı surətdə fərqlənməsin.

Yenidən qiymətləndirmə nəticəsində bu cür binaların yenidənqiymətləndirmə dəyərinin artması əsas vəsaitlərin yenidən qiymətləndirmə ehtiyatının kreditinə yazılır lakin, əvvəllər xərc kimi tanınmış eyni aktiv üzrə yenidən qiymətləndirmə azalmasının bərpa edildiyi hal istisna təşkil edir, bu halda dəyərin artması əvvəllər hesablanmış azalma həcmində maliyyə nəticələri haqqında hesabatın kreditinə yazılır. Belə binaların yenidən qiymətləndirilməsi nəticəsində aktivin balans dəyərində yaranan azalma həmin aktivin əvvəlki yenidən qiymətləndirməsi nəticəsində yaranmış qalıqdan, əgər varsa, artıq olduğu məbləğdə xərc kimi tanınır.

Yenidən qiymətləndirilmiş binaların köhnəlməsi maliyyə nəticələri haqqında hesabata daxil edilir. Yenidən qiymətləndirilən əmlakın istismardan çıxması zamanı əmlak və avadanlığın yenidənqiymətləndirmə ehtiyatında qalan əlavə vəsait birbaşa bölüşdürülməmiş mənfəət hesabına köçürülür.

Əmlakın bazar dəyəri aşağıdakı 3 metodu istifadə etməklə qiymətləndirilir:

- Analoji daşınmaz əmlakın bazarda satış qiymətləri ilə bağlı təhlillər aparılan müqayisəli satış metodu;
- Əmlakdan əldə olunmuş gəlirlə onun bazar dəyəri arasındakı birbaşa əlaqəni nəzərdə tutan gəlir metodu;
- Hər hansı köhnəlmə xərcləri çıxılmaqla əmlakın dəyərinin onun bərpa dəyərinə bərabər olmasını nəzərə tutan xərc metodu.

***Vergi***

Mənfəət vergisi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmini əks etdirir.

Cari vergi xərcləri il üzrə vergiyə cəlb olunan mənfəətə əsaslanır. Vergiyə cəlb olunan mənfəət maliyyə nəticəsi haqqında hesabatda göstərilən vergidən əvvəlki xalis mənfəətdən fərqlənir, çünki vergiyə cəlb olunan mənfəətə digər illərdə vergiyə cəlb olunan və ya tutulan gəlir və xərc maddələri daxil deyil, bundan əlavə o, heç vaxt vergiyə cəlb olunmayan və vergi tutulmayan maddələri özündə birləşdirmir. Fondun cari vergi xərcləri hesabat dövründə qüvvədə olan vergi dərəcələrini istifadə etməklə hesablanır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodunu istifadə etməklə balans hesabatı tarixində aktiv və öhdəliklərin vergi bazası ilə maliyyə hesabatı məqsədləri üçün onların balans dəyəri arasındakı bütün fərqlər üzrə ödənilir və ya təmin edilir. Təxirə salınmış vergi öhdəlikləri tutulan bütün müvəqqəti fərqlər və istifadə olunmayan vergi zərərinin gələcək dövrlərə keçirilməsi üçün tanınır. Təxirə salınmış vergi aktivləri tutulmalı müvəqqəti fərqlərə və istifadə olunmayan vergi zərərinin gələcək dövrlərə keçirilməsinə qarşı yaranması ehtimal edilən vergiyə cəlb olunan mənfəət həcmində tanınır. Əgər qudvildən və ya digər aktiv və öhdəliklərin (biznes birləşməsindən başqa) ilkin tanınmasından yaranan müvəqqəti fərqlər vergi və ya maliyyə nəticələrinə təsir etmirsə belə aktiv və öhdəliklər tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər balans hesabatı tarixində nəzərdən keçirilir və təxirə salınmış vergi aktivlərinin tam və ya qismən bərpası üçün vergiyə cəlb edilən mənfəətin kifayət qədər olmayacağı ehtimal edilən həcmdə azaldılır.

Təxirə salınmış vergilər aktivlərin satıldığı və ya öhdəliklər üzrə hesablaşmanın aparıldığı dövrdə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə ölçülür. Təxirə salınmış vergilər maliyyə nəticəsi haqqında hesabatda əks olunur, lakin onların kapitala aid olan maddələrlə bağlı olduğu hallar istisnadır belə ki, bu halda təxirə salınmış vergilər də kapitalın tərkibində göstərilir.

Təxirə salınmış mənfəət vergisi aktivləri və təxirə salınmış mənfəət vergisi öhdəlikləri aşağıdakı hallarda əvəzləşdirilir və maliyyə vəziyyəti haqqında hesabatda əks olunur:

- Fond cari mənfəət vergisi aktivlərini cari mənfəət vergisi öhdəliklərinə qarşı əvəzləşdirmək hüququna malik olduqda; və
- Təxirə salınmış mənfəət vergisi aktivləri və təxirə salınmış mənfəət vergisi öhdəlikləri eyni vergi orqanı tərəfindən eyni vergi subyektindən tutulan mənfəət vergisinə aid olduqda.

***Şərti aktivlər və öhdəliklər***

Şərti öhdəliklər onlarla bağlı hesablaşma üçün maliyyə vəsaitlərinin ötürülməsi ehtimalı az olduqda maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin açıqlanır. Şərti aktivi isə iqtisadi mənfəətin əldə edilməsi ehtimalı çox olduqda maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin açıqlanır.

***Xalis aktivlər/Kapital***

1-ci Qeyddə müzakirə olunduğu kimi, Fərmana və Əsasnaməyə uyğun olaraq, Fond büdcədənkənar təşkilatdır. Fonda daxil olan və Fonddan köçürülən vəsaitlərlə əlaqədar bütün qərarlar onun yeganə mülkiyyətçisi tərəfindən yerinə yetirilir. Fondun daxilolmaları/köçürmələri mülkiyyətçinin kapital qoyuluşlarını/çıxarışlarını əks etdirir və müvafiq olaraq, alınmış/ödənilmiş vəsaitlərin ədalətli dəyəri ilə xalis aktivlərdə qeyd olunur.

Dövlət Büdcəsinə köçürmələr, habelə hökumət idarələri, hökumətə məxsus müəssisə və şirkətlərə köçürmələr Fond tərəfindən ödəniş tarixində tanınır. Bütün köçürmələr Fondun təsdiq olunmuş büdcəsi çərçivəsində həyata keçirilir və büdcə ilə nəzərdə tutulmuş müvafiq benefisiarlara (dövlət təşkilatları, hökumətə məxsus müəssisə və şirkətlər) təqdim etdikləri sifariş məktublarının əsasında ödənilmək üçün Dövlət Xəzinədarlığına köçürülür.

***Pensiya və işçilər üçün digər müavinət öhdəlikləri***

Fondun Azərbaycan Respublikasının Dövlət pensiya sistemindən ayrı pensiya razılaşmaları yoxdur hansı ki, işəgötürən tərəfindən edilən cari ödənişlərin hazırkı ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmasını tələb edir. Belə xərclər müvafiq əmək haqlarının qazanıldığı dövrdə tutulur. Bundan əlavə, Fond pensiya ilə bağlı müavinətləri və ya hesablanmalı olan digər əvəzi ödənilən müavinətləri ödəmir.

***Gəlir və xərclərin əks etdirilməsi***

Faiz gəliri effektiv faiz metodunu istifadə etməklə hesablama metodu əsasında tanınır. Effektiv faiz metodu maliyyə aktivlərinin (və ya maliyyə aktivlərinin qrupunun) amortizasiya xərclərinin hesablanması və faiz gəlirinin aidiyyatı dövrlər üzrə paylanması metodudur. Effektiv faiz dərəcəsi hesablanmış gələcək pul ödənişlərini və ya daxilolmalarını maliyyə alətinin gözlənilən faydalı istismar müddəti üzrə və ya müvafiq olduqda, daha qısa müddətdə maliyyə aktivinin xalis balans dəyəri üzrə dəqiq diskontlaşdıran dərəcədir.

Qiymətdən düşmə zərəri nəticəsində maliyyə aktivi və ya oxşar maliyyə alətləri qrupu (qismən qiymətdən düşdükdə) qiymətdən düşdükdə, faiz gəliri qiymətdən düşmə zərərini müəyyən etmək məqsədilə gələcək nağd pul vəsaitlərini diskontlaşdırmaq üçün istifadə olunan faiz dərəcəsi əsasında tanınır.

Ədalətli dəyərlə göstərilən aktivlər üzrə qazanılan faizlər faiz gəliri kimi təsnifləşdirilir.

Xərclər hesablama metodu ilə, yəni, çəkildiyi zaman tanınır.

***Xarici valyutaya köçürmə***

Fondun maliyyə hesabatları onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitdəki valyuta (onun əməliyyat valyutası) ilə təqdim edilir. Fondun maliyyə hesabatlarını hazırlayarkən Fondun əməliyyat valyutasından başqa valyuta (xarici valyutalar - əsasən ABŞ dolları və Avro) ilə ifadə olunmuş pul aktivləri və öhdəlikləri hesabat tarixinə qüvvədə olan müvafiq mübadilə məzənnələrini istifadə etməklə əməliyyat valyutasına keçirilir. Əməliyyat valyutasından başqa valyuta ilə aparılan əməliyyatlar əməliyyat tarixinə qüvvədə olan mübadilə məzənnələrini istifadə etməklə qeydə alınır. Bu əməliyyatlardan yaranan mənfəət və ya zərərlər xarici valyuta əməliyyatları üzrə xalis gəlirə daxil edilir.

Manat Azərbaycan Respublikası ərazisindən kənarda tam sərbəst mübadilə olunan valyuta deyildir. Azərbaycan Respublikasında rəsmi mübadilə məzənnəsi Azərbaycan Respublikasının Milli Bankı tərəfindən gündəlik müəyyən olunur. Dünya bazarındakı xarici valyutanın mübadilə məzənnəsi rəsmi məzənnələrdən fərqlənə bilər lakin bu fərqlər, ümumilikdə Azəbaycan Respublikası Milli Bankının nəzarətindədir.

***Mübadilə məzənnəsi***

Fond ilin sonuna maliyyə hesabatlarının tərtib olunması zamanı aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| | **31 dekabr 2008-ci il** | **31 dekabr 2007-ci il** |
|---|---|---|
| Manat/1 ABŞ dolları | **0,8010** | 0,8453 |
| Manat/1 Avro | **1,1292** | 1,2450 |
| Manat/1 BBF | **1,1621** | 1,6876 |

***Maliyyə aktivlərinin və öhdəliklərinin əvəzləşdirilməsi***

Fond qeydə alınmış məbləğləri əvəzləşdirmək üçün hüquqi qüvvəyə malik olduqda və ya Fond aktivlərini satmaq və ya eyni zamanda öhdəliklər üzrə hesablaşma aparmaq, yaxud da hər ikisi üzrə xalis əsasda hesablaşma aparmaq niyyətində olduqda maliyyə aktivləri və öhdəlikləri əvəzləşdirilir və maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğlə qeyd olunur. Silinməsinə icazə verilməyən maliyyə aktivinin köçürülməsini uçota alarkən Fond köçürülmüş aktivi və ya onunla əlaqəli öhdəliyi əvəzləşdirmir.

***Rəhbərliyin mühüm mühakimələrini tələb edən sahələr və qeyri-müəyyənliyin qiymətləndirilməsi mənbələri***

Fondun maliyyə hesabatlarının hazırlanması rəhbərlik tərəfindən balans hesabatı tarixinə aktiv və öhdəliklərin hesabat olunmuş məbləğlərinə və həmin tarixdən bitən il üzrə gəlir və xərclərin hesabat olunmuş məb-

ləğlərinə təsir edən qiymətləndirmələrin və mühakimələrin aparılmasını tələb edir. Rəhbərlik öz qiymətləndirmələrini və mühakimələrini davamlı olaraq nəzərdən keçirir. Rəhbərlik öz qiymətləndirmə və mühakimələrində təcrübəsinə və şəraitə müvafiq hesab edilən digər faktorlara əsaslanır. Müxtəlif fərziyyələrdən və ya şəraitlərdən asılı olaraq faktiki nəticələr həmin qiymətləndirmələrdən fərqlənə bilər. Aşağıdakı qiymətləndirmələr və mühakimələr Fondun maliyyə vəziyyətinin təsvir edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

*Maliyyə alətlərinin qiymətləndirilməsi*

Satıla bilən kimi təsnifləşdirilən maliyyə alətləri ədalətli dəyərlə göstərilir. Bu cür maliyyə alətlərinin ədalətli dəyəri alətin məcburi və ya likvidasiya satışından başqa, könüllü tərəflər arasında aparılan cari əməliyyat nəticəsində mübadilə edildiyi məbləğdir. Əgər alətin bazar dəyəri açıqlanmışdırsa, onun ədalətli dəyəri bazar qiymətinə əsaslanmaqla hesablanır. Bazarda qiymətləndirmə parametrlərini müşahidə etmək mümkün olmadıqda və ya müşahidə edilən bazar qiymətlərinə istinad etmək mümkün olmadıqda, ədalətli dəyər hər bir məhsul üçün uyğun olan digər bazar məlumatını və qəbul edilmiş maliyyə nəzəriyyələrindən əsaslandığımız riyazi metodologiyanı istifadə edən qiymətləndirmə modelini təhlil etməklə əldə olunur. Qiymətləndirmə modelləri qiymətli kağızların müqavilə şərtlərini, habelə bazara əsaslanan qiymətləndirmə parametrlərini (məs, faiz dərəcələri, dəyişkənlik, mübadilə məzənnələri və partnyorların kredit reytinqi) nəzərə alır. Bazara əsaslanan qiymətləndirmə parametrlərini birbaşa müşahidə etmək mümkün olmadıqda, rəhbərlik həmin parametrin ən yaxşı qiymətləndirmə metodu ilə bağlı qərar qəbul edəcək ki, alətin bazarda qiymətləndirilməsini düzgün əks etdirə bilsin. Bu mühakimələri yerinə yetirərkən, müxtəlif vasitələrdən o cümlədən, müşahidə edilən məlumatın etibarlılığından, tarixi məlumatdan və ekstrapolyasiya vasitələrindən istifadə olunur. Alət bazarda müşahidə olunan məlumatla müqayisə edilməklə təsdiq olunduqda ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyərinin qiymətləndirməsi üçün ən yaxşı sübut əməliyyat qiyməti olur. Qiymətləndirmə mexanizminə əsaslanmaqla əməliyyat qiyməti ilə dəyər arasındakı hər hansı fərq maliyyə vəziyyəti haqqında hesabata ilkin tanınma üzrə daxil edilmir. Sonrakı gəlirlər və ya zərərlər bazar iştirakçılarını qiymət təyin edərkən nəzərdən keçirə biləcəyi faktordakı dəyişikliklərin nəticəsi həcmdə tanınır.

Fond elan olunmuş bazar qiymətləri olmayan maliyyə alətlərinin qiymətləndirilməsi ilə bağlı mühasibat proqnozunu aşağıdakı səbəblərdən qeyri-müəyyənliyin əsas mənbəyi hesab edir: (i) onlar dövrdən-dövrə dəyişməyə çox həssasdırlar belə ki, bu rəhbərliyin faiz dərəcələri, dəyişiklik, mübadilə məzənnələri, partnyorun kredit reytinqi, qiymətləndirmə düzəlişləri və əməliyyatın spesifik xüsusiyyəti ilə bağlı fərziyyələr irəli sürməsini tələb edir və (ii) qiymətləndirmələrdəki dəyişikliyin tanınmasından irəli gələn təsirin Fondun maliyyə vəziyyəti eləcə də mənfəət/(zərər) hesabında açıqlanan aktivlərinə əhəmiyyətli olması ehtimal edilir.

Rəhbərlik faiz dərəcələri, dəyişkənlik, mübadilə məzənnələri, partnyorun kredit reytinqi, qiymətləndirmə düzəlişləri ilə bağlı müxtəlif fərziyyələrdən istifadə edərsə, elan edilmiş bazar qiyməti olmayan maliyyə alətlərinin qiymətləndirilməsində kiçik və ya böyük dəyişiklik Fondun hesabat olunan xalis gəlirinə əhəmiyyətli təsir ilə nəticələnə bilər.

Ədalətli dəyərlə göstərilən maliyyə alətlərinin balans dəyəri 31 dekabr 2008 və 2007-ci il tarixlərinə müvafiq olaraq 8 514 050 manat və 1 776 219 manat olmuşdur.

***Yeni və düzəliş edilmiş standartların qəbul edilməsi***

Bu il Fond öz əməliyyatlarına uyğun olan və 31 dekabr 2008-ci il tarixdə bitən illik hesabat dövrlərinə aid olan Beynəlxalq Mühasiblər Federasiyasının İctimai Sektor Komitəsi tərəfindən buraxılmış bütün yeni və düzəliş edilmiş İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarını (İSMUBS) və Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) və Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən buraxılmış Şərhləri qəbul etmişdir. Yeni və düzəliş edilmiş Standartların və Şərhlərin qəbul edilməsi Fondun mühasibat uçotu siyasətlərində mühüm dəyişikliklərə səbəb olmadığından bu il və keçən illərdə hesabat olunan məbləğlərə təsir etməmişdir.

"Maliyyə Alətləri: Tanınma və Ölçülmə" haqqında MUBS 39-a və "Maliyyə Alətləri: Açıqlamalar" haqqında MHBS 7-yə "Maliyyə Alətlərinin yenidən təsnifləşdirməsi" adı altında düzəlişlər - 13 oktyabr 2008-ci il tarixdə MUBSŞ MUBS 39 və MHBS 7-yə düzəlişləri açıqlamışdır. Bu düzəlişlərə əsasən mənfəət və zərər hesabında ədalətli dəyərlə qiymətləndirilən qeyri-törəmə maliyyə aktivləri (ilkin tanınma zamanı mənfəət və zərər hesabında ədalətli dəyərlə göstərilən maliyyə aktivi kimi əks etdirilənlərdən başqa) üzrə müəyyən yenidən təsnifləşdirmələrin aparılmasına, eləcə də maliyyə aktivlərinin xüsusi hallarda satış üçün saxlanılan kateqoriyadan kreditlər və debitor borclar kateqoriyasına yenidən təsnifləşdirilməsinə icazə verilir. MHBS 7-yə düzəlişlər müəssisə maliyyə aktivlərini MUBS 39-un düzəlişlərinə uyğun olaraq yenidən təsnifləşdirdiyi hallarda maliyyə hesabatlarında bununla bağlı əlavə açıqlamanın verilməsini tələb edir. Düzəlişlər 13 oktyabr 2008-ci il tarixdən qüvvədədir və müəyyən hallarda 1 iyul 2008-ci il tarixdən geriyə şamil oluna bilər. Fond MUBS 39 və MHBS-yə edilən düzəlişləri qəbul etməmək qərarına gəlmişdir.

İSMUBS 22 - 2006-cı ilin dekabr ayında çap olunmuş "Ümumi dövlət sektoru barədə maliyyə məlumatının açıqlanması". Bu standartın məqsədi konsolidə edilmiş maliyyə hesabatlarında ümumi dövlət sektoru ("ÜDS") haqqında məlumatı təqdim etmək istəyən hökumətlər üçün açıqlama tələblərini müəyyən etməkdir. Dövlətin

ÜDS-i haqqında məlumatın açıqlanması maliyyə hesabatlarında şəffaflığı gücləndirə bilər, bazar və qeyri-bazar əməliyyatları arasında və maliyyə hesabatları arasında və maliyyə hesabatının statistik bazaları əsasında əlaqələrin daha yaxşı anlaşılmasına yardımçı olur. İSMUBS 22-nin qəbul edilməsi Fondun maliyyə hesabatlarına heç bir təsir etməyəcəkdir.

***Buraxılmış lakin hələ qüvvəyə minməmiş standartlar və şərhlər***

Bu maliyyə hesabatlarının təsdiq olunması tarixinə, qüvvəyə minmə tarixindən əvvəl Fond tərəfindən qəbul edilmiş standartlardan və şərhlərdən başqa, aşağıdakı şərhlər buraxılmış lakin qüvvəyə minməmişdir.

İSMUBS 4 - "Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" 2008-ci ilin aprel ayında nəşr olunub. Bu standartda xarici valyuta əməliyyatlarının və xarici əməliyyatların maliyyə hesabatına daxil edilməsi metodları, habelə maliyyə hesabatlarının təqdimat valyutasına keçirilməsi yolları açıqlanır. İSMUBS 4-ə texniki yeniliklər dövlət sektorunda fəaliyyət göstərən müəssisələr üçün xarici valyuta əməliyyatlarını və qalıqlarını onların hesabat valyutasına konvertasiya etmək tələblərini aydınlaşdırır. Bu standart 1 yanvar 2010-cu il tarixdən və ya həmin tarixdən sonrakı dövrlər üzrə qüvvədədir. Hazırda rəhbərlik qəbul edildiyi halda İSMUBS 4-ün Fonda edəcəyi təsiri qiymətləndirir.

İSMUBS 25 - "İşçilərin mükafatları" 2008-ci ilin fevral ayında nəşr olunub. Bu standartın məqsədi işçilərin mükafatlandırılması ilə bağlı uçot və açıqlamanı şərh etməkdir. Bu standart 1 yanvar 2011-ci il tarixdən və ya həmin tarixdən sonrakı dövrlər üzrə qüvvədədir. Hazırda rəhbərlik qəbul edildiyi halda İSMUBS 22-nin Fonda edəcəyi təsiri qiymətləndirir.

İSMUBS 26 - "Gəlir gətirən aktivlərin qiymətdən düşməsi" 2008-ci ilin fevral ayında nəşr olunub. Bu standartın məqsədi müəssisənin gəlir gətirən aktivlərin qiymətdən düşməsi ilə bağlı tətbiq etdiyi prosedurları açıqlamaq və qiymətdən düşmə zərərinin tanınmasını təmin etməkdir. Həmçinin bu standartda müəssisə tərəfindən qiymətdən düşmə zərərinin nə zaman bərpa edilməsi və açıqlanması müəyyən edilir. Bu standart 1 aprel 2009-cu il tarixdən və ya həmin tarixdən sonrakı dövrlər üzrə qüvvədədir. Hazırda rəhbərlik qəbul edildiyi halda İSMUBS 26-nın Fonda edəcəyi təsiri qiymətləndirir.

İSMUBS 23 - "Qeyri-valyuta əməliyyatlarından gəlir (Vergi və Əməliyyatlar)" 2006-cı ilin dekabr ayında nəşr olunub. Bu standartın məqsədi müəssisənin birləşməsinə səbəb olan qeyri-valyuta əməliyyatlarından başqa qeyri-valyuta əməliyyatlarından əldə olunan gəlirin maliyyə hesabatı ilə bağlı tələbləri müəyyən etməkdir. Bu standart qeyri valyuta əməliyyatlarından əldə olunan gəlirin tanınması və ölçülməsi zamanı nəzərə alınmalı olan məsələləri, o cümlədən təsisçilər tərəfindən qoyulan vəsaitlərin müəyyən edilməsi məsələlərini əhatə edir. Bu standart 30 iyun 2008-ci il tarixdən və ya həmin tarixdən sonrakı dövrlər üzrə qüvvədədir. Hazırda rəhbərlik qəbul edildiyi halda İSMUBS 23-nın Fonda edəcəyi təsiri qiymətləndirir.

İSMUBS 24 - "Maliyyə hesabatlarında Büdcə məlumatının təqdim edilməsi" 2006-cı ilin dekabr ayında nəşr olunub. Bu standart büdcənin icrasından yaranan büdcə məbləğlərinin və faktiki məbləğlərin müəssisənin maliyyə hesabatlarına daxil edilməsini tələb edir, büdcə məbləğlərinin və büdcənin icrasından yaranan faktiki məbləğlərin müqayisəsini müəssisələrin maliyyə hesabatlarına daxil etməyi tələb edir. Belə müəssisələr öz büdcələrini ictimaiyyətə açıqlamaq tələbinə və ya nəticədə bununla bağlı ictimaiyyət qaşısında məsuliyyət daşımaq seçiminə malikdirlər. Bu standart həmçinin büdcə rəqəmləri ilə faktiki məbləğlər arasında əhəmiyyətli fərqlərin səbəblərini açıqlamada şərh etməyi tələb edir. Bu standart 1 yanvar 2009-cu il tarixdən başlayan dövrlər üçün qüvvədədir. Hazırda rəhbərlik qəbul edildiyi halda İSMUBS 24-ün Fonda edəcəyi təsiri qiymətləndirir.

MHBS 7 - "Maliyyə Alətləri: Açıqlamalar", 5 mart 2009-cu il tarixdə düzəliş edilmişdir. Düzəlişlər etibar edənlərin son zamankı böhranla əlaqədar ədalətli dəyər qiymətləndirmələri və likvidlik riski ilə bağlı açıqlamaların gücləndirilməsi təkliflərinə cavab olaraq həyata keçirilmişdir. Düzəlişlər maliyyə vəziyyəti haqqında hesabatda əks olunan ədalətli dəyər qiymətləndirmələri ilə bağlı açıqlamaların artırılmasını tələb edir. Düzəliş edilmiş açıqlama tələbləri 1 yanvar 2009-cu il tarixdən və ya həmin tarixdən sonrakı dövrlər üzrə qüvvədədir. Hazırda rəhbərlik qəbul edildiyi halda bu düzəlişin Fonda edəcəyi təsiri qiymətləndirir.

## 4. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

31 dekabr tarixinə pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|
| Depozitlər | **295 411** | 109 052 |
| Bank hesabları | **160 217** | 73 713 |
| Pul bazarı fondları | **16 903** | 133 445 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **472 531** | **316 210** |

### *Depozitlər*

| | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|
| Citibank N.A., London | **84 678** | – |
| BNP Paribas | **82 591** | 21 189 |
| Deutsche Bank AG, London | **76 639** | 21 246 |
| Royal Bank of Scotland plc., UK | **51 503** | – |
| UBS AG, London | – | 33 830 |
| Societe Generale Corporate & Investment Banking, Paris | – | 29 600 |
| UBS AG, London | – | 1 695 |
| UBS AG, London | – | 1 492 |
| **Cəmi depozitlər** | **295 411** | **109 052** |

31 dekabr 2008-ci il tarixinə Fondun AA+/Aa1 - AA-/Aa3 (Standard & Poors/Moodys/Fitch) arasında dəyişən kredit reytinqləri ilə dörd bankda yerləşdirilən dörd depoziti olmuşdur. Bu depozitlərin müddəti 2009-cu ilin yanvar və mart aylarında başa çatır. AVRO ilə ifadə olunmuş bir depozitin faiz dərəcəsi 2.70%-dir. BBF ilə ifadə olunmuş üç depozitin sabit faiz dərəcələri 5.17% -5.82% arasındadır.

31 dekabr 2007-ci il tarixinə Fondun AA/Aa2 to AAA/Aaa (Standard & Poors/Moodys) kredit reytinqləri ilə dörd bankda yerləşdirilən altı depoziti olmuşdur. Bu depozitlərin müddəti 2008-ci ilin yanvar ayında başa çatır. ABŞ dolları ilə ifadə olunmuş dörd depozitin sabit faiz dərəcəsi 4.3% - 4.72% arasındadır. BBF ilə ifadə olunmuş iki depozitin sabit faiz dərəcəsi 5.68% - 6.26% arasındadır.

### *Bank hesabları*

31 dekabr tarixinə Bank hesablarındakı vəsaitlər aşağıdakı valyutalarla ifadə edilmişdir.

| | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|
| ABŞ dolları | **80 450** | 40 898 |
| Azərbaycan manatı | **79 550** | 32 592 |
| AVRO | **136** | 187 |
| İngiltərə funt sterlingi | **81** | 36 |
| **Cəmi bank hesabları** | **160 217** | **73 713** |

Fondun manat hesabları Azərbaycan Respublikasının Milli Bankında və Azərbaycan Respublikasının Beynəlxalq Bankında BB+/Baa2 (Fitch/Moodys) uzunmüddətli reytinqləri ilə açılmışdır. Digər valyuta ilə ifadə edilmiş digər hesablar AA/AA1- AA/Aa3 (Standard & Poors/Moodys) uzunmüddətli kredit reytinqləri olan xarici banklarda açılmışdır.

### *Pul bazarı fondları*

Pul bazarı fondlarına investisiyalar bu fondların tələb əsasında ödənilən səhmlərindən ibarətdir. Pul bazarı fondlarına qoyulmuş investisiyalar tez bir zamanda pula çevrilə bilər. Pul bazarı fondları öz vəsaitlərini kommersiya qiymətli kağızlara, depozit sertifikatlarına, faiz dərəcələri dəyişkən olan istiqrazlara, ABŞ xəzinədarlıq istiqrazlarına, Avrobondlara və ya aktivlərlə zəmanət verilmiş qiymətli kağızlar kimi qısamüddətli borc və aktivlərlə girovlanan alətlərə yerləşdirir. Fonda ödənilməli faiz və dividendlər yenidən investisiya edilir.

31 dekabr tarixinə Fondun AAA kredit reytinqinə malik olan pul bazarı fondlarında investisiyaları olmuşdur:

| | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|
| Goldman Sachs Liquidity Funds | **7 751** | 1 490 |
| Universal Liquidity Funds | **6 042** | – |
| Barclays Global Investors Funds plc | **2 877** | 25 106 |
| Royal Bank of Scotland, Global Treasury Funds plc | **233** | 42 822 |
| Wachovia STIF Liquidity Funds | – | 839 |
| JPMorgan Fleming Liquidity Funds | – | 63 188 |
| **Cəmi pul bazarı fondları** | **16 903** | **133 445** |

## 5. FƏRQİ GƏLİRLƏR VƏ YA XƏRCLƏRDƏ ƏKS OLUNAN ƏDALƏTLİ DƏYƏRİ İLƏ HESABLANMIŞ QİYMƏTLİ KAĞIZLAR

31 dekabr tarixinə fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızları aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|
| Xarici dövlətlərin qiymətli kağızları | **5 951 601** | 359 882 |
| ABŞ agentliklərinin qiymətli kağızları | **1 906 631** | 416 221 |
| Maliyyə təşkilatlarının qiymətli kağızları | **487 565** | 789 960 |
| Korporativ borc qiymətli kağızları | **165 751** | 203 881 |
| Kapital qiymətli kağızları | **1 877** | 2 144 |
| İpoteka qiyməyli kağızları | **625** | 4 131 |
| **Cəmi fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar** | **8 514 050** | **1 776 219** |

31 dekabr 2008-ci il tarixinə Fondun ("xarici menecerlər") maliyyə təşkilatları ilə aktivlərin idarə edilməsi haqqında bağlanmış sazişlər əsasında nağd vəsaitlər və onların ekvivalentləri daxil olmaqla 196 958 min manat (ABŞ dolları ilə 245 890 min), (31 dekabr 2007-ci il tarixinə - 202 840 min manat (ABŞ dolları ilə 239 963 min)) vəsaiti olmuşdur. Fond tərəfindən bu təşkilatlara 2008 və 2007-ci illərdə ödənilmiş idarəetmə haqları müvafiq olaraq 698 min manat və 514 min manat təşkil etmişdir. 2008 və 2007- ci illərdə Fondun xarici menecerləri, Deutsche Bank AG, Klariden Leu Ltd. və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (Dünya Bankı) olmuşdur. Bütün qiymətli kağızları Bank of New York Mellon kastodial bankında saxlanmışdır.

***Xarici dövlətlərin qiymətli kağızları***

31 dekabr 2008 və 2007-ci il tarixlərinə xarici dövlətlərin qiymətli kağızları müxtəlif Avropa, Asiya, Afrika və Amerika ölkələrinin müxtəlif suveren və beynəlxalq təşkilatlarının buraxdığı borc qiymətli kağızlarına edilən investisiyalardan ibarət olmuşdur. Bu qiymətli kağızların sabit faiz dərəcəsi 0.875% - 8.750% arasında, ABŞ dolları LİBOR-u və EURİBOR-a bağlı spredi isə +0.24% ilə +0.8125% (2007: 3% - 9.5% arasında, ABŞ dolları LİBOR-u və EURİBOR-a bağlı spredi isə +0.05% ilə +0.8125%) arasında dəyişir və qiymətli kağızların qaytarılma müddəti 2009-cu ilin yanvar ayından 2017-ci ilin noyabr ayına qədərdir. (2007: 2008-ci ilin yanvarından 2013-cü ilin fevralına kimi). Diskont qiymətli kağızlar da həmçinin bu qrupa daxil edilir. Bu həm Fond, həm də fondun xarici menecerləri tərəfindən birbaşa idarə olunan portfeldə saxlanılır.

***ABŞ agentliklərinin qiymətli kağızları***

31 dekabr 2008 və 2007-ci il tarixlərinə ABŞ agentliklərinin qiymətli kağızlarına edilən investisiyalar Fannie Mae, Freddie Mac, Federal Home Loan Bank və Federal Farm Credit Bank Funding Corporation tərəfindən borc qiymətli kağızlarına edilən investisiyalardan ibarət olmuşdur. Bu qiymətli kağızların sabit faiz dərəcəsi 2.25% ilə 7.25% arasında, ABŞ dolları LİBOR-a bağlı spredi isə -0.16% - 0.02% (2007: 3.25% - 7.25%) arasında dəyişir və onların qaytarılma müddəti 2009-cu ilin yanvar ayından 2013-cü ilin may ayına (2007: 2008-ci ilin noyabr ayından 2011-ci ilin noyabr ayına) qədərdir. Bu qiymətli kağızlar Fond və Fondun xarici menecerləri olan Klariden Leu Ltd. və Dünya Bankı tərəfindən idarə olunan portfellərdə saxlanılmışdır.

***Maliyyə təşkilatlarının qiymətli kağızları***

31 dekabr 2008 və 2007-ci il tarixlərinə maliyyə təşkilatlarının qiymətli kağızları müxtəlif Avropa, Asiya və Amerika ölkələrinin maliyyə təşkilatları tərəfindən borc qiymətli kağızlarına edilən investisiyalardan ibarət olmuşdur. Bu qiymətli kağızların sabit faiz dərəcəsi 4% ilə 8.5%, ABŞ dolları LİBOR-u, İngiltərə funt sterlinqi LİBOR-u və EURİBOR-la bağlı spredi isə +0.03% ilə 1.7% arasında (2007: 3.6% ilə 8.5% arasında, ABŞ dolları LİBOR-u, İngiltərə funt sterlinqi LİBOR-u və EURİBOR-la bağlı spredi isə +0.03% ilə +2%) arasında dəyişir və qiymətli kağızların qaytarılma müddəti 2009-cu ilin fevral ayından 2016-cı ilin fevral ayına (2007: 2008-ci ilin fevral ayından 2016-cı ilin dekabr ayına) qədərdir. Bu qiymətli kağızlar birbaşa Fond və Fondun xarici menecerləri Deutsche Bank AG və Klariden Leu Ltd. tərəfindən idarə olunan portfellərdə saxlanılmışdır.

***Korporativ borc qiymətli kağızları***

31 dekabr 2008 və 2007-ci il tarixlərinə korporativ qiymətli kağızlar Avropa, Asiya və Amerika ölkələrinin korporasiyaları tərəfindən buraxılmış borc qiymətli kağızlarına edilən investisiyalardan ibarət olmuşdur. Bu qiymətli kağızların sabit faiz dərəcəsi 4.125% ilə 6.875% arasında, ABŞ dolları LİBOR-a bağlı spredi isə +0.21% ilə +0.60% (2007: 4.125% ilə 6.875% arasında, ABŞ dolları LİBOR-u və EURİBOR-la bağlı spredi isə

+0.40% ilə +0.60%) arasında dəyişir və qiymətli kağızların qaytarılma müddəti 2009-cu ilin iyun ayından 2016-cı ilin sentyabr ayına (2007: 2008-ci ilin mart ayından 2014-cü ilin oktyabr ayına) qədərdir. Bu qiymətli kağızlar birbaşa Fond və Fondun xarici menecerləri Deutsche Bank AG və Klariden Leu Ltd. tərəfindən idarə olunan portfellərdə saxlanılmışdır.

***Kapital qiymətli kağızlar***

31 dekabr tarixinə korporativ kapital qiymətli kağızlarının balans dəyəri aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|
| Səhiyyə | **471** | 369 |
| İstehlak sahələri | **424** | 173 |
| Maliyyə | **381** | 539 |
| Sənaye sahələri | **189** | 95 |
| Energetika | **175** | 255 |
| Telekomunikasiya və informasiya texnologiyaları | **170** | 522 |
| Digər | **67** | 191 |
| **Cəmi kapital qiymətli kağızlar** | **1 877** | **2 144** |

***İpoteka qiymətli kağızları***

31 dekabr 2008 və 2007-ci il tarixlərinə ipoteka qiymətli kağızları Amerika Birləşmiş Ştatlarının maliyyə təşkilatları tərəfindən buraxılmış borc qiymətli kağızlarına edilən investisiyalardan ibarət olmuşdur. Bu qiymətli kağızların ABŞ dolları LİBOR-una bağlı spredi +0.05% ilə +0.16% (2007: +0.05% ilə +0.16% və 3.72% sabit faiz dərəcəsi) arasında dəyişir və qaytarılma müddəti 2018-ci ilin iyun ayından 2038-ci ilin may ayına (2009-cu ilin iyul ayından 2038-ci ilin may ayına) qədərdir. Bu qiymətli kağızlar Fondun xarici meneceri olan Klariden Leu Ltd. tərəfindən idarə olunan portfeldə saxlanılmışdır.

## 6. ƏMLAK VƏ AVADANLIQ

| | Bina | Nəqliyyat vasitələri | Ofis avadanlığı | Mebel | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyər/Yenidən qiymətləndirmə dəyəri** | | | | | | |
| 31 dekabr 2006-cı il | 2 047 | 82 | 246 | 125 | 3 | 2 503 |
| Əlavələr | 366 | 5 | 54 | 8 | – | 433 |
| Silinmə | (366) | – | – | – | – | (366) |
| Yenidən qiymətləndirmə | 3 584 | – | – | – | – | 3 584 |
| **31 dekabr 2007-ci il** | **5 631** | **87** | **300** | **133** | **3** | **6 154** |
| Əlavələr | – | 42 | 22 | 9 | – | 73 |
| Yenidən qiymətləndirmə | 570 | – | – | – | – | 570 |
| **31 dekabr 2008-ci il** | **6 201** | **129** | **322** | **142** | **3** | **6797** |
| **Yığılmış köhnəlmə** | | | | | | |
| 31 dekabr 2006-cı il | (226) | (37) | (217) | (73) | (2) | (555) |
| Köhnəlmə xərci | (81) | (11) | (17) | (25) | (1) | (135) |
| Yenidən qiymətləndirmə | 242 | – | – | – | – | 242 |
| **31 dekabr 2007-ci il** | **(65)** | **(48)** | **(234)** | **(98)** | **(3)** | **(448)** |
| Köhnəlmə xərci | (116) | (8) | (24) | (22) | – | (170) |
| Yenidən qiymətləndirmə | 160 | – | – | – | – | 160 |
| **31 dekabr 2008-ci il** | **(21)** | **(56)** | **(258)** | **(120)** | **(3)** | **(458)** |
| **Xalis qalıq dəyəri:** | | | | | | |
| **31 dekabr 2008-ci il** | **6 180** | **73** | **64** | **22** | **–** | **6 339** |
| 31 dekabr 2007-ci il | 5 566 | 39 | 66 | 35 | – | 5 706 |

Nazirlər Kabinetinin 27 may 2002-ci il tarixli 99 saylı Qərarına əsasən Fonda dövlət tərəfindən inzibati bina verilmişdir. 31 dekabr 2008 və 2007-ci il tarixlərinə Fonda verilən bina müstəqil qiymətləndiricinin rəyinə uyğun olaraq bazar dəyəri ilə yenidən qiymətləndirilmişdir. Binanın ədalətli dəyərinin hesablanması üçün aşağıdakı metodlardan istifadə olunmuşdur: diskontlaşdırılmış pul vəsaitlərin hərəkəti metodu (gəlir yanaşması); xərcin hesablanması metodu (xərc metodu), müqayisəli satış metodu (müqayisəli yanaşma). Yekun dəyərin hesablanması üçün müxtəlif yanaşmaları istifadə etməklə əldə olunan nəticələrə həmin hesablamaların informasiyanın düzgünlüyü və tamamlığı, qiymətləndirilən əmlakın xüsusiyyətləri kimi meyarlara cavab vermə dərəcəsindən asılı olaraq müəyyən ölçülər tətbiq olunmuşdur.

Nəticədə, 31 dekabr 2008 və 2007-ci il tarixlərinə binaların balans dəyəri, müvafiq olaraq 6 180 min və 5 566 min manat olmuşdur. Əgər binalar yığılmış köhnəlmə çıxılmaqla ilkin dəyəri ilə göstərilsəydi, onda 31 dekabr 2008 və 2007-cı il tarixlərinə balans dəyəri 467 min və 502 min manat olardı.

## 7. DİGƏR AKTİVLƏR

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|
| **MUBS 39-a uyğun olaraq kreditlər və debitor borclar kimi qeyd edilən digər maliyyə aktivləri:** | | |
| Digər | – | 761 |
| **Digər qısamüddətli qeyri-maliyyə aktivləri:** | | |
| Qabaqcadan ödənilmiş gəlirlər | **13 129** | – |
| Xidmətlərlə bağlı qabaqcadan edilmiş ödənişlər | **2 880** | 989 |
| Mənfəət vergisindən başqa vergi hesablaşmaları | **309** | – |
| **Digər uzunmüddətli qeyri-maliyyə aktivləri:** | | |
| Qeyri-maddi aktivlər | **774** | 89 |
| Satış üçün nəzərdə tutulan istifadə edilmiş aktivlər | **109** | 138 |
| **Cəmi digər aktivlər** | **17 201** | **1 977** |

| | Qeyri-maddi aktivlər |
|---|---|
| **İlkin dəyər ilə** | |
| 31 dekabr 2006-cı il | 87 |
| Əlavələr | 28 |
| **31 dekabr 2007-ci il** | **115** |
| Əlavələr | 725 |
| **31 dekabr 2008-ci il** | **840** |
| **Yığılmış amortizasiya** | |
| 31 dekabr 2006-cı il | (21) |
| İl üzrə amortizasiya xərcləri | (5) |
| Silinmələr üzrə ləğv edilmiş | – |
| **31 dekabr 2007-ci il** | **(26)** |
| İl üzrə amortizasiya xərcləri | (40) |
| Silinmələr üzrə ləğv edilmiş | – |
| **31 dekabr 2008-ci il** | **(66)** |
| **Xalis qalıq dəyəri:** | |
| **31 dekabr 2008-ci il** | **774** |
| 31 dekabr 2007-ci il | 89 |

Qeyri-maddi aktivlərə proqram təminatı və lisenziyalar aiddir.

## 8. DİGƏR ÖHDƏLİKLƏR

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|
| **Digər maliyyə öhdəlikləri:** | | |
| Digər kreditor hesablar | **300** | 27 |
| **Cəmi digər maliyyə öhdəliklər** | **300** | **27** |
| **Digər qeyri-maliyyə öhdəlikləri:** | | |
| Ödənilməli mənfəət vergisi | – | 12 608 |
| **Cəmi digər qeyri-maliyyə öhdəliklər** | – | **12 608** |

## 9. DAXİL OLMUŞ VƏSAİTLƏR

Fondun daxilolmaları aşağıdakılardan ibarət olmuşdur:

| | 31 dekabr 2008-ci il tarixinə | 31 dekabr 2007-ci il tarixinə |
|---|---|---|
| Mənfəət neftinin və qazın satışından əldə olunan xalis vəsaitlər | **11 526 986** | 1 675 019 |
| BTC layihəsi üzrə ödənişlər | **97 235** | – |
| Bonus ödənişləri | **2 802** | 58 068 |
| Akrhesabı ödənişlər | **1 495** | 6 356 |
| Boru kəməri tranzit tarifləri | **1 493** | – |
| Neft satışından qiymət fərqi | – | 45 596 |
| Digər | **2 305** | 1 097 |
| **Cəmi** | **11 632 316** | **1 786 136** |

"Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2006-cı il Büdcəsinə Dəyişikliklər və Əlavələr Edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 7 iyun 2006-cı il tarixli Fərmanına uyğun olaraq 2007-ci ildə Azərbaycan Respublikasında istehsal edilən və ixrac olunan xam neftin müqavilə qiyməti büdcədə nəzərdə tutulan qiymətdən yüksək olarsa bu məbləğdən Fonda edilən ödənişlər Azərbaycan Respublikasında ixrac üçün istehsal edilən xam neftin müqavilə qiyməti ilə Respublika daxili topdansatış qiyməti arasındakı fərqdən yaranan mənfəəti əks etdirir və Fondun 2007-ci il üzrə yeni gəlir mənbəyi olacaq.

## 10. FOND TƏRƏFİNDƏN EDİLƏN KÖÇÜRMƏLƏR

***Dövlət Büdcəsinə köçürmələr***

2008-ci ildə, əvvəlki illərdə olduğu kimi, Fondun aktivlərinin müəyyən hissəsi büdcə kəsirini örtmək üçün Dövlət Büdcəsinə köçürülmüşdür. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il Büdcəsi haqqında" 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanına, habelə Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2007-ci il tarixli 2582 saylı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"na və "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il büdcəsinə dəyişikliklər və əlavələr edilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin 11 iyul 2008-ci il tarixli 802 saylı Fərmanına uyğun olaraq 2008-ci ildə Fond tərəfindən Dövlət Büdcəsinə 3 800 000 min manat vəsait köçürülmüşdür (2007-ci ildə 585 000 min manat).

***Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi ilə əlaqədar köçürmələr***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il Büdcəsi barədə" 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanına, habelə 26 dekabr 2007-ci il tarixli 2582 saylı Sərəncamı ilə təsdiq olunmuş "2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"na uyğun olaraq 2008-ci ildə Fond tərəfindən Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi layihəsinin maliyyələşdirilməsinə 211 820 min manat köçürülmüşdür (2007-ci ildə 132 907 min manat).

***Dövlət Qaçqınlar Komitəsinə və Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna köçürmələr***

2008-ci ildə qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üçün aparılan layihələrin maliyyələşdirilməsinə 144 999 min manat (2007-ci ildə 154 117 min manat) vəsait köçürülmüşdür. Köçürmələr Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci

il Büdcəsi barədə" 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanına, habelə 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanına, habelə 26 dekabr 2007-ci il tarixli 2582 saylı Sərəncamı ilə təsdiq olunmuş "2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"na uyğun olaraq aparılmışdır.

***Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə əlaqədar köçürmələr***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il büdcəsi haqqında" 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanına, habelə 26 dekabr 2007-ci il tarixli 2582 saylı Sərəncamı ilə təsdiq olunmuş "2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"na uyğun olaraq 2008-ci ildə Fond tərəfindən 120 600 min manat məbləğində vəsait Samur Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi üçün köçürülmüşdür (2007-ci ildə 76 900 min manat).

***Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi ilə əlaqədar köçürmələr***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il büdcəsi haqqında" 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanına, habelə 26 dekabr 2007-ci il tarixli 2582 saylı Sərəncamı ilə təsdiq olunmuş "2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"na uyğun olaraq 2008-ci ildə Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi layihəsinin maliyyələşdirilməsi üçün 5 271 min manat məbləğində vəsait köçürülmüşdür (2007-ci ildə 20 712 min manat) .

***Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı ilə əlaqədar köçürmələr***

2008-ci ildən başlayaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2008-ci il büdcəsi haqqında" 26 dekabr 2007-ci il tarixli 687 saylı Fərmanına, habelə 26 dekabr 2007-ci il tarixli 2582 saylı Sərəncamı ilə təsdiq olunmuş "2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"na uyğun olaraq Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramının maliyyələşdirilməsi üçün 2 296 min manat məbləğində vəsait köçürülmüşdür.

***2007-ci il üzrə Azəri-Çıraq-Günəşli layihəsində ARDNŞ-in iştirak payının tənzimlənməsi ilə əlaqədar köçürmələr***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2007-ci il büdcəsində dəyişikliklər və əlavələr edilməsi haqqında" 28 iyul 2007-ci il tarixli 601 saylı Fərmanına uyğun olaraq 2007-ci ildə Azəri-Çıraq-Günəşli layihəsində Azərbaycan Respublikasına məxsus payın maliyyələşdirilməsi üçün 87 559 min manat məbləğində vəsait ARDNŞ-a köçürülmüşdür.

## 11. FAİZ GƏLİRİ

| | 31 dekabr 2008-ci il tarixinə | 31 dekabr 2007-ci il tarixinə |
|---|---|---|
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar üzrə faiz gəliri | **210 786** | 70 614 |
| Amortizasiya dəyəri ilə qeydə alınmış aktivlər üzrə faiz gəliri: | | |
| Qiymətdən düşməmiş aktivlər üzrə faiz gəlirləri: | | |
| Müddətli depozitlər üzrə faiz | **16 140** | 1 911 |
| Pul bazarı fondlarından gəlir | **8 964** | 2 989 |
| Tələbli depozitlər üzrə faiz | **4 204** | 2 173 |
| **Cəmi faiz gəlirləri** | **240 094** | **77 687** |

## 12. FƏRQİ GƏLİRLƏR VƏ YA XƏRCLƏRDƏ ƏKS OLUNAN ƏDALƏTLİ DƏYƏRİ İLƏ HESABLANMIŞ MALİYYƏ AKTİVLƏRİ ÜZRƏ YARANAN MƏNFƏƏT VƏ YA ZƏRƏR

| | 31 dekabr 2008-ci il tarixinə | 31 dekabr 2007-ci il tarixinə |
|---|---|---|
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə göstərilmiş qiymətli kağızlar ilə əməliyyatlar üzrə xalis mənfəət və ya zərər aşağıdakılardan ibarətdir: | | |
| Ədalətli dəyər düzəlişi üzrə reallaşdırılmamış zərər | **(28 248)** | (4 855) |
| Ticarət əməliyyatları üzrə reallaşdırılmış gəlir/(zərər) | **19 325** | (547) |
| **Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə göstərilən qiymətli kağızlar ilə əməliyyatlar üzrə yaranan mənfəət və ya zərərin cəmi** | **(8 923)** | **(5 402)** |

## 13. XARİCİ VALYUTA ƏMƏLİYYATLARI ÜZRƏ XALİS MƏZƏNNƏ FƏRQİ

| | 31 dekabr 2008-ci il tarixinə | 31 dekabr 2007-ci il tarixinə |
|---|---|---|
| Reallaşdırılmamış məzənnə fərqi, xalis | **(594 226)** | 15 935 |
| Reallaşdırılmış məzənnə fərqi, xalis | **(58 420)** | (1 987) |
| **Cəmi məzənnə fərqi, xalis** | **(652 646)** | **13 948** |

## 14. ƏMƏLİYYAT XƏRCLƏRİ

| | 31 dekabr 2008-ci il tarixinə | 31 dekabr 2007-ci il tarixinə |
|---|---|---|
| Bank komisyon haqları | **1 842** | 687 |
| Əmək haqqı, məvaciblər və işçilərə müavinətlər | **904** | 558 |
| Peşəkar xidmətlər | **406** | 871 |
| Rabitə xərcləri | **216** | 161 |
| Köhnəlmə və amortizasiya | **210** | 140 |
| Ezamiyyət xərcləri | **145** | 81 |
| Nəqliyyat xərcləri | **45** | 42 |
| Sığorta xərcləri | **30** | 27 |
| Nəşriyyat haqları | **9** | 8 |
| Digər əməliyyat xərcləri | **434** | 88 |
| **Cəmi əməliyyat xərcləri** | **4 241** | **2 663** |

## 15. MƏNFƏƏT VERGİSİ

Fond vergi hesabatlarını İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarından fərqlənə bilən Azərbaycan Respublikasının vergi qanunvericiliyinin tələbləri əsasında hazırlayır.

Fondun bəzi xərcləri vergiyə cəlb olunmadığından müəyyən daimi vergi fərqləri yaranır.

Təxirə salınmış vergilər maliyyə hesabatı məqsədi üçün aktiv və öhdəliklərin balans dəyərləri ilə vergi məqsədləri üçün istifadə olunan məbləğlər olan müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2008 və 2007-ci il tarixlərinə müvəqqəti fərqlər əsasən, gəlirlərin və xərclərin müxtəlif tanınma üsullarına və bəzi aktivlərin qeyd edilmiş dəyərlərinə əsaslanır.

31 dekabr 2008 və 2007-ci il tarixlərinə müvəqqəti fərqlər aşağıdakılardan ibarət olmuşdur:

| | 2008 | 2007 |
|---|---|---|
| **Çıxılan müvəqqəti fərqlər:** | | |
| 31 dekabr 2008-ci il tarixinə bitən il ürzə vergi zərəri | **409 915** | – |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | **22 616** | 7 244 |
| **Cəmi çıxılan müvəqqəti fərqlər:** | **432 531** | 7 244 |
| **Vergiyə cəlb olunan müvəqqəti fərqlər:** | | |
| Əmlak, tikili və avadanlıq | **(4 702)** | (3 975) |
| Qeyri-maddi aktivlər | **(50)** | (11) |
| **Cəmi vergiyə cəlb olunan müvəqqəti fərqlər:** | **(4 752)** | (3 986) |
| **Xalis vergiyə cəlb olunmuş çıxılan müvəqqəti fərqlər** | **427 779** | **3 258** |
| Yerli mənfəət vergisi dərəcəsi (22%) ilə xalis təxirə salınmış vergi aktivi | **94 111** | 716 |
| Qeyd edilməyən təxirə salınmış vergi aktivləri | **(94 111)** | (716) |
| **Xalis təxirə salınmış vergi aktivi / (öhdəliyi)** | **–** | **–** |

31 dekabr 2008 və 2007-ci il tarixlərinə bitən illər üzrə vergi xərcləri və maliyyə mənfəəti arasındakı əlaqələr aşağıda izah olunur:

| | 2008 | 2007 |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl (kəsir)/əlavə vəsait | **(425 716)** | 83 570 |
| 22% yerli vergi dərəcəsi ilə vergi | **(93 658)** | 18 385 |
| Tanınmamış təxirə salınan vergi aktivlərində dəyişiklik | **93 395** | 716 |
| Daimi fərqlərin vergi təsiri | **263** | 1 410 |
| Gələcək dövrlərə keçirilmiş xalis əməliyyat zərərlərindən yaranan təxirə salınmış vergi mənfəəti | **–** | (7 382) |
| Maliyyə nəticələri haqqında hesabatda əks olunan mənfəət vergisi xərcləri | **–** | **13 129** |

2008 və 2007-ci illər üzrə tutuşdurmanın aparılması üçün istifadə olunan vergi dərəcəsi vergiyə cəlb olunan mənfəətlə bağlı Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq hüquqi şəxslər tərəfindən ödənilməli olan 22% mənfəət vergi dərəcəsini əks etdirir.

## 16. MALİYYƏ AKTİVLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyəri likvidasiya satışı və ya məcburi satış əməliyyatı deyil, kommersiya əməliyyatı zamanı məlumatlandırılmış tərəflər arasında alətin mübadilə edildiyi məbləğlə müəyyənləşdirilir. Bundan belə nəticə çıxarmaq olar ki, burada təqdim edilmiş göstəricilər Fond tərəfindən saxlanılan xüsusi bir maliyyə alətinin açıq bazarda satışından həqiqətən əldə ediləcək qiymətləri fərqlənə də bilər.

Fondun rəhbərliyi hesab edir ki, balans hesabatında göstərilən bütün maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri təqribən onların balans dəyərini əks etdirir. Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə göstərilən qiymətli kağızlar açıq bazarda elan olunmuş qiymətlərə istinad etməklə müəyyən edilmişdir.

## 17. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ

Risklərin idarə edilməsi Fondun fəaliyyətinin mühüm hissəsini təşkil edir. Əməliyyatların xüsusiyyətlərindən asılı olaraq Fond bir sıra risklərə məruz qalır ki, bunların sırasında kredit riskini, likvidlik riskini, bazar riskini qeyd etmək olar. Fondun risklərlə bağlı idarəetmə siyasətinin açıqlaması aşağıdakı kimidir.

### *Kredit riski*

Fond kredit riskinə məruzdur ki, bu, maliyyə öhdəliyi olan bir tərəfin öhdəliyini yerinə yetirməməsi və nəticədə digər tərəfin maliyyə itkisinə məruz qalması riskidir. Fondun pul vəsaitləri və onların ekvivalentləri və investisiyaları kredit riskinə məruz qala bilər. Fond kredit risklərini Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 saylı Fərmanı ilə təsdiq edilmiş, 21 dekabr 2001-ci il tarixli 607 saylı Fərmanı və 1 mart 2005-ci il tarixli 202 saylı Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli 2582 saylı Sərəncamı ilə təsdiq edilmiş "2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"na müvafiq olaraq idarə edir.

### *Maksimum risk*

Fondun kredit riskinə maksimum məruz qalma səviyyəsi əhəmiyyətli dərəcədə dəyişir və fərdi risklərdən habelə ümumi bazar iqtisadiyyatı risklərindən asılıdır. Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış maliyyə aktivləri 31 dekabr 2008 və 2007-ci il tarixlərinə müvafiq olaraq 8 514 050 min manat və 1 776 219 min manat təşkil edir.

Fondun İnvestisiya Siyasətinə uyğun olaraq, bir maliyyə qurumunun və ya bir investisiya aktivinin Fondun investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 15%-i həddində müəyyən edilmişdir. 31 dekabr 2008-ci il tarixində Almaniya Federativ Respublikasının 1 396 828 min manat dəyərində suveren borc öhdəlikləri (istiqrazları) Fondun investisiya portfelinin 15.68%-ni təşkil edərək istisna hal olmuşdur. Almaniya Federativ Respublikasının istiqrazları alındığı son tarixdə (1 dekabr 2008-ci il), onların Fondun investisiya portfelində xüsusi çəkisi 13.96% (emitentin daha əvvəl alınan bütün istiqrazları nəzərə alınmaqla) təşkil etmişdir. 2008-ci ilin dekabr ayında böyük məbləğdə büdcə transfertləri və məzənnə dəyişkənliyini nəzərə alaraq, emitentlərin portfel üzrə çəkiləri nisbət cəhətdən dəyişmişdir. Nəticədə, Almaniya Federativ Respublikasının suveren borc öhdəlikləri (istiqrazları) Fondun investisiya portfelində xüsusi çəkisi 15%-lik həddi aşmışdır. Emitentin nominal dəyəri 39 400 min AVRO olan istiqrazlarından biri (Deutschland Rep

3.75 01/09) 4 yanvar 2009-cu il tarixdə qaytarılması və nominal dəyəri 150 000 min AVRO olan digər iki istiqraz 13 və 16 yanvar 2009-cu il tarixlərində (Bundesobl 04/10 və BKO 3 03/10) satılması nəticəsində bu göstərici 12.85%-ə düşmüşdür.

Fondun İnvestisiya Siyasətinə uyğun olaraq, Fondun valyuta aktivləri investisiya dərəcəli kredit reytinqindən (Baa3 (Moody's) və ya BBB- (Standard & Poor's, Fitch)) aşağı olmayan reytinqə malik olan aktivlərə və ya emitenti investisiya dərəcəli kredit reytinqinə malik olan aktivlərə investisiya edilə bilər.

Aşağıdakı cədvəldə Fondun saxladığı qiymətli kağızların kredit reytinqi haqqında məlumat təqdim olunmuşdur. Cədvəldə beynəlxalq Standard & Poor's və Moody's agentliklərinin reytinqləri üzrə təsnifat verilmişdir. Aktiv müxtəlif kredit reytinqinə malik olduqda təyin edilən daha yüksək reytinq istifadə olunur.

| | AAA | AA | A | BBB | Qeyri investisiya reytinqi | Cəmi 31 dekabr 2008-ci il tarixinə |
|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 16 903 | 376 062 | – | – | 79 566 | 472 531 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | 7 449 452 | 519 121 | 503 038 | 37 981 | 4 458 | 8 514 050 |

| | AAA | AA | A | BBB | Qeyri investisiya reytinqi | Cəmi 31 dekabr 2007-ci il tarixinə |
|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 166 436 | 116 313 | 839 | – | 32 622 | 316 210 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | 853 966 | 548 914 | 278 818 | 57 769 | 36 752 | 1 776 21 9 |

31 dekabr 2008 və 2007-ci il tarixlərinə qiymətli kağızlar və ya qiymətli kağızların emitentləri ən azı Baa3 (Moody's) və ya BBB- (Standard & Poor's) uzunmüddətli kredit reytinqlərinə malik olmuşdur. 2008-ci ildə Lehman Brothers LEH 05/11-in 2 154 min manat, Kaupthing KAUP 05/10 1 626 min manat və Kaupthing KAUP 08/12 678 min manat dəyərində istiqrazları Fond tərəfindən istisna hal hesab edilmişdir. Bu qiymətli kağızlar haqqında ətraflı məlumat aşağıdakı cədvəldə göstərilib:

| İstiqrazlar | ISIN | Nominal (min) | Valyuta | Alınma tarixi | Qaytarılma müddəti | Alınma tarixində reytinq | 31 dekabr 2008-ci il tarixinə reytinq |
|---|---|---|---|---|---|---|---|
| LEH 05/11 | XS0252835110 | 10 000<br>10 000 | AVRO | 06.03.2007<br>25.07.2007 | 04.05.2011 | A1/A+<br>A1/A+ | NR/NR* |
| KAUP 05/10 | XS0219823266 | 24 000 | AVRO | 02.03.2007 | 25.05.2010 | Aaa/AAA | Caa2/NR* |
| KAUP 08/12 | XS0226781242 | 10 000 | AVRO | 02.03.2007 | 17.08.2012 | Aaa/AAA | Caa2/NR* |

* - reytinqsiz

15 Sentyabr 2008-ci ildə "Lehman Brothers Holdings İnc." müflisləşmə haqqında bəyanat verdi ("Chapter 11"). Bu maddəyə əsasən, təşkilat, məhkəmə ilə müəyyən olunmuş müddətdə, öz aktivlərinin sahibi olaraq qalır və yenidən təşkilolunma hüququ əldə edir.

Həmçinin, 2008-ci ilin oktyabr ayının 9-da İslandiya Maliyyə Tənzimləmə Orqanı, ölkə maliyyə bazarında xüsusi duruma əsaslanaraq, İslandiya Parlamentinin müvafiq qərarı ilə "Kaupthing Bank hf."ın idarə olunmasını öz nəzarəti altına keçirdiyini elan etdi. 8 oktyabr 2008-ci il tarixində Kaupthing Bank hf.-in istiqrazlarının reytinqləri müvafiq olaraq Ba1 və 9 oktyabr 2008-ci il tarixində isə Caa2 səviyyəsinə endirilmişdi.

***Bank hesabları***

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 saylı Fərmanı ilə təsdiq edilmiş, 21 dekabr 2001-ci il tarixli 607 saylı Fərmanı və 1 mart 2005-ci il tarixli 202 saylı Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara uyğun olaraq Fondun valyuta hesabları üzrə hesablaşma hesabları uzunmüddətli kredit reytinqi A- (Standard & Poor's, Fitch) və ya Aa3 (Moody's) kredit reytinqi dərəcəsindən aşağı olmayan banklarda saxlanıla bilər.

31 dekabr 2008-ci ildə Fond 78 402 min manat və 1 164 min manat məbləğində vəsaitlərini müvafiq olaraq Azərbaycan Respublikası Milli Bankındakı və Azərbaycan Respublikası Beynəlxalq Bankındakı hesablarında saxlamışdır (2007-ci ildə, müvafiq olaraq, 31 998 min manat və 624 min manat). Bu banklar BB reytinqinə malikdir. Azərbaycan Respublikasında Fondun bank hesabları yalnız Azərbaycan Respublikası Milli Bankında və Azərbaycan Respublikası Beynəlxalq Bankında açıla bilər.

***Depozitar xidmətlər***

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 saylı Fərmanı ilə təsdiq edilmiş, 21 dekabr 2001-ci il tarixli 607 saylı Fərmanı və 1 mart 2005-ci il tarixli 202 saylı Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara uyğun olaraq, Fonda qiymətli kağızlar üzrə depozitar xidmətləri uzunmüddətli kredit reytinqi A- (Standard & Poor's, Fitch) və ya A3 (Moody's) kredit reytinqindən aşağı olmayan kommersiya bankları və ya digər maliyyə qurumları göstərə bilər.

***Maliyyə bazarlarında tərəf müqabilləri***

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 saylı Fərmanı ilə təsdiq edilmiş, 21 dekabr 2001-ci il tarixli 607 saylı Fərmanı və 1 mart 2005-ci il tarixli 202 saylı Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara uyğun olaraq, Fondun beynəlxalq maliyyə bazarlarında tərəf müqabili investisiya dərəcəli uzunmüddətli kredit reytinqindən (Baa3 (Moody's) və ya BBB- (Standard & Poor's, Fitch)) aşağı olmayan reytinqə malik olan kommersiya bankları və digər maliyyə qurumları ola bilər.

***Xarici menecerlər***

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 saylı Fərmanı ilə təsdiq edilmiş, 21 dekabr 2001-ci il tarixli 607 saylı Fərmanı və 1 mart 2005-ci il tarixli 202 saylı Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara uyğun olaraq Fondun valyuta vəsaitinin idarə edilməsinə xarici menecer cəlb edildikdə xarici menecerin özünün və ya onun əsas təsisçisinin kredit reytinqi investisiya dərəcəli kredit reytinqindən (Baa3 (Moody's) və ya BBB- (Standard & Poor's, Fitch)) aşağı olmamalı, və ya onun aktivlərinin idarə edilməsində beş ildən az olmayan müsbət təcrübəsi, və yaxud dəyəri 1 milyard ABŞ dolları məbləğindən az olmayan aktivlərin idarə edilməsi sahəsində səriştəsi olmalıdır.

***Xarici valyuta riski***

Xarici valyuta riski xarici valyuta məzənnəsinin dəyişməsi nəticəsində maliyyə aktivinin dəyərinin dəyişməsi riskidir. Fondun pul vəsaitlərinin hərəkəti və aktivlərinin dəyəri əsas xarici valyutaların məzənnəsinin dəyişməsi riskinə məruz qalır.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli 2582 saylı Sərəncamı ilə təsdiq edilmiş "2008-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı)"nda 2008-ci il üçün Fondun investisiya portfelinin valyuta tərkibi (səbəti) üçün tələblər müəyyən edilmişdir. Bu tələblərə uyğun olaraq, 2008-ci ildə Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 50%-nin ABŞ dollarında ifadə olunan aktivlərə, 40%-nin Avro-da ifadə olunan aktivlərə, 5%-nin İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə, qalan 5%-nin isə A (Standard & Poor's, Fitch) və ya A2 (Moody's) kredit reytinqindən aşağı olmayan uzunmüddətli ölkə (suveren borc) reytinqinə malik olan ölkələrin valyutalarında, və ya ABŞ dollarında və ya xüsusi çəkidəki mütənasiblik əsasında bölüşdürülərək ABŞ dolları, Avro və İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə yerləşdirilməsi müəyyən edilmişdir. Yuxarıdakı tələblərdən kənarlaşma yarandıqda Fond hər rüb başa çatandan sonra 10 iş günü ərzində portfelin valyuta tərkibini yenidən balanslaşdırmalıdır. 31 dekabr 2008-ci il tarixinə Fondun investisiya portfelinin 53% ABŞ dolları, 43% - Avroda, 4% - İngiltərə funt sterlinqində yerləşdiyi müəyyən edilmişdir. 2009-cu il yanvar ayının 16-da İnvestisiya siyasəti ilə müəyyən olunmuş diversifikasiya meyarlarına əsasən Fondun investisiya portfelinin valyuta bölgüsünün yenidən balanslaşdırılması başa çatmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1578 saylı Sərəncamı ilə təsdiq edilmiş "Dövlət Neft Fondunun 2007-ci il üçün İnvestisiya Siyasətində (İnvestisiya istiqamətlərində)" 2007-ci il üçün Fondun investisiya portfelinin valyuta tərkibi (səbəti) üçün tələblər müəyyən edilmişdir. Bu tələblərə uyğun olaraq, 2007-ci ildə Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 55%-nin ABŞ dollarında ifadə olunan aktivlərə, 35%-nin Avro-da ifadə olunan aktivlərə, 5%- nin İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə, qalan 5%-nin isə A (Standard & Poor's, Fitch) və ya A2 (Moody's) kredit reytinqindən aşağı olmayan uzunmüddətli ölkə (suveren borc) reytinqinə malik olan ölkələrin valyutalarında, və ya ABŞ dollarında və ya xüsusi çəkidəki mütənasiblik əsasında bölüşdürülərək ABŞ dolları, Avro və İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə yerləşdirilməsi müəyyən edilmişdir. Yuxarıdakı tələblərdən kənarlaşma yarandıqda Fond hər rüb başa çatandan sonra 10 iş günü ərzində portfelin valyuta tərkibini yenidən balanslaşdırmalıdır. 31 dekabr 2007-ci il tarixinə Fondun investisiya portfelinin 62% ABŞ dolları, 34% - Avroda, 4% - İngiltərə funt sterlinqində yerləşdiyi müəyyən edilmişdir. 2008-ci il yanvar ayının 16-da İnvestisiya siyasəti ilə müəyyən olunmuş diversifikasiya meyarlarına əsasən Fondun investisiya portfelinin valyuta bölgüsünün yenidən balanslaşdırılması başa çatmışdır.

| | 31 dekabr 2008-ci il | | | | |
|---|---|---|---|---|---|
| | AZN | ABŞ dolları | AVRO | İngiltərə funt sterlinqi | Cəmi |
| **Maliyyə aktivləri:** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 79 550 | 86 724 | 92 567 | 213 690 | 472 531 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | – | 4 604 898 | 3 733 106 | 176 046 | 8 514 050 |
| **Cəmi maliyyə aktivləri** | **79 550** | **4 691 622** | **3 825 673** | **389 736** | **8 986 581** |
| **Maliyyə öhdəlikləri:** | | | | | |
| Digər maliyyə öhdəlikləri | 65 | 170 | 65 | – | 300 |
| **Cəmi maliyyə öhdəlikləri** | **65** | **170** | **65** | **–** | **300** |
| **Açıq mövqe** | **79 485** | **4 691 452** | **3 825 608** | **389 736** | **8 986 281** |
| | **1%** | **52%** | **43%** | **4%** | |

| | 31 dekabr 2007-ci il | | | | |
|---|---|---|---|---|---|
| | AZN | ABŞ dolları | AVRO | İngiltərə funt sterlinqi | Cəmi |
| **Maliyyə aktivləri:** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 32 592 | 253 610 | 25 295 | 4 713 | 316 210 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | – | 1 016 250 | 677 076 | 82 893 | 1 776 219 |
| Digər maliyyə aktivləri | – | 761 | – | – | 761 |
| **Cəmi maliyyə aktivləri** | **32 592** | **1 270 621** | **702 371** | **87 606** | **2 093 190** |
| **Maliyyə öhdəlikləri:** | | | | | |
| Digər maliyyə öhdəlikləri | 27 | – | – | – | 27 |
| **Cəmi maliyyə öhdəlikləri** | **27** | **–** | **–** | **–** | **27** |
| **Açıq mövqe** | **32 565** | **1 270 621** | **702 371** | **87 606** | **2 093 163** |
| | **1%** | **61%** | **34%** | **4%** | |

Risklərə nəzarət və idarəetmə yuxarıda qeyd edilən limitlərə uyğun olaraq İnvestisiya Şurası və Fondun Rəhbərliyi tərəfindən həyata keçirilir. Bütün təkliflər/qərarlar İnvestisiya Şurası tərəfindən hazırlanır və daha sonra Fondun rəhbərliyi tərəfindən təsdiq edilməlidir. Risklərin gündəlik idarə edilməsi Risklərin İdarə Edilməsi Departamenti tərəfindən həyata keçirilir.

***Xarici valyuta məzənnəsinin dəyişməsi riski***

Aşağıdakı cədvəldə AZN-ə nisbətdə ABŞ dollarının, Avro və İngiltərə funt sterlinqinin 10% artmasına və ya azalmasına qarşı Fondun idarəsində olan aktivlərin həssaslığı öz əksini tapmışdır. Xarici valyuta riskinin əsas idarəedici heyətə hesabat edilməsi üçün istifadə edilən həssaslıq dərəcəsi 10%-dir və bu dərəcə xarici valyutanın mübadilə məzənnəsində mümkün dəyişikliklərlə bağlı rəhbərliyin qiymətləndirmələrini əks etdirir. Həssaslıq təhlilinə pul vəsaitləri və onların ekvivalentləri eləcə də fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar daxildir. Həssaslıq təhlili yalnız xarici valyutada ifadə edilmiş aktivləri əhatə edir və dövrün sonunda xarici valyuta məzənnəsinin 10% dəyişməsi nəticəsində onların yenidən qiymətləndirilməsi efektini göstərir.

| | 31 dekabr 2008-ci il | | | | | |
|---|---|---|---|---|---|---|
| | AZN/ABŞ dolları | | AZN/AVRO | | AZN/İngilis funt sterlinqi | |
| | + 10% | –10% | + 10% | –10% | + 10% | –10% |
| İl ərzində əldə edilmiş xalis vəsaitə təsir | 469 145 | (469 145) | 382 561 | (382 561) | 38 974 | (38 974) |

| | 31 dekabr 2007-ci il | | | | | |
|---|---|---|---|---|---|---|
| | AZN/ABŞ dolları | | AZN/AVRO | | AZN/İngilis funt sterlinqi | |
| | + 10% | –10% | + 10% | –10% | + 10% | –10% |
| İl ərzində əldə edilmiş xalis vəsaitə təsir | 127 062 | (127 062) | 70 237 | (70 237) | 8 761 | (8 761) |

*Coğrafi təhlil*

| | Azərbaycan | Avropa | Amerika | Asiya | Afrika | Beynəlxalq təşkilatlar | 31 dekabr 2008-ci il Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 79 563 | 313 948 | 79 020 | – | – | – | 472 531 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | – | 4 702 139 | 2 572 743 | 176 884 | 8 380 | 1 053 904 | 8 514 050 |
| **Cəmi maliyyə aktivləri** | **79 563** | **5 016 087** | **2 651 763** | **176 884** | **8 380** | **1 053 904** | **8 986 581** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 300 | – | – | – | – | – | 300 |
| **Cəmi maliyyə öhdəlikləri** | **300** | **–** | **–** | **–** | **–** | **–** | **300** |
| **Xalis mövqe** | **79 263** | **5 016 087** | **2 651 763** | **176 884** | **8 380** | **1 053 904** | **8 986 281** |

| | Azərbaycan | Avropa | Amerika | Asiya | Afrika | Beynəlxalq təşkilatlar | 31 dekabr 2007-ci il Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 32 622 | 242 886 | 40 702 | – | – | – | 316 210 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | – | 602 733 | 1 004 292 | 99 987 | 9 281 | 59 926 | 1 776 219 |
| Digər maliyyə aktivləri | – | – | 761 | – | – | – | 761 |
| **Cəmi maliyyə aktivləri** | **32 622** | **845 619** | **1 045 755** | **99 987** | **9 281** | **59 926** | **2 093 190** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 27 | – | – | – | – | – | 27 |
| **Cəmi maliyyə öhdəlikləri** | **27** | **–** | **–** | **–** | **–** | **–** | **27** |
| **Xalis mövqe** | **32 595** | **845 619** | **1 045 755** | **99 987** | **9 281** | **59 926** | **2 093 163** |

*Faiz dərəcəsi riski*

31 dekabr 2008 və 2007-ci il tarixlərinə depozitlər və borc qiymətli kağızları faiz gəliri gətirən idi və bu səbəbdən də onlar faiz dərəcəsi riskinə məruz qalmışdır. Fond bu riski maliyyə bazarlarındakı vəziyyətdən asılı olaraq, investisiya portfelindəki aktivlərin müddətini tədricən artırmaq və ya azaltmaqla idarə edir.

Risklərə nəzarət və idarəetmə yuxarıda qeyd edilən limitlərə uyğun olaraq İnvestisiya Şurası və Fondun Rəhbərliyi tərəfindən həyata keçirilir. Bütün təkliflər/qərarlar İnvestisiya Şurası tərəfindən hazırlanır və daha sonra Fondun rəhbərliyi tərəfindən təsdiq edilməlidir. Risklərin gündəlik idarə edilməsi Risklərin İdarə Edilməsi Departamenti tərəfindən həyata keçirilir.

Aşağıdakı cədvəldə faiz dərəcəsi 1% dəyişərkən Fondun maliyyə aktivlərinin ədalətli dəyərindəki dəyişikliyin xalis təsiri göstərilir. Faiz dərəcəsi riskinin həssaslığın təhlili "risk faktorunun gözlənilə biləcək dəyişməsi" əsasında həyata keçirilmişdir. Belə dəyişmənin dərəcəsi rəhbərlik tərəfindən təyin edilir və rəhbərliyə təqdim edilən risk hesabatlarında əks etdirilir.

Vergidən əvvəlki əlavə məbləğə təsiri:

| | 31 dekabr 2008 | | 31 dekabr 2007 | |
|---|---|---|---|---|
| | Faiz dərəcəsi + 1% | Faiz dərəcəsi –1% | Faiz dərəcəsi + 1% | Faiz dərəcəsi –1% |
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | – | – | 4 | (4) |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | (105 526) | 105 526 | (22 309) | 22 309 |
| Vergidən əvvəlki əlavə məbləğə xalis təsiri | **(105 526)** | **105 526** | **(22 305)** | **22 305** |

***Həssaslıq analizi ilə bağlı məhdudiyyətlər***

Yuxarıdakı cədvəllər digər ehtimallarda dəyişikliklər olmadıqda əsas ehtimalların dəyişməsinin təsirini əks etdirir. Əslində cədvəldə qeyd edilən ehtimallarla digər faktorlar arasında qarşılıqlı əlaqə mövcuddur. Qeyd etmək lazımdır ki, cədvəldəki həssaslıq göstəriciləri xətti funksiya üzrə hesablanmır və valyuta məzənnəsinin daha çox və ya az dəyişməsinə qarşı həssaslığı cədvəldə göstərilən rəqəmlər əsasında birbaşa interpolyasiya və ekstrapolyasiya edilə bilməz.

Həssaslıq analizi Fondun aktivlərinin və öhdəliklərinin fəal şəkildə idarə edildiyini nəzərə almır. Bundan əlavə, Fondun maliyyə vəziyyəti bazarda dəyişikliklər baş verdikdə dəyişə bilər. Məsələn, Fondun maliyyə riskinin idarə edilməsi strategiyası bazardakı dəyişikliklərə qarşı həssaslığın idarə edilməsini nəzərdə tutur. Bazardakı dəyişikliklər müəyyən həddi keçəndə Fondun rəhbərliyi bəzi investisiyaları satmaq, investisiya portfelinin strukturunu dəyişdirmək və ya müəyyən sığortalayıcı addımlar atmaq kimi qərarlar həyata keçirə bilər. Nəticədə, ehtimallardakı dəyişikliklər öhdəliklərə heç bir təsir göstərməyə bilər, aktivlər isə balans hesabatında bazar qiyməti ilə dəyərləndiriləcək. Belə hallarda aktivlər və öhdəliklər üçün müxtəlif qiymətləndirmə bazasından istifadə edilməsi xalis aktivlərin dəyişməsinə gətirib çıxara bilər.

Yuxarıda qeyd edilən həssaslıq təhlilləri ilə bağlı digər məhdudiyyətlərə aşağıdakılar daxildir: yaxın dövrdə mümkün bazar dəyişiklikləri ilə bağlı hər hansı əminlik olmadan qabaqcadan verilən və yalnız Fondun mövqeyini əks etdirən potensial riskin nümayiş etdirilməsi üçün hipotetik bazar dəyişikliklərindən istifadə və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət etməsi ehtimalı.

***Likvidlik riski***

Fondun siyasəti hər bir şəraitdə Fondun öhdəliklərini ödəmək üçün likvidliyin lazım olan səviyyədə saxlanılmasından ibarətdir.

Aşağıdakı cədvəldə balansdakı əməliyyatlar üzrə Fondun aktivlərinin likvidlik riski təhlili öz əksini tapmışdır:

31 dekabr 2008-ci il tarixinə

| | **1 aya qədər** | **1 aydan 3 aya qədər** | **3 aydan 1 ilə qədər** | **1 ildən 5 ilədək** | **5 ildən çox** | **Qeyri-müəyyən ödəniş vaxtı** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 261 799 | 210 732 | – | – | – | – | 472 531 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | 317 919 | 98 409 | 2 396 279 | 5 664 214 | 35 352 | 1 877 | 8 514 050 |
| **Cəmi maliyyə aktivləri** | **579 718** | **309 141** | **2 396 279** | **5 664 214** | **35 352** | **1 877** | **8 986 581** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 300 | – | – | – | – | – | 300 |
| **Cəmi maliyyə öhdəlikləri** | **300** | **–** | **–** | **–** | **–** | **–** | **300** |
| **Likvidlik intervalı** | **579 418** | **309 141** | **2 396 279** | **5 664 214** | **35 352** | **1 877** | **8 986 281** |

31 dekabr 2007-ci il tarixinə:

| | **1 aya qədər** | **1 aydan 3 aya qədər** | **3 aydan 1 ilə qədər** | **1 ildən 5 ilədək** | **5 ildən çox** | **Qeyri-müəyyən ödəniş vaxtı** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 316 210 | – | – | – | – | – | 316 210 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış qiymətli kağızlar | 15 081 | 100 254 | 699 673 | 879 042 | 80 025 | 2 144 | 1 776 219 |
| Digər maliyyə aktivləri | 761 | – | – | – | – | – | 761 |
| **Cəmi maliyyə aktivləri** | **332 052** | **100 254** | **699 673** | **879 042** | **80 025** | **2 144** | **2 093 190** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 27 | – | – | – | – | – | 27 |
| **Cəmi maliyyə öhdəlikləri** | **27** | **–** | **–** | **–** | **–** | **–** | **27** |
| **Likvidlik intervalı** | **332 025** | **100 254** | **699 673** | **879 042** | **80 025** | **2 144** | **2 093 163** |

***Qiymət riski***

Qiymət riski hər hansı qiymətli kağıza və ya onun emitentinə və ya ümumiyyətlə bazara təsir göstərən faktorlara görə maliyyə alətinin bazar qiymətinin dəyişməsi riskidir. Fondun aktivləri ümumi və xüsusi bazar faktorlarının təsiri nəticəsində qiymət riskinə məruz qalır.

Fond qiymət riskini bazarda şəraitin pisləşməsindən əmələ gələ biləcək itkilərin periodik hesablanması və aktivlərin idarə edilməsində “stop-loss” limitlərinin, marja və əlavə zəmanət tələblərinin tətbiq edilməsi ilə idarə edir.

Risklərə nəzarət və idarəetmə yuxarıda qeyd edilən limitlərə uyğun olaraq İnvestisiya Şurası və Fondun Rəhbərliyi tərəfindən həyata keçirilir. Bütün təkliflər/qərarlar İnvestisiya Şurası tərəfindən hazırlanır və daha sonra Fondun rəhbərliyi tərəfindən təsdiq edilməlidir. Risklərin gündəlik idarə edilməsi Risklərin İdarə Edilməsi Departamenti tərəfindən həyata keçirilir.

| | **31 dekabr 2008-ci il** | | **31 dekabr 2007-ci il** | |
|---|---|---|---|---|
| | **Qiymətli kağızların qiymətin 1% artım** | **Qiymətli kağızların qiymətin 1% azalma** | **Qiymətli kağızların qiymətin 1% artım** | **Qiymətli kağızların qiymətin 1% azalma** |
| Mənfəət vergisinə təsiri | 85 140 | (85 140) | 17 762 | (17 762) |
| Kapitala təsiri | 85 140 | (85 140) | 17 762 | (17 762) |

## 18. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Əlaqəli tərəflərin açıqlamaları” haqqında İSMUBS 20-də müəyyən edildiyi kimi əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar dedikdə birbaşa və ya dolayı şəkildə bir və ya daha çox vasitəçilər vasitəsilə nəzarət edən, və ya nəzarət edilən, və ya Fondun ümumi nəzarət altında olan; Fonda mühüm təsir göstərmək üçün Fondda payı olan və Fonda birgə nəzarət edən tərəflər nəzərdə tutulur.

31 dekabr tarixinə əlaqəli tərəflərlə razılaşma aşağıdakılardan ibarətdir:

| **Əlaqəli tərəf** | | **Əlaqəli tərəflərdən daxilolmalar** | **Əlaqəli tərəflərə köçürülmələr** | **Əlaqəli tərəflər üzrə kreditor borcları** | **Əlaqəli tərəflər üzrə debitor borcları** | **Əlaqəli tərəflərlə bank hesabları** | **Mənfəət vergisi xərci** | **Əlaqəli tərəflərlə balansdan kənar hesabları** |
|---|---|---|---|---|---|---|---|---|
| ARDNŞ | ***2008*** | **11 526 986** | **–** | **–** | **–** | **–** | **–** | **–** |
| | *2007* | 1 675 019 | – | – | – | – | – | – |
| Dövlət Büdcəsi | ***2008*** | **–** | **3 800 000** | **–** | **13 129** | **–** | **–** | **–** |
| | *2007* | – | 585 000 | 12 608 | – | – | 13 129 | – |
| Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi | ***2008*** | **–** | **211 820** | **–** | **–** | **–** | **–** | **–** |
| | *2007* | – | 132 907 | – | – | – | – | – |
| Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlər üzrə Dövlət Komitəsi və Sosial İnkişaf Fondu | ***2008*** | **–** | **144 999** | **–** | **–** | **–** | **–** | **–** |
| | *2007* | – | 154 117 | – | – | – | – | – |
| Samur Abşeron suvarma sisteminin yenidən qurulması | ***2008*** | **–** | **120 600** | **–** | **–** | **–** | **–** | **–** |
| | *2007* | – | 76 900 | – | – | – | – | – |
| Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi | ***2008*** | **–** | **5 271** | **–** | **–** | **–** | **–** | **–** |
| | *2007* | – | 20 712 | – | – | – | – | – |
| AÇG üzrə layihədə ARDNŞ-in iştirak payının tənzimlənməsi | ***2008*** | **–** | **–** | **–** | **–** | **–** | **–** | **–** |
| | *2007* | – | 87 559 | – | – | – | – | – |
| Azərbaycan Respublikası Təhsil Nazirliyi | ***2008*** | **–** | **2 296** | **–** | **–** | **–** | **–** | **–** |
| | *2007* | – | – | – | – | – | – | – |
| Azərbaycan Respublikası Milli Bankı | ***2008*** | **–** | **–** | **–** | **–** | **78 402** | **–** | **–** |
| | *2007* | – | – | – | – | 31 998 | – | – |
| Azərbaycan Respublikası Beynəlxalq Bankı | ***2008*** | **–** | **–** | **–** | **–** | **1 147** | **–** | **–** |
| | *2007* | – | – | – | – | 624 | – | – |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | ***2008*** | **–** | **–** | **–** | **–** | **–** | **–** | **128 584** |
| | *2007* | – | – | – | – | – | – | 535 000 |

Əlaqəli tərəflərlə əməliyyatlar 9, 10 və 19-cu qeydlərdə tam şəkildə əks olunmuşdur.

*Əsas idarəedici heyət*

Baş rəhbərlik qrupu Fondun İcraçı Direktorundan və idarə rəhbərlərindən ibarətdir. Baş rəhbərlik qrupu üzvlərinin məcmu haqqı və bu kateqoriya daxilində tam məşğulluq ekvivalenti əsasında müəyyən edilən və ödəniş alan rəhbərlərin sayı aşağıdakı cədvəldə göstərilir:

| | 2008 | 2007 |
|---|---|---|
| Məcmu ödənişlər | **50** | 39 |
| Şəxslərin sayı | **3** | 2 |

## 19. QİYMƏTLƏNDİRİLMİŞ ÖHDƏLİKLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

*Balansdankənar əməliyyatlar*

11 avqust 2006-cı il tarixdə Fond ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyi arasında sərbəst (qalıq) büdcə vəsaitlərin etibarlı idarəetməyə verilməsi haqqında Aktivlərin İdarə Edilməsi Müqaviləsi imzalanmışdır. Bu müqaviləyə uyğun olaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sərbəst büdcə vəsaitləri Fonda köçürülməli və Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə müqavilədə göstərilmiş aktivlərin idarə edilməsi qaydaları əsasında Fondun idarə edilməsinə verilməlidir. Fond bu aktivləri əvəzsiz olaraq öz adından və Maliyyə Nazirliyinin xeyrinə, onun xərcləri və riskləri hesabına idarə edir. 31 dekabr 2008-ci il tarixinə bu müqavilə əsasında qəbul edilmiş vəsait hesablanmış faizi də daxil olmaqla 128 584 min manat (ABŞ dolları ilə 128 724 min, İngiltərə funt sterlinqi ilə 5 629 min və Avro ilə 16 768 min (2007-ci ildə manatla 535 229 min (ABŞ dolları ilə 570 722 min və İngiltərə funt sterlinqi ilə 31 286 min)) təşkil etmişdir.

*Hüquqi prosedurlar*

2004-cü ildə Azərbaycan Respublikası Rabitə Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Fond da daxil olmaqla Azərbaycan Respublikasının hökumətinə qarşı cəmi təxminən altı milyon ABŞ dolları məbləğində məhkəmə iddiası qaldırılmışdır. Bu məhkəmə iddiası bir xarici bank tərəfindən Niderlandın Rotterdam Dairə Məhkəməsində qaldırılmışdır. 24 dekabr 2008-ci il tarixli aralıq qərarda məhkəmə iddiaçı banka iddianın əsasını təşkil edən faktlarla bağlı sübutlar təqdim etməyi tapşırmışdır. Şahidlərin növbəti dinlənilməsi 2009-cu ildə olacaq. Beləliklə, hazırkı maliyyə hesabatlarının hazırlandığı tarixə məhkəmə prosesinin nəticəsi müəyyən deyildir.

Fondun rəhbərliyi hesab edir ki, bu məhkəmə iddiası əsassızdır və Azərbaycan Respublikası hökuməti bu iddiada üstünlük qazanacaqdır. Bu maliyyə hesabatlarına həmin qeyri-müəyyənlik nəticəsindən yarana biləcək düzəlişlər daxil deyildir.

*Vergiqoyma*

Azərbaycan vergi qanunvericiliyində mənfəət vergisi hesablanarkən müəyyən maddələrin müxtəlif mənada başa düşülməsi ehtimal edilə bilər, bu da Fondun üzərində müəyyən əlavə vergi, cərimə və faiz daxil olmaqla əlavə öhdəliklərin yaranmasına şərait yarada bilər. Vergi orqanları mənfəət, ƏDV, gəlir, mənbəədən və sair vergilərin hesablanmasını yalnız son 3 təqvim ili üzrə yoxlamaq hüququna malikdir. Fondun rəhbərliyi inanır ki, bütün vergi ödəmələri yerinə yetirilib və buna görə heç bir ehtiyatın yaradılması tələb olunmur.

*Əməliyyat mühiti*

Fond Azərbaycan Respublikasında təsis olunmuşdur və əsas biznes fəaliyyətini bu ölkədə aparır. Azərbaycan Respublikasında iş mühitinə təsir edən qaydalar və qanunlar dəyişikliklərə məruz qaldıqda baş verə biləcək mənfi dəyişikliklər Fondun aktivlərini və əməliyyatlarını riskə məruz qoya bilər.

## 20. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERƏN HADİSƏLƏR

***Daxilolmalar və köçürmələr***

"Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2009-cu il üçün Büdcəsinin təsdiq edilməsi haqqında" 26 fevral 2009-cu il tarixli 68 saylı Fərmanına uyğun olaraq Fondun 2009-cu il büdcəsinin gəlirləri 8 361 016 min manat, xərcləri isə 5 319 535 min manat məbləğində təsdiq edilmişdir. Fondun 2009-cu il büdcəsinin xərcləri aşağıdakı əsas istiqamətlərə yönəldilib:

- Azərbaycan Respublikasının Dövlət Büdcəsinə köçürmə - 4 915 000 min manat;
- Samur-Abşeron suvarma sisteminin yenidən qurulması - 110 000 min manat;
- Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi - 100 000 min manat;
- Qaçqınların və məcburi köçkünlərin sosial-məişət məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi - 80 000 min manat;
- Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi - 80 000 min manat;
- 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsi -10 000 min manat.

***Son zamanlar qlobal maliyyə bazarlarındakı dəyişkənlik***

Son aylarda dünya üzrə bir sıra böyük ölkələrin kapital və kredit bazarlarında dəyişikliklər müşahidə olunur. Bir sıra iri maliyyə təşkilatları müflisləşmiş, digər maliyyə təşkilatlarının sahibliyinə keçmiş və/və ya hökumət maliyyələşmələri hesabına yardım göstərilmişdir. Dünya ölkələrinin kapital və kredit bazarlarındakı dəyişikliklər nəticəsində və dünya üzrə bir sıra ölkələrin hökumətləri tərəfindən iqtisadiyyatın stabilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərə baxmayaraq bu maliyyə hesabatlarının buraxılması tarixinə Fond və onun tərəfdaşları üçün daim kredit imkanlarının olacağı ətrafında iqtisadi qeyri-müəyyənliklər, yaxın gələcəkdə bu iqtisadi qeyri-müəyyənliklərin davam edəcəyi və nəticədə adi fəaliyyət zamanı aktivlərin öz balans dəyərini bərpa etməməsi ehtimalı, xərc və Fondun rentabelliyinə müvafiq təsiri ehtimalı mövcuddur.

***Maliyyə aktivlərinin bərpa edilməsi mümkünlüyü***

Son zamanlar dünya ölkələrinin kapital və kredit bazarlarındakı iqtisadi dəyişikliklər və balans hesabatı tarixinə yaranan iqtisadi qeyri-müəyyənliklərlə əlaqədar aktivlərin adi fəaliyyət zamanı öz balans dəyərini bərpa edə bilməyəcəyi ehtimalı vardır.

İlin sonunda, Fondun mənfəət və zərərdə əks olunan maliyyə aktivləri 8 986 581 min manat təşkil etmişdir (31 dekabr 2007: 2 093 190 min manat). Bu maliyyə aktivlərinin bərpa edilməsi fiskal tədbirlərdən və Fondun nəzarətində olmayan və müxtəlif ölkələr tərəfindən iqtisadi stabilliyin əldə olunması üçün həyata keçirilən digər tədbir və hərəkətlərdən asılıdır. Fondun fərqi gəlirlər və ya xərclərdə əks olunan ədalətli dəyəri ilə hesablanmış maliyyə aktivlərinin qaytarılması hesabat tarixinə mövcud olan məlumat əsasında müəyyən edilmişdir. Rəhbərliyin fikrincə, mövcud şəraitə və əldə olan məlumata əsaslanaraq hazırda Fondun maliyyə aktivlərinin ədalətli dəyərinə düzəlişlər edilməsinə ehtiyac yoxdur.

# MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA HESABAT 31 DEKABR 2008-ci İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ

Müstəqil auditorların 2-ci və 3-cü səhifədə təqdim olunmuş rəyində şərh olunan müstəqil auditorların məsuliyyəti ilə bağlı oxunmalı olan bu hesabat Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra "Fond" adlanacaq) maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (bundan sonra "İSMUBS" adlanacaq) uyğun olaraq Fondun 31 dekabr 2008-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini, pul vəsaitlərinin hərəkətini və xalis aktivlərdə dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərlik aşağıdakılara məsuldur:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl surətdə tətbiqinə;
- Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına; və
- Fondun öz fəaliyyətini davam etdirməsi mümkün olmaması istisna olmaqla təxmin edilə bilən dövr ərzində maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Fondda effektiv və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Fondun maliyyə vəziyyətini istənilən zaman lazımi dərəcədə dəqiq açıqlayan və onun maliyyə hesabatlarının İSMUBS-un tələblərinə uyğun olduğuna təminat verən düzgün mühasibat uçotu sisteminin saxlanılmasına;
- Mühasibat uçotunun Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu standartlarına uyğun aparılmasına;
- Fondun aktivlərinin mühafizə edilməsi üçün öz səlahiyyətləri daxilində mümkün tədbirlərin görülməsinə; və
- Saxtakarlıq hallarının, səhv və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

31 dekabr 2008-ci il tarixdə bitən il üzrə maliyyə hesabatlarının buraxılması 14 aprel 2009-cu il tarixdə Fondun rəhbərliyi tərəfindən təsdiq olunmuşdur.